Şeyx Əli Ali-Muhsin

# ABDULLAH İBN SƏBƏ:

## ~~həqiqət~~ yoxsa xürafat?



313news

**Şeyx Əli Ali-Muhsin**

# ABDULLAH İBN SƏBƏ:
# HƏQİQƏT YOXSA XÜRAFAT?

Layihə rəhbəri: 313news.net
Tərcüməçi: Hilal Ağamoğlanov
Redaktor: Peyman Məmmədov
Korrektor: Peyman Məmmədov

Bəzi islam məzhəbləri nəzərində Abdullah ibn Səbə şəxsiyyəti nəinki Osmanın zamanında baş vermiş "fitnə" hadisələrində iştirak etmiş bir yəhudidən ibarətdir, eyni zamanda o, digər tarixi şəxsiyyətlərin sahib olmadıqları böyük bir əhəmiyyətə sahib olan bir kəsdir. Məhz bu səbəbdən istər şiə, istərsə də sünni müəllifləri tərəfindən bu şəxsiyyətlə bağlı inkar və təsdiq məzmunlu müxtəlif kitablar yazılmışdır.

Abdullah ibn Səbə şəxsiyyətinin aktuallığı onun Osmanın zamanında baş verən fitnələrin səbəbkarı, Osmanın qətlə yetirilməsinə gətirib çıxaran hadisələrin əsas təhrikçisi və bu hadisələrdən sonra baş vermiş minlərlə insanın həyatını itirdiyi qanlı müharibələrin mənşəyi olması iddiası ilə əlaqələnir. Bununla yanaşı, şiə düşmənləri şiə məzhəbinin əsl qurucusunun, rəcət, Əli ibn Əbu Talibin canişinliyi və s. kimi şiəliyin mühüm etiqadlarının məhz yəhudi Abdullah ibn Səbə tərəfindən icad edildiyini etmiş, bununla da mövzu daha fərqli əhəmiyyət kəsb etmişdir.

Elə isə, bu məqamda aşağıdakı məsələləri dəqiqləşdirmək zərurəti yaranır:

Görəsən, Abdullah ibn Səbə həqiqətdir, yoxsa xurafat?

Görəsən, onun "fitnə" hadisələrində rolu olmuşdurmu?

Görəsən, o, həqiqətən də şiə məzhəbinin qurucusudurmu?

Şiə məzhəbinin Abdullah ibn Səbə ilə bir əlaqəsi varmı?

Bütün bu məsələlər qarşıdakı fəsillərdə aydınlaşdırılacaq, inşallah.

## MÜNDƏRİCAT


BİRİNCİ FƏSİL ............ 6

Abdullah ibn Səbə kimdir? ............ 6

İKİNCİ FƏSİL ............ 11

İbn Səvda kimdir? ............ 11

1. Anasına görə məzəmmət olunan səhabə: ............ 11
2. Kimliyi bilinməyən, lakin "İbn Səvda" adlanan bir şəxs: ............ 12
3. Xəvaricin öndə gedənlərindən olan Abdullah ibn Vəhb Rasibi: ............ 12
4. Üsamə ibn Zeyd: ............ 13
5. Əmmar ibn Yasir: ............ 14

ÜÇÜNCÜ FƏSİL ............ 19

Səbə və səbəlilər ............ 19

Səbaiyyun və ya səbalılar ............ 22

Səbaiyyə – Səbalılar firqəsi ............ 24

DÖRDÜNCÜ FƏSİL ............ 30

Abdullah ibn Səbə əhli-sünnə mənbələrində ............ 30

BEŞİNCİ FƏSİL ............ 42

Abdullah ibn Səbə şiə mənbələrində ............ 42

ALTINCI FƏSİL ............ 50

"İbn səbə" Abdullah ibn Vəhb Rasibidirmi? ............ 50

YEDDİNCİ FƏSİL ............ 61

"İbn səbə" səhabə Əmmar ibn Yasirdirmi? ............ 61

SƏKKİZİNCİ FƏSİL ............ 69

İmam Əli (Ə) Abdullah İbn Səbəni Mədainə sürgün edibmi? ............ 69

DOQQUZUNCU FƏSİL ............ 80

İbn səbə yəhudi olub? ............ 80

Görəsən, fitnə hadisələrində iştirak edibmi? ............ 80

ONUNCU FƏSİL ............ 92

Abdullah İbn Səbənin şəxsiyyəti barədə təzadlı fikirlər ............ 92

Abdullah ibn Səbənin mövcudluğu barədə ixtilaf ............ 92

İbn Səbənin sürgün olunması və yandırılması mövzusunda ixtilaf ............ 96

ON BİRİNCİ FƏSİL....105
Abdullah ibn Səbə məsələsində yekun mövqe....105
Bir dəstə ifratçının yandırıldığına dəlalət edən Əhli-Sünnə rəvayətləri....106
Araşdırmanın nəticəsi....111
ON İKİNCİ FƏSİL....114
Şiə məzhəbinin Abdullah ibn Səbədən uzaqlığı....114
SON....118

## BİRİNCİ FƏSİL

## Abdullah ibn Səbə kimdir?

Əksər şiə və sünni mənbələrində qeyd olunana əsasən, onun adı Abdullah ibn Səbədir. Mənbələrdə onun adı üçün hər hansı başqa bir əlavə (ləqəb, atalarının, babalarının adı və ya mənsub olduğu qəbilənin adı) qeyd olunmamışdır.

Bilinmir, Səbə onun atasının adıdır, yoxsa onun Yəmən qəbilələrinin əksəriyyətinin mənsub olduğu Səbə ibn Yəşcəb ibn Yərəb ibn Qəhtanın nəslindən olduğuna bir işarədir.

Bəli, Bəlazuri "Ənsabul-əşraf" kitabında, Zəhəbi "əl-Müştəbih" kitabında, Məqrizi "əl-Xutat" kitabında, digərləri də öz kitablarında onun adını Abdullah ibn Vəhb Səbai kimi qeyd etmişlər[1]. Lakin belə görünür, bu müəlliflər adlarda və "Səbə"-yə mənsubiyyətdə oxşarlığa görə Abdullah ibn Səbə ilə Nəhrəvan döyüşündə qətlə yetirilən Abdullah ibn Vəhb Rasibi Səbaini səhv salmışlar. Bu barədə daha sonra danışacağıq.

İbn Səbənin anasına gəlincə, onun kimliyi, haradan olduğu, adının nə olduğu və hansı qəbiləyə mənsub olduğu bilinmir. Təkcə bilinən onun "qara" (Səvda) olmasıdır. Çünki Seyf ibn Ömərin rəvayətləri Abdullah ibn Səbəni "İbn Səvda" ("Qara qadının oğlu") kimi vəsf edir.

Tarixi mənbələr və gəlib çatan rəvayətlər arasında Abdullah ibn Səbənin həyat yoldaşı, övladları, bacı-qardaşları, xala-bibiləri, əmi-dayıları və s. bu qəbildən qohumları ilə bağlı da heç bir məlumata rast gəlmirik. Bircə Şeyx Səduqun "əl-İtiqadat" kitabında onun nəslinin olduğuna dəlalət edən bir rəvayət gəlmişdir. Lakin o rəvayət də mürsəldir və bu səbəbdən mötəbər sayılmır. Həmin rəvayətdə deyilir:

[1] "Ənsabul-əşraf": 2/383 (Əllamə Əskərinin "Abdullah ibn Səbə" kitabından nəqlən: 2/321), Taha Hüseyn "Əli və bənuhu" kitabında (səh.519) belə deyir: "İbn Səbə Bəlazurinin nəzərində İbnus-Səvda deyil, məhz Abdullah ibn Vəhb əl-Həmədanidir".

Zürarə dedi:

Sadiqə (ə) dedim:

– Abdullah ibn Səbənin övladlarından olan bir kişi təfvizə (həvalə etməyə) etiqad edir.

Dedi:

– Təfviz (həvalə etmək) nədir?

Dedim:

– Deyir ki, Allah həzrət Muhəmmədi və Əlini yaradıb, sonra aləmin işlərini onlara həvalə edib. Onlar da (məxluqatı) yaradıblar, ruzi veriblər, dirildiblər, öldürüblər.

Dedi:

– Allahın düşməni yalan deyib. Onun yanına getsən, ona Rəd surəsinin bu ayəsini oxarsan: "**Yoxsa (müşriklər) Allaha Onun yaratdıqları kimi (bəzi şeylər) yaradan şəriklər qoşublar və (nəticədə bu) iki cür yaradılış, ya yaradılmışlar, ya yaradanlar (arasındakı oxşarlıq) onları çaş-baş salıb (və buna görə də şərikləri də ibadətə layiq biliblər)? De: "(Şübhəsiz) hər bir şeyin yaradanı Allahdır və Odur tək, (varlıq aləminin bütün hissəciklərinə) qalib və mütləq hakim olan!**"[2]

Mən o adamın yanına gedib Sadiqin (ə) dediyini ona çatdırdım. Sanki səsi kəsildi, lal oldu.[3]

Abdullah ibn Səbə barədə yazan tarixçilərin demək olar ki, hamısı onun Yəməndən Səbə qəbiləsindən olduğunu yazmışlar. Bircə, İbn Həzm "əl-Fasl fil-miləl vəl-əhvai vən-nihəl" kitabında onun Himyər qəbiləsindən[4], Bəlazuri və Səd Əşəri də Həmdan qəbiləsindən olduğunu yazmışlar[5].

---

[2] Rəd, 16.

[3] "Əl-İtiqadat" (daş çapı): səh. 39.

[4] "Əl-Fasl fil-miləl vəl-əhvai vəl-nihəl": 2/90, 274; 5/36, 46.

[5] "Ənsabul-əşraf": səh.372; "Əl-Məqalatu vəl-firəq": səh.20.

Seyf ibn Ömər isə onun Yəmən yəhudilərindən olduğunu nəql etmişdir. Onun rəvayətini Təbəri "Tarix" kitabında nəql etmişdir.

Həmçinin, deyilənə görə, Bağdadi "əl-Farq beynəl-firəq" əsərində onun İraqın Hirə məntəqəsinin yəhudilərindən olduğunu demişdir[6]. Lakin bu, doğru deyil. Çünki Bağdadi məhz belə demişdir: "İbnus-Səvda nəsəb etibarilə Hirə yəhudilərindən idi". İbnus-Səvda deyərkən isə Bağdadi Abdullah ibn Səbəni deyil, başqa bir şəxsi nəzərdə tutmuşdur. Bunu onun daha sonra dediyi aşağıdakı sözlər təsdiq edir: "Əli – Allah ondan razı olsun – İbnus-Səvdanın və Abdullah ibn Səbənin öldürülməsi ilə fitnə yaranacağından qorxduğu üçün – İbn Abbasdan da bundan qorxmuşdu – o ikisini (öldürməyib) Mədainə sürgün etdi. Əlinin – Allah ondan razı olsun – qətlə yetirilməsindən sonra isə qara camaat o iki nəfərə aldandı".[7]

Bu söz açıq-aşkar şəkildə onu göstərir ki, Bağdadi yəhudi İbn Səvda ilə Abdullah ibn Səbənin ayrı-ayrı şəxslər olduğunu və həzrət Əlinin (ə) onları Mədainə sürgün etdiyini düşünürmüş.

Süleyman Audə isə "Abdullah ibn Səbə" kitabında belə deyir: "İbn Kəsir Abdullah ibn Səbənin əslən rumlu (qərbli, avropalı) olduğu fikrində olmuşdur. Belə ki, demişdir: "Onun əsli rumlu olmuşdur. Lakin zahirdə özünü müsəlman kimi göstərmiş, sözdə və əməldə bidətlər çıxarmışdır. Allah onun üzünü qara etsin".[8]

Lakin İbn Kəsirin kitabının mənim əlimdə olan çapında sözügedən yerdə belə yazılıb: "Onun əsli zimmi[9] olmuşdur. Lakin zahirdə özünü müsəlman kimi göstərmiş..."[10]

---

6 "Abdullah ibn Səbə", Süleyman əl-Audə: səh.39.

7 "Əl-Farq beynəl-firəq": səh.235.

8 "Abdullah ibn Səbə": səh. 40.

9 İslam dövlətində yaşayan, cizyə (vergi növüdür) verməklə öz dinində qalan yəhudi, xristian və qeyrilərinə deyilir. Tərc.

10 "Əl-Bidayə vən-nihayə": 7/181, "Darul-kutubil-ilmiyyə", Beyrut, 1405 h. "Məktəbətul-məarif" çapında (Beyrut) da cümlə belədir.

Onu da qeyd etmək lazımdır ki, bu fikir İbn Kəsirin şəxsi fikri deyil, çünki o bunu Seyf ibn Ömərdən nəql etmişdir.

Araşdırmalardan sonra biz bu qənaətdəyik ki, İbn Səbənin yəhudi olmasına dəlalət edən heç bir səhih dəlil yoxdur. Bu barədə deyilən bütün sözlər Seyf ibn Ömər Təmiminin rəvayətlərinə əsaslanır. Onun rəvayətlərinə isə sonrakı fəsillərdə danışacağımız kimi, etimad etmək və güvənmək olmaz.

Seyf ibn Ömər öz rəvayətlərində Abdullah ibn Səbəni Yəməndən olan qara dərili bir yəhudi kimi təsvir etmişdir. Seyfə görə, Abdullah Osmanın xilafətinin sonlarında müsəlman olmuş, Bəsrədə, Kufədə, Hicazda, Şamda və Misirdə dolaşaraq camaatı Osmana qarşı qaldırmış, camaatı Osmanı hakimiyyətdən salmağa təşviq etmiş, Osman və onun valiləri haqqında nalayiq sözlər danışmışdır. Habelə, öz hiylələri ilə camaatı aldada və özünə dəstəkçi toplaya bilmiş, öz adamlarını fitnə çıxarmaqdan ötrü ölkə və şəhərlərə salmışdır. Sonda isə fitilini alovlandırdığı fitnə odu Osmanın qətlə yetirilməsinə gətirib çıxarmışdır.

Sonra Osmanın qətlinə görə cəzalanmaqdan qurtulmaqdan ötrü öz adamları ilə birlikdə xüsusi hiyləgərliklə Əlinin (ə) səhabələri arasına sızmış, Əlinin və Əhli-Beytinin şiəsi libası altında gizlənmişdir.

Əbu Bəkr və Ömər barəsində pis sözlər danışır, Peyğəmbərin (s) və Əli ibn Əbu Talibin (ə) öldükdən sonra dünyaya qayıdacaqlarını deyir, Əlinin Peyğəmbərin vəsisi və Quranda adı keçən "dəbbətul-ard" (yerdən çıxan bir canlı) olduğunu söyləyirmiş.

Bir qrup şəxs isə nəql etmişlər ki, İbn Səbə Əli (ə) barəsində ifrata varır, onun ilah olduğunu, onda ilahi xüsusiyyətlər olduğunu, buludlarda yaşadığını və göy gurultusunun onun səsi olduğunu iddia edirmiş. Həzrət Əli ondan və bir qrup adamından bu fikirlərdən dönüb tövbə etmələrini tələb etmiş, lakin onlar tövbə etməmişlər. Bundan sonra da Əli onları odda yandırmış və beləcə onların kitabı bağlanmışdır.

Bəziləri isə nəql edirlər ki, güya İbn Abbas və ya başqaları Abdullah ibn Səbə barəsində Əlidən əfv xahiş edərək, “o, tövbə edib”, - demişlər, Əli də onu azad edərək Mədainə sürgün etmişdir. Sonra o, Əli (ə) qətlə yetirilənə qədər orada qalmış, həzrət Əlinin ölüm xəbəri ona çatdıqda isə, “Allaha and olsun, əgər onun beynini yetmiş kisəcikdə gətirsəniz belə, yenə onun öldüyünə inanmayacağıq. O, ərəbləri qabağına qatıb əsası ilə sürməyincə ölməyəcək”, - demişdir.

Qısası, Abdullah ibn Səbə barəsində əlimizdə olan məlumatlar bunlardan ibarətdir. Nə tarixi, nə də digər mənbələrdə onun barəsində bu qeyd edilənlərdən artıq bir şey deyilməmişdir. Onun nə ölüm vaxtı, nə də ölüm yeri qeydə alınmışdır. Üstəlik, barəsində deyilən məlumatlar da çoxlu ziddiyyətlər, ixtilaflar və qaranlıq məqamlar səciyyəvidir. Öz növbəsində bu ziddiyyətlər də tədqiqatçıları bu şəxsiyyətə münasibətdə fərqli mövqelər tutmağa vadar etmişdir. Onların bəziləri bu şəxsiyyətin uydurma olduğunu və onu şiə düşmənlərinin şiələri ləkələməkdən və məzhəblərini, o cümlədən bir sıra əqidələrini ona nisbət verməkdən ötrü yaratdıqlarını demiş, digərləri isə Abdullah ibn Səbənin həqiqi şəxsiyyət olub Osman ibn Əffanın qətlə yetirilməsində oynadığı rol ilə İslam tarixinin yönünü dəyişən bir şəxs olduğunu demişlər.

Biz inşallah, bu kitabın fəsillərinin birində tədqiqatçıların bu şəxsiyyət barəsində söylədikləri ixtilaflı fikirlərə toxunacağıq. Hansı ki, bu ziddiyətlər də öz növbəsində bir-birinə zidd və fərqli olan rəvayətlərdən qaynaqlanmışdır. Həm bir-birinə zidd və fərqli rəvayətlər, həm də mövzu barəsində səsləndirilən fərqli və müxtəlif fikirlər məsələnin mürəkkəbliyini daha da artırmış, belə demək mümkünsə, pərdə üstünə pərdə salmışdır. Bu isə şübhəsiz ki, məsələnin tədqiqini kifayət qədər çətinləşdirmişdir.

## İKİNCİ FƏSİL

## İbn Səvda kimdir?

Seyf ibn Ömər öz rəvayətlərində Abdullah ibn Səbəni gah bu adla, gah İbn Səvda (Qara qadının oğlu) adı ilə, gah da Abdullah ibn Səvda (Qara qadının oğlu Abdullah) adı ilə adlandırmışdır. Ondan sonra gələnlər də onun yolu ilə gedərək onu bu şəkildə adlandırmışlar. Nəticədə Abdullah ibn Səbə üçün üç ad yaranmışdır.

Bəs görəsən, hədislərdə İbn Səvda deyərkən xüsusi olaraq Abdullah ibn Səbə nəzərdə tutulub, yoxsa yox?

Bunun izahı üçün deyirik: "İbn Səvda" sözü şiə və sünni mənbələrində çoxlu hədislərdə gəlmişdir. Bu sözü adətən anası qaradərili olan şəxsləri analarına görə məzəmmət etməkdən ötrü istifadə etmişlər. Tarixdə bəzi səhabələr və eləcə də digərləri bu ifadə ilə məzəmmət olunmuşlar. Lakin biz Təbərinin "Tarix" kitabında Seyf ibn Ömərdən nəql olunan rəvayətlər istisna olmaqla, heç yerdə İbn Səvda deyərkən sırf Abdullah ibn Səbənin nəzərdə tutulduğunu görməmişik.

Əvvəlcə **şiə mənbələri**nə nəzər salaq. Şiə mənbələrində İbn Səvda adı müxtəlif şəxslərə aid edilmişdir. Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

### 1. Anasına görə məzəmmət olunan səhabə:

Bəzi rəvayətlərdən (bir qədər sonra sünni mənbələrindən nəql edəcəyimiz rəvayətdə olduğu kimi) belə başa düşülür ki, bu şəxs Bilal ibn Rabahdır. Hüseyn ibn Səid Əhvazi "əz-Zuhd" kitabında İmam Baqir və İmam Sadiqdən (ə) belə nəql edir:

"Peyğəmbərin (s) zamanında Əbuzər bir şəxsi anasına görə məzəmmət edərək, ona "ey İbn Səvda (ey qara qadının oğlu)", - dedi. O şəxsin anası qaradərili idi. Bunu eşidən Peyğəmbər (s) dedi: "Onu anasına görə məzəmmət edirsən, ey Əbuzər?!" Bu sözdən sonra Əbuzər üzünü və başını

torpağa bələməyə başladı. Bu işi o qədər təkrar etdi ki, nəhayət Allah rəsulu ondan razı qaldı”.[11]

**2. Kimliyi bilinməyən, lakin “İbn Səvda” adlanan bir şəxs:**

Numani “əl-Ğeybə” kitabında Müseyyib ibn Nəcəbəni görən bir şəxsdən belə nəql edir: “Bir nəfər İbn Səvda adlanan bir şəxslə birlikdə Əmirəlmömininin (ə) yanına gəlib dedi:

– Ey möminlərin əmiri, bu adam Allahın və Peyğəmbərin adından yalan danışır, hələ bir dediyinə səni də şahid gətirir.

Əli (ə) dedi:

– Nə deyir?

– Qəzəb ordusundan danışır.

– Bu adamla işin olmasın (düz deyir, həqiqətən də belə bir ordu olacaq). Onlar dünyanın axırına az qalmış bir vaxtda gələcək bir dəstə şəxsdirlər. Onlar (əvvəlcə) payız buludları kimi (orda-burda dağınıq vəziyyətdə) olacaqlar. (Sonra) hər bir qəbilədən bir nəfər, iki nəfər, üç nəfər gələcək və sayları doqquza çatacaq. Allaha and olsun, mən onların başçılarını və onun adını bilirəm.

Sonra İmam belə deyə-deyə ayağa qalxdı: Baqir, Baqir, Baqir![12]

Sonra dedi: O, mənim nəslimdən gələcək bir şəxsdir. Hədis(elmin)i(n gizlinlərini) yarıb açacaq.[13]

**3. Xəvaricin öndə gedənlərindən olan Abdullah ibn Vəhb Rasibi:**

Şeyx Müfid “əl-Kafiə” kitabında İmam Baqirdən (ə) belə nəql edir: “Əmirəlmömininin (ə) Bəsrədən qayıdıb Kufəyə yaxınlaşdığı vaxt, camaat

---

[11] “Əz-Zuhd”: səh.60; “Biharul-ənvar”: 22/411; “Müstədrəkül-vəsail”: 9/112.

[12] Ola bilər, İmam (ə) məsələnin bundan artıq təfsilatını məhz İmam Baqirdən (ə) soruşmağın lazım gəldiyinə işarə etmək istəmişdir. Çünki, məsum imamlar yalnız İmam Baqirin (ə) zamanından etibarən öz elmlərini nisbətən rahat şəkildə yaya bilmiş, o vaxta isə qədər daim şiddətli təzyiq və nəzarət altında olmuşlar. Tərc.

[13] “Kitabul-ğeybə”: səh.212; “Biharul-ənvar”: 52/247.

Qərəzə ibn Kəb ilə birlikdə Nəzr ibn Ziyad çayının aşağısında onun pişvazına çıxdılar. Qələbə münasibəti ilə təbrik deyə-deyə onun qarşısına gəldilər. Bu vaxt Əmirəlmöminin alnının tərini silirdi. Qərəzə ibn Kəb dedi:

– Ey möminlərin əmiri! Həmd olsun Allaha ki, sənin dostlarını izzətləndirdi, düşmənlərini zəlil etdi, səni azğın, tüğyankar və zalım dəstəyə qalib etdi.

Abdullah ibn Vəhb Rasibi isə dedi:

– Allaha and olsun ki, bəli. Onlar həqiqətən də azğın, zalım, kafir və müşrikdirlər!

Əmirəlmöminin dedi:

– Anan matəmində ağlasın! Batil söz deməkdə nə güclüsən, bilmədiyin şeyi danışmaqda nə cürətkarsan. Batil söz dedin, ey İbn Səvda (qara qadının oğlu). Onlar sənin dediyin kimi (kafir və müşrik) deyillər. Əgər onlar müşrik olsaydılar, onda onların qadınlarını əsir edər, mallarını qənimət götürərdik. Halbuki, biz onlarla nə nikah bağladıq, nə də mallarına sahib çıxdıq.[14]

**4. Üsamə ibn Zeyd:**

Onu "İbn Səvda" adı ilə Əmr ibn Osman ibn Əffan məzəmmət etmişdir. Bunu Şeyx Tusi "Əmali" kitabında öz sənədi ilə Şərqi ibn Qutamidən, o da atasından nəql etmişdir. Rəvayətdə deyilir: "Müaviyə Mədinəyə gəldikdən sonra Əmr ibn Osman ibn Əffan Mədinə bağlarının biri üstündə Üsamə ibn Zeydi Müaviyəyə şikayət etdi. Şikayət məclisində onların arasında səslər yüksəldi və bir-birlərinə ağır sözlər deməyə başladılar. Əmr dedi:

– Mənim mövlam (azad etdiyim qul) ola-ola mənə artıq-əskik sözlər deyirsən?

Üsamə dedi:

[14] "Əl-Kafiə fi ibtali-təvbətil-xatiə": səh.31; "Biharul-ənvar": 32/353.

– Allaha and olsun, mən sənin mövlan (azad etdiyin qul) deyiləm. Heç səninlə eyni nəsəbdən də olmaq istəmərəm[15]. Mənim mövlam (məni azad edən şəxs və ağam) Allah rəsuludur.

Əmr (üzünü məclisdəkilərə tutub) dedi:

– Görürsünüz bu qul mənə nə deyir?

Sonra üzünü Üsaməyə tutub dedi:

– Ey İbn Səvda (qara qadının oğlu), necə də tüğyankarsan!

Üsamə:

– Sən məndən daha tüğyankar və daha pissən. Məni anama görə məzəmmət edirsən. Halbuki, mənim anam sənin anandan daha üstündür. O, Allah rəsulunun (s) azad etdiyi qul olan Ümmü-Əyməndir. Peyğəmbər bir neçə yerdə onu Cənnətlə müjdələmişdir. Atam da sənin atandan daha üstündür: Zeyd ibn Harisə – Allah rəsulunun səhabəsi, sevimlisi və azad etdiyi qul. Allaha və Peyğəmbərə itaət yolunda Mutə döyüşündə şəhid olmuşdur.

(Özümə gəlincə isə,) Peyğəmbər (s) vəfat etdiyi vaxt mən sənin atanın, sənin atandan daha üstün olan Əbu Bəkr, Ömər və Əbu Ubeydənin və mühacir və ənsarların öndə gedənlərinin üzərində əmir (rəhbər, başçı) idim. Elə isə nəyinlə mənim qarşımda lovğalanırsan, ey Osmanın oğlu?!...[16]

### 5. Əmmar ibn Yasir:

Onu "İbn Səvda" adı ilə Osman ibn Əffan məzəmmət etmişdir. Qummi öz "Təfsir" kitabında nəql edir ki, Əmmar ibn Yasir xəndək qazarkən Osman ibn Əffan onun yanından keçir. Bu vaxt xəndəkdən toz qalxmış olur. Bunu görən Osman paltarının qolunu ağzına tutaraq oradan keçir. Bu vaxt Əmmar nəzmlə belə deyir:

---

[15] Çünki "mövla" sözü həm də əmioğlu mənasına gəlir. Görünür, Üsamə sözün hər iki mənası ilə Əmrə cavab vermək istəmişdir. Tərc.

[16] "Əmali": səh.212.

*İçində rükü və səcdə edilən məscidlər inşa edənlər ilə*
*Özünü toz-torpaqdan uzaq tutub, tozdan qaçanlar bir deyillər*

Osman ona tərəf dönüb deyir: "Məni nəzərdə tutursan, ey İbn Səvda (qara qadının oğlu)?.."[17]

Sünni mənbələrinə gəlincə də, sünni mənbələrində bir neçə şəxs barəsində "İbn Səvda" sözü işlənmişdir. O cümlədən:

**1. Əmmar ibn Yasir:**

Yaqubi özünün "Tarix" kitabında belə nəql edir: "İbn Məsud Osmana qarşı qəzəbli idi. Elə bu vəziyyətdə də öldü. Ona Əmmar ibn Yasir cənazə namazı qıldı. Bu vaxt Osman başqa bir yerdə idi. Əmmar İbn Məsudun dəfn işlərini özü həll edib Osmana xəbər vermədi. Osman qayıdıb gəldikdə, qəbri gördü. Dedi: "Bu qəbir kimdindir?" Dedilər: "Abdullah ibn Məsudun". Dedi: "Mənim xəbərim olmadan necə dəfn edilib?" Dedilər: "Onun dəfn işlərini Əmmar öz üzərinə götürdü və bildirdi ki, İbn Məsud ölüm xəbərinin (heç kəsə və ya Osmana) deyilməməsini tapşırıb".

Az bir müddət keçmişdi ki, Miqdad da vəfat etdi. Ona da Əmmar namaz qıldı. O da Əmmara (Osmana xəbər verilməməsi ilə bağlı) vəsiyyət etmişdi. Buna görə Əmmar bu dəfə də Osmana xəbər vermədi. Osman bu işə görə Əmmara möhkəm qəzəbləndi və dedi: "Vay bu İbn Səvdanın (qara qadının oğlunun) əlindən!.."[18]

İbn Əbdürəbbih Əndəlusinin "əl-İqdul-fərid" kitabında isə belə deyilir:

Qoşunlar Siffində qarşılaşdıqları vaxt Müaviyə Hişam ibn Ütbəyə baxdı. Hişama "mirqal" (cəld hərəkət edən, tələsən) deyirdilər. Çünki vaxtikən

---

[17] "Təfsirul-Qummi": 2/322.

[18] "Tarixul-Yaqubi": 2/160.

Peyğəmbər ona, “ərqil, ya məymun” – “haydı tələs, ey bərəkətli”, - demişdi. Onun bir gözü kor idi. Bayraq da onun əlində idi... Müaviyə Əmr ibn Asa dedi: “Ey Ömər, bu Mirqaldır. Allaha and olsun, əgər bayraqla o döyüşsə, onda şamlılar bu gün çox döyüşməli olacaqlar. Amma mən onun yanında İbn Səvdanı (qara qadının oğlunu) – Əmmarı nəzərdə tuturdu – görürəm. Onda döyüş zamanı tələskənlik var. Bu xislətinin onu həlak edəcəyini düşünürəm...”[19]

**2. Bilal ibn Rabah:**

Onu “İbn Səvda” adı ilə Əbuzər məzəmmət etmişdir. Beyhəqi “Şuəbul-iman” kitabında öz sənədi ilə Əbu Ümamədən belə nəql edir: “Əbuzər Bilalı anasına görə məzəmmət edərək ona: “Ey qara qadının oğlu”, - dedi. Bilal Peyğəmbərin (s) yanına gələrək bunu ona xəbər verdi. Peyğəmbər qəzəbləndi. Əbuzər olanlardan xəbərsiz Peyğəmbərin yanına gəldi. Peyğəmbər (s) üzünü ondan çevirdi. Əbuzər dedi: “Yalnız mən barədə sənə çatan bir xəbərə görə üzünü məndən çevirərsən, ey Allahın rəsulu (, elə isə nədir o xəbər?)”. Peyğəmbər dedi: “Sən Bilalı anasına görə məzəmmət edirsən? Muhəmmədə Quran nazil edən Allaha and olsun ki, bir insanın başqa bir insandan yalnız əmələ görə üstün ola bilər. Siz bir qabın qırağı kimisiniz”.[20]

**3. İmam Əlinin (ə) zamanında yaşayan bir kişi:**

Darəqutni “əl-Cuzus-salisu vəl-işrun min hədisi-Əbit-Tahir” kitabında belə nəql edir: “Bizə Muhəmməd ibn Əbdus nəql edib dedi: bizə Muhəmməd ibn Əbbad nəql edib dedi: bizə Süfyan nəql edib dedi: bizə Əbdülcabbar ibn Abbas Həmədani Sələmə ibn Kuheyldən, o da Huciyyə ibn Ədiy Kindidən nəql edib dedi: “Əlinin minbərdə belə dediyini gördüm:

---

[19] “Əl-İqdül-fərid”: 5/88.

[20] “Şuəbul-iman”: 4/288.

“Allahın və Peyğəmbərinin (s) adından yalan danışan o qara yağ tuluğunu – İbn Səvdanı nəzərdə tuturdu – cəzalandırdığım təqdirdə kim mənə haqq qazandırar? Əgər mənə qarşı çıxan dəstələr qanlarını tökdüyüm təqdirdə Nəhrəvandakılar kimi qanlarına görə ittiham olunacağım şəxslər olmasaydılar, onlardan (onların leşlərindən) qalaq düzəldərdim”.[21]

Bu rəvayət yalnız ona dəlalət edir ki, Allahın və Peyğəmbərin (s) adından yalan danışan qara dərili bir şəxs olmuş və bu şəxsin adı və ya ləqəbi İbn Səvda olmuşdur. Daha bu İbn Səvda kimdir, görəsən Abdullah ibn Səbə adlandırılan şəxsdirmi, yoxsa başqa birisi – rəvayətdə buna dəlalət edən heç bir şey yoxdur. Buna əsasən, bu rəvayətdəki İbn Səvdanın Abdullah ibn Səba və ya başqa birisi olması barədə qəti fikir söyləmək olmaz.

Üstəlik, bu rəvayəti Hüciyyə ibn Ədiy Kindi adlı şəxs nəql edir. Hüciyyənin güvənilən şəxs olması barədə isə ixtilaf var. Əhli-sünnənin bəzi bioqrafiya alimləri onu “zəif” hesab etmişlər.

Məsələn, İbn Əbu Hatim belə demişdir: “Atamdan onun barəsində soruşduqda belə dedi: Hədisinə etimad edilməyən bir şeyxdir. Məchul kimidir. Eyniylə Şüreyh ibn Numan Saidi və Hübeyrə ibn Yərim kimi”.[22]

İbn Səd demişdir: “Tanınan şəxs olmuşdur. O qədər də (güclü) deyil”.[23]

Həmçinin İbn Cəvzi onu “əd-Duəfa vəl-mətrukin” kitabında zəif hesab etmişdir.[24]

**4. Abdullah ibn Hazim:**

İbn Əbdürəbbih Əndəlusi “əl-İqdul-fərid” kitabında belə nəql edir: “Abdullah ibn Amir ibn Kureyz Abdullah ibn Hazimə dedi:

---

[21] “Əl-Cuzus-salisu vəl-işrin min hədisi-Əbit-Tahir”: səh.52.

[22] “əl-Cərh vət-tədil”: 3/314; “Təhzibut-təhzib”: 2/190; “Təhzibul-kamal”: 5/485.

[23] “ət-Tabaqatul-kubra”: 6/225; ondan nəqlən: “Təhzibut-təhzib”: 2/190.

[24] “Kitabud-duafa vəl-mətrukin”: 1/194.

– Ey İbn Əcilə (tələsən qadının oğlu).

İbn Hazim dedi:

– Bu, anamın adı idi.

İbn Amir dedi:

– Ey İbn Səvda (qara qadının oğlu).

İbn Hazim dedi:

– Bu, onun rəngi idi.

– Ey İbn Əmə (kənizin oğlu).

– Bütün qadınlar kənizdirlər. Diqqətli ol ki, atdığın ox özünə qayıtmasın. Səni də kəniz dünyaya gətirib.[25]

**5. Abdullah ibn Səbə:**

Bunu Təbəri "Tarix" kitabında qeyd etmişdir. Təbərinin bu barədə nəql etdiyi bütün rəvayətlərin sənədində Şüeyb ibn İbrahim və Seyf ibn Ömər var. Bu iki şəxs isə zəifdirlər. Onlar barədə daha sonra danışacağıq, inşallah.

**Nəticə:**

Deyilənlər aydın olur ki, Təbərinin Seyf ibn Ömərdən nəql etdiyi zəif rəvayətlər istisna olmaqla nə şiə, nə də sünni hədislərində İbn Səvdanın Abdullah ibn Səbənin ləqəbi olduğuna dəlalət edən bir fakt yoxdur.

---

[25] "Əl-İqdul-fərid": 4/31.

## ÜÇÜNCÜ FƏSİL

## Səbə və səbəlilər

"Səbaiyyə" və ya "səbaiyyun" (hər ikisi "səbəlilər" deməkdir) adları bir sıra tarixi və qeyri-tarixi mənbələrdə gəlmişdir. Görəsən, bu sözlərlə Abdullah ibn Səbənin ardıcılları nəzərdə tutulub, yoxsa başqa bir şey?

### Bəni-Səbə – Səbə övladları

Bəni-Səbə və ya Səbə övladları dedikdə Səbə ibn Yəşcəb ibn Yərəb ibn Qəhtan ibn Abir ibn Şalix ibn Ərəfxəşd ibn Sam ibn Nuhun nəslindən olan şəxslər nəzərdə tutulur.

Əhməd ibn Hənbəl "Müsnəd" və "Fadailus-səhabə" kitablarında, Hakim "Müstədrək" kitabında, Təbərani "əl-Mucəmul-kəbir" kitabında, başqaları da öz kitablarında öz sənədləri ilə Əbdürrəhman ibn Vələdən belə nəql etmişlər: "İbn Abbasın belə dediyini eşitdim: "Bir nəfər Allah rəsuluna (s) sual verərək Səbənin nə olduğunu – kişimi, qadınmı, yoxsa yermi olduğunu soruşdu. Peyğəmbər belə cavab verdi: Səbə bir kişinin adıdır. Onun on övladı olub. Onların altısı Yəməndə, dördü isə Şamda məskunlaşıb. Yəməndə məskunlaşanlar Məzhəc, Kində, Əzd, Əşərilər [belə], Ənmar və Humeyr olmuşlar. Onların hamısı xeyirli şəxslər olmuşlar. Şamda yerləşənlər isə Ləxm, Cuzam, Amilə və Ğəssan olmuşlar".[26]

Əbu Davud və Tirmizi öz "Sünən" kitablarında, Hakim "Müstədrək" kitabında, Heysəmi "Məcməuz-zəvaid" kitabında, başqaları da öz kitablarında Fərvə ibn Müseykdən belə nəql etmişlər:

– Ey Allahın rəsulu, Səbə nədir? Vadidir, dağdır, yoxsa nədir?

---

[26] "Müsnədü-Əhməd": 1/316; "Əl-Müstədrək": 2/422. Hakim hədisin ardınca belə deyir: "**Bu, səhih sənədli hədisdir. Lakin Buxari və Müslim bunu nəql etməmişlər**". **Zəhəbi də onunla razılaşır.** "Əl-Mucəmul-kəbir": 12/240; "Fadailus-səhabə": 2/865; "Təfsirü-İbn Kəsir": 3/531.

Peyğəmbər (s) dedi:

– Xeyr. O, ərəblərdən olan bir nəfərin adıdır. Onun on övladı olmuşdur. Onların altısı Yəməndə, dördü isə Şamda məskunlaşmışdır. Yəməndə məskunlaşanlar bunlardır: Əzd, Əşərilər, Humeyr, Kində, Məzhəc, Ənmar – onlara Buceylə də deyilir – və Xəsəm. Şamda məskunlaşanlar isə bunlardır: Ləxm, Xəsəm, Amilə və Ğəssan.[27]

İbn Kəsir deyir:

Nəsəb alimləri, o cümlədən Muhəmməd ibn İshaq[28] belə demişdir:

Səbə – Əbdüşəms ibn Yəşcəb ibn Yərab ibn Qəhtanın adıdır. O ona görə “Səbə” adlanıb ki, ərəblər arasında ilk “səbəə” edən[29] o olub. Ona “Raiş” də deyilib. Çünki o, döyüşdə qənimət əldə edib, əldə etdiyi qəniməti öz adamları arasında paylayan ilk şəxs olub. Ərəblər pula (mal-sərvətə) “riş” və ya “riyaş” deyirlər. “Raiş” də “pul (mal-sərvət) paylayan” deməkdir. Deyilənə görə, ona Peyğəmbərin (s) gələcəyini müjdə veriblər. O da bu münasibətlə belə bir şer deyib:

*Bizdən sonra böyük bir hökmdar hökmranlıq edəcək,*
*O, harama icazə verməyən bir peyğəmbər olacaq...*
*Qəhtandan sonra bir peyğəmbər hakimiyyət edəcək,*
*Təqvalı, təvazökar, insanların ən üstünü olacaq.*

---

[27] “Sünənü-Əbi Davud”: 4/34; “Sünənüt-Tirmizi”: 5/361. Tirmizi deyir: “**Bu, həsən və qərib hədisdir**”. “Müstədrək”: 2/424; “Əl-Mucəmul-kəbir”: 18/324; “Təfsirü-İbn Kəsir”: 3/531. İbn Kəsir deyir: “**Bu hədisin sənədi həsəndir**”. Həmçinin, Əlbani “Səhihü-sünəni-Əbi Davud” kitabında deyir (2/754): “**Həsən və səhihdir**”.

[28] “Əs-Sirətun-nəbəviyyə”: 1/43.

[29] Bəlkə də bu söz əslində “səbə̲” (سبى) şəklində olamlıdır. Belə olsa, mənası “əsir etmək” olacaq. Yəni ərəblər arasında ilk dəfə döyüşdə qadınları əsir edən şəxs Əbdüşəms ibn Yəşcəb olub. Yox əgər sözü “səbəə” (سبأ) kimi qəbul etsək, o zaman mənası “içmək üçün şərab almaq” olacaq. Yəni ərəblər arasında içmək üçün şərab alan ilk şəxs Əbdüşəms ibn Yəşcəb olub.

*Adı Əhməd olacaq və kaş ki mən,*

*O, peyğəmbər olduqdan sonra heç olmasa bir il yaşayardım.*

*Ona kömək edər, yardım edərdim,*

*Bütün adamlarım və yaraqlılarımla.*

*O nə vaxt gəlsə, ona kömək edin,*

*Və kim onunla görüşsə, mənim salamımı ona çatdırsın.*

Bunu Həmədani "İklil" kitabında nəql etmişdir[30].

Mübarəkpuri "Tuhfətul-əhvəzi" kitabında belə deyir: "Səbə... Səbə dedikdə Səbə ibn Yəşcəb ibn Yərəb ibn Qəhtan ibn Hudun övladlarından olan bir qəbilə nəzərdə tutulur".[31]

Əksər alimlər "Qəhtan ibn Hud" adını qeyd etməmişlər. Alimlərin qeyd etdiyi "Qəhtan ibn Abir" şəklindədir.[32]

Xətib Həsən ibn Haninin (Əbu Nüvasın) tərcümeyi-halını qeyd edərkən onun Qəhtan ibn Abir ibn Şalix ibn Ərəfxəşd ibn Sam ibn Nuhun nəslindən olduğunu qeyd etmişdir[33].

Bir insanın "Səbə" qəbiləsindən olmasına işarə etmək istədikdə, "səbai" (uzun "a" ilə), yaxud "səbəi" (qısa "ə" ilə) deyirlər (hər ikisi "səbəli" deməkdir).

Bir qrup insanın "Səbə" qəbiləsindən olmasına işarə etmək istədikdə isə, "səbaiyyə" (uzun "a" ilə), yaxud "səbəiyyə" (qısa "ə" ilə) deyirlər (hər ikisi "səbəlilər" deməkdir). Uzun "a" ilə olan deyiliş daha geniş yayılmış və ədəbidir. Eyni zamanda, qısa "ə" ilə deyiliş də ədəbidir.[34]

---

[30] "Təfsirü-İbn Kəsir": 3/531; "Əl-Bidayə vən-nihayə": 2/148.

[31] "Tuhfətul-əhvəzi": 9/64.

[32] "Tarixu-Bağdad": 7/109; "ət-Tabaqat" (İbn Xəyyat): səh.132, 145, 182; "ət-Tabaqatul-kubra": 1/43; "Əl-İkmal" (İbn Makula): 1/287, 2/155, 3/210, 7/57, 184; "Tarixut-Təbəri": 1/143, 269.

[33] "Tarixu-Bağdad": 7/436.

[34] Bax: "Tacul-ərus": 1/265.

## Səbaiyyun və ya səbalılar

Alimlər yuxarıda sözügedən "Səbə"yə mənsub olan "səbalılar"dan bir çoxunu öz əsərlərində qeyd etmişlər. Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

**1. Əbyəd ibn Həmmal Səbai:**

Əbyəd ibn Həmmal ibn Mərsəd ibn Zi-Luhyan ibn Səd ibn Auf ibn Ədiy ibn Malik Məribi Səbai.

Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və İbn Hibban onun barəsində bir hədis nəql etmişlər. Onların nəql etdiyinə görə, Peyğəmbərin (s) yanına Mərib duzu gətirildiyi vaxt Əbyəd bu duzdan bir qədər istəmiş, Peyğəmbər də vermişdir. Lakin sonradan Peyğəmbər duzu geri almışdır.[35]

**2. Səd Səbai:**

İbn Həcər "əl-İsabə" kitabında belə deyir: "Səd Səbai: Vaqidi onun adını Peyğəmbərin (s) zamanında müsəlman olan səbəlilər arasında qeyd etmişdir".[36]

**3. Saleh ibn Xəyvan:**

İbn Həcər "əl-İsabə" kitabında deyir: "Saleh ibn Xəyvan... Səbai... məşhur tabeidir. Mürsəl şəkildə bir hədis nəql etmişdir. Əli ibn Səid və İbn Əbu Əli onu səhabələrin cərgəsində qeyd etmişlər. Əli ibn Səid Bəkr ibn Səvadə yolu ilə ondan belə nəql etmişdir ki, bir kişi Peyğəmbərin (s)

---

[35] "Əl-İsabə": 1/176; "Sünənüt-Tirmizi": 3/664; "Sünənü-Əbi Davud": 3/174; "Sünənü-İbn Macə": 2/828 və s. Əlbani "Səhihü-sünəni-İbn Macə" kitabında (2/64) bu hədisi "**həsən**" hesab etmişdir.

[36] "Əl-İsabə": 3/211, rəqəm: 3690.

yanında əmmaməsinin üzərinə səcdə etdi, Peyğəmbər (s) onun əmmaməsini alnından çəkdi”.[37]

**4. Ümarə ibn Şəbib:**

İbn Həcər “əl-İsabə” kitabında deyir: “Ümarə ibn Şəbib Səbai... səhabə olub-olmaması barədə ixtilaf var. Adını da bəziləri “Əmmar”, - kimi qeyd etmişlər. İbn Səkən onun səhabə olduğunu demişdir. Buxari “Tarix” kitabında bunun səbəbini qeyd edərək, onu səhabə hesab etmişdir. İbn Hibban isə “kim onun səhabə olduğunu demişsə, səhv etmişdir”, - demişdir”.[38]

**5. Hübeyrə ibn Əsəd:**

İbn Həcər “əl-İsabə” kitabında deyir: “Hübeyrə ibn Əsəd ibn Kəhlan Səbai. Peyğəmbərin zamanında yaşamışdır. Misirin fəthində iştirak etmişdir. İbn Yunis onun barəsində məlumat verərək, “Burqədə onun nəslindən olan şəxslər yaşayır”, - demişdir”.[39]

**6. Abdullah ibn Hübeyrə:**

İbn Səd “Tabaqat” kitabında deyir: “Hübeyrə ibn Abdullah Səbai: bir sıra hədislər nəql etmişdir. Yezid ibn Əbdülməlikin zamanında vəfat etmişdir”.[40]

Zəhəbi isə “əl-Kaşif” kitabında belə deyir: “Abdullah ibn Hübeyrə Səbai: siqədir. 126-cı ildə vəfat etmişdir. M 4 (yəni Müslim və digər dörd hədisçi ondan hədis nəql etmişlər)”.[41]

---

[37] “Əl-İsabə”: 3/375, rəqəm: 4154.

[38] “Əl-İsabə”: 4/479, rəqəm: 5743.

[39] “Əl-İsabə”: 6/445, rəqəm: 9053.

[40] “ət-Tabaqatul-kubra”: 7/512.

[41] “Əl-Kaşif”: 2/134.

**7. Əbdürrəhman ibn Vələ:**

Süyuti "İsaful-mubəttə" kitabında deyir: "Əbdürrəhman ibn Vələ Səbai Misri: İbn Ömər və İbn Abbasdan hədis nəql etmişdir. Ondan da Zeyd ibn Əsləm, Yəhya Ənsari və başqaları hədis nəql etmişlər. Nəsai, İbn Məin və İcli onu siqə bilmişlər"[42].

Zəhəbi isə deyir: "İbn Məin və Nəsai onu siqə bilmişlər. M 4"[43].

**8. Hənəş Səbai:**

Zəhəbi "əl-Kaşif" kitabında deyir: "Hənəş Səbai Sənani Dəməşqi (m 4). Afrikaya gedib orada yaşamışdır. Əlidən və İbn Abbasdan hədis nəql etmişdir. Ondan da Qeys ibn Həccac və Bəkr ibn Səvadə hədis nəql etmişlər. Əbu Zurə və başqaları onu siqə bilmişlər. 100-cü ildə vəfat etmişdir".[44]

Burada adları çəkilənlər və onlar kimi bir çox şəxslər "Səbə" qəbiləsinə nisbət verilərək "səbai" adlandırılmışlar və bu nisbə qəbiləyə mənsubiyyətdən başqa heç bir məna ifadə etmir. Buna əsasən, bu şəxslərin adlarının qarşsındakı "səbai" sözü nə bu şəxslərin (hədis elmi terminologiyası ilə desək,) "zəif" olduqlarına, nə məzəmmətə, nə də Abdullah ibn Səbəyə mənsubiyyətlərinə dəlalət edir.

## Səbaiyyə – Səbalılar firqəsi

Biz Təbərinin "Tarix" kitabından öncə yazılmış qədim tarix kitablarının heç birində "səbaiyyə" firqəsi barədə məlumat tapmadıq. Təkcə Təbəridir ki, öz tarix kitabında Seyf ibn Ömrədən və Əbu Mixnəfdən nəql etdiyi

---

[42] "İsaful-mubəttə": səh.19.

[43] "Əl-Kaşif": 2/184.

[44] "Əl-Kaşif": 1/217.

rəvayətlərdə tez-tez bu firqədən bəhs edir. Əlbəttə, bu "firqə" ilə Abdullah ibn Səbənin ardıcılları nəzərdə tutulur.

Təbərinin nəql etdiyi bu rəvayətlər bu firqənin Osman ibn Əffanın hakimiyyət dövrünün sonlarında və Əmirəlmömininin (ə) hakimiyyəti zamanında sahib olduqları nüfuz və təhlükədən bəhs edir. Bu rəvayətlərə görə, bu firqənin fəal olduğu dövr məhz bu dövrlər olmuş, Müaviyə ibn Əbu Süfyan hakimiyyətə gəldikdən sonra isə onların izi-tozu qalmamışdır.

Bu rəvayətləri nəql edən şəxslər məhz Seyf ibn Ömər və Əbu Mixnəf Lut ibn Yəhyadan[45] ibarət olduğu və onlar da əhli-sünnənin "cərh və tədil" alimləri yanında zəif şəxslər sayıldıqları üçün[46], sözü gedən dövrdə belə bir firqənin olduğu sübuta yetmir.

---

[45] Seyf ibn Ömərin rəvayətləri üçün bax: "Tarixut-Təbəri": 2/702, 3/4, 9, 43. Əbu Mixnəfin rəvayətləri üçün bax: 3/443, 476.

[46] Seyf barəsində ətraflı danışacağıq. Əbu Mixnəfə gəlincə isə, Yəhya ibn Məin onun barəsində "siqə deyil", Əbu Hatim, "hədisləri tərk olunur", Darəqutni, "zəif hədisçidir", -demişdir. Zəhəbi isə belə demişdir: "157-ci ildə vəfat etmişdir. "ər-Riddə" kitabının müəllifi Seyf ibn Ömər Təmimi ilə eyni dərəcədədir" ("Siyəru-əlamin-nubəla": 7/302). İbn əl-Cəvzi onu "Əd-Duəfa vəl-mətrukin" ("Zəif və tərk edilmiş şəxslər") kitabında (1/28) qeyd edərək, belə demişdir: Lut ibn Yəhya Əbu Mixnəf. Yəhya demişdir: Siqə deyil. Murrə demişdir: Bir şey deyil. Əbu Hatim Razi demişdir: Hədisləri tərk olunur. Darəqutni demişdir: Zəifdir.

İbn Ədiy onu "Əl-Kamil fi duəfair-rical" ("Zəif rəvayətçilərə dair kamil kitab") kitabında (7/241) qeyd edərək, belə deyir: İbn Məinin onun barəsində dediyi sözlə (digər hədis) imamlar(ı) da razılaşırlar... Mən onun nəql etdiyi hədislər arasında qeyd edilməyə layiq bir hədis tanımıram. Onun nəql etdiyi hədislər qeyd edilmələrini xoşlamadığım xoşagəlməz hədislərdir.

İbn Həcər "Lisanul-mizan" kitabında belə deyir: "Əbu Mixnəf. Tələf olub getmiş, güvənilməz bir hədisçidir. Əbu Hatim və digərləri onu tərk etmişlər.. Əbu Ubeyd əl-Acurri belə demişdir: Əbu Hatimdən onun barəsində soruşdum, əlini yelləyib dedi: "Kimsə bu adam barəsində sual verir?"

Uqeyli onu "Əd-Duəfa" kitabında qeyd etmişdir." ("Əl-Cərh vət-tədil": 7/182).

İbn Kəsirin “əl-Bidayə vən-nihayə” və İbn Əsakirin “Tarixu-mədinəti-Diməşq” kitablarında sənədsiz şəkildə gələn rəvayətlərə gəlincə isə, bu rəvayətlərə önəm verilməz. Çünki, görünən budur ki, bu sənədsiz rəvayətlər elə Təbərinin “Tarix” kitabında götürülmüşlər.

Təbərinin öz “Tarix” kitabında nəql etdiyi Ziyad ibn Əbihin Müaviyəyə göndərdiyi və içində “səbəiyyə” adı keçən məktuba gəlincə isə, həmin məktub da mürsəldir. Böyük ehtimalla, o, elə Əbu Mixnəfdən nəql edilib. Bu əsasla ki, həmin məktub – rəvayətdən əvvəl nəql edilən bütün rəvayətlər Əbu Mixnəfdən nəql olunur. Buna əsasən, bu rəvayətə etimad etmək olmaz. Onun mətni isə belədir: “Bağışlayan və mehriban Allahın adı ilə. Ziyad ibn Əbu Süfyandan Allahın bəndəsi, möminlərin əmiri Müaviyəyə: “Allah möminlərin əmirinə yardım etdi. Düşməninin hiyləsini boşa çıxardı. Ona qarşı çıxanların şərrini dəf etdi. Başlarında Hücr ibn Ədiy olmaqla, bu turabiyyə – səbəiyyədən olan bir qrup tağut (şeytan) möminlərin əmirinə müxalif oldular. Müsəlmanların birliyindən ayrılıb bizə qarşı müharibə elan etdilər. Lakin Allah bizi onlara qalib etdi, bizi onların üzərində üstün etdi...”[47]

Bəlkə də Ziyad ibn Əbih “səbəiyyə” deyərkən Hücr ibn Ədiyi və onunla həmfikir olan on üç nəfər şəxsi nəzərdə tuturmuş. Ziyad onları Şama aparmış və onlar Mərcu-Əzra məntəqəsində Müaviyənin əmri ilə qətlə yetirilmişlər. Onların arasında Kindədən, Nəxədən, Bəclədən və Həmdandan olan şəxslər olmuşlar[48]. Bu qəbilərlər isə Səbənin qollarıdırlar.

---

Nəcaşi isə onu “Rical” kitabında (səh.224) qeyd edərək, “nəql etdiyi rəvayətlərə güvənilirdi”, - demişdir. Bu cümlə isə siqəliyə deyil, ən uzağı Nəcaşinin onun nəql etdiyi rəvayətlərdə bir problem tapmadığına dəlalət edir.

[47] “Tarixut-Təbəri”: 4/228.

[48] Onların adları ilə tanış olmaq üçün bax: “Tarixu-Diməşq”: 8/21; “Tarixul-Yaqubi”: 2/141, “Tarixut-Təbəri”: 4/202, 207; “Əl-Bidayə vən-nihayə”: 8/45; “Tarixu-İbn Xəldun”: 3/12.

Böyük ehtimalla demək olar ki, Əmirəlmöminin Əli ibni Əbu Talibin (ə) düşmənləri o vaxt onun şiələrini "səbaiyyə" adı ilə məzəmmət edərmişlər. Çünki ona dost olan şəxslərin əksəriyyəti əslən yəmənli və səbəli olmuşlar. Belələrinə misal olaraq aşağıdakıları göstərə bilərik:

**1. Əmmar ibn Yasir**

Zəhəbi "Siyəru-əlamin-nubəla" kitabında deyir: "Əmmar ibn Yasir ibn Amir ibn Malik ibn Kinanə ibn Qeys ibn Vuzeym (demişlər ki, Qeys ilə Vuzeym arasında "Huseyn ibn Vuzeym" var) ibn Sələbə ibn Auf ibn Harisə ibn Amir ibn Amir Əkbər ibn Yam ibn Anəs (başqa adı Zeyddir) ibn Malik ibn Ədəd ibn Zeyd ibn Yəşcəb ibn Ureyb ibn Zeyd ibn Kəhlan ibn **Səbə** ibn Yəşcəb ibn Yərəb ibn Qəhtan. Malik ibn Ədəd övladları Məzhəcdən sayılırlar".[49]

**2. Ədiy ibn Hatəm Tai:**

O, Ədiy ibn Hatəm ibn Abdullah ibn Səd ibn Həşrəc ibn İmruul-Qeys ibn Ədiy ibn Əxzəm ibn Əbu Əxzəm ibn Rəbiə ibn Cərvəl ibn Səl ibn Əmr ibn Ğəvs ibn Tayyi ibn Ədəd ibn Zeyd ibn Yəşcəb ibn Ureyb ibn Zeyd ibn Kəhlan ibn **Səbə** ibn Yəşcəb ibn Yərəb ibn Qəhtandır.[50]

İbn Həcər "əl-İsabə" kitabında deyir: "O, 9-cu ildə müsəlman olmuşdur. Onuncu il də demişlər. Əvvəlcə xristian olmuşdur. Riddə hadisələri vaxtı islamda sabitqədəm qalmış, tayfasının zəkatını Əbu Bəkrə çatdırmışdır. İraqın fəthində iştirak etmiş, Kufədə məskunlaşmışdır. Əlinin yanında Siffində iştirak etmişdir. 60-cı ildən sonra, qoca yaşında vəfat etmişdir.

[49] "Siyəru-əlamin-nubəla": 1/406; "Təhzibul-kəmal": 21/218; "ət-Tabaqatul-kubra": 3/246 və s.

[50] "Təhzibul-kəmal": 19/525; "Cəmhərətu-ənsabil-arab": səh.402, 404; "Tarixu-Bağdad": 1/189 və s.

Xəlifə "120 il yaşamışdır", - demiş, Əbu Hatim Sicistani isə "180 il yaşamışdır", - demişdir".[51]

**3. Malik Əştər Nəxəi:[52]**

İbn Səd "ət-Tabaqat" kitabında deyir: "Əştər: Adı Malik ibn Haris ibn Əbd-Yəğus ibn Məsləmə ibn Rəbiə ibn Haris ibn Cuzeymə ibn Səd ibn Malik ibn Nəxədir. Məzhəcdəndir. Xalid ibn Vəlidin əsr namazından sonra namaz qılmaq üstündə camaatı vurduğunu nəql etmişdir. Əli ibn Əbu Talibin səhabələrindən olmuşdur. Cəməldə, Siffində və bütün döyüşlərdə Əlinin yanında olmuşdur. Əli (ə) onu Misirə vali təyin etmişdir. Ariş məntəqəsinə çatdıqda bal yemiş, bunun nəticəsində vəfat etmişdir".[53]

**4. Kumeyl ibn Ziyad Nəxəi:**

İbn Səd "ət-Tabaqat" kitabında deyir: "Kumeyl ibn Ziyad ibn Nuheyk ibn Huşeym ibn Səd ibn Malik ibn Haris ibn Səbhan ibn Səd ibn Malik ibn Nəxə. Məzhəcdəndir. Osmandan, Əlidən və Abdullahdan hədis nəql etmişdir. Əli ilə birgə Siffində iştirak etmişdir. Hörmətli və qəbiləsi arasında itaət olunan bir şəxs olmuşdur. Həccac ibn Yusif Kufəyə gələndə onu yanına çağırtdırıb qətlə yetirmişdir".[54]

Bu kimi bir çox şəxsi, o cümlədən Hüneyfin oğlanları Səhl və Osmanı misal göstərə bilərik. Səhl və Osman Əvs qəbiləsindən, Əvs qəbiləsi də Səbə tayfasındandır.

Həmçinin, Süleyman ibn Surəd və Əmr ibn Həməq Xuzaə qəbiləsindəndirlər. Xuzaə də Səbə tayfasınındandır.

---

[51] "Əl-İsabə": 4/388, rəqəm: 5491.

[52] "Nəxəi" nisbəsi Məzhəcdən olan Nəxə qəbiləsinin adından götürülmüşdür. ("Əl-Cəvahirul-mudiə fi tabaqatil-hənəfiyyə": 2/351).

[53] "ət-Tabaqatul-kubra": 6/213; "Əl-İsabə": 6/212; "Təhzibut-təhzib": 10/10 və s.

[54] "ət-Tabaqatul-kubra": 6/179; "Tarixu-Bağdad": 12/70.

Bəzi tədqiqatçılar isə “səbaiyyə”nin Hucr ibn Ədiyin və onun əksəriyyəti yəmənli-səbəli olan yoldaşlarının öndərlik etdikləri bir siyasi ideologiya ola biləcəyini ehtimal vermişlər. Bu fikri əsas götürdüyümüz zaman, “səbaiyyə” Kufədə yaşayan və Kufə əhalisinin əksəriyyətini təşkil edən Əli dostu yəmənlilərin siyasi fikir və düşüncələrinin ümumiləşdirilmiş adı olur.[55]

Qısası, bioqrafiya və hədis kitablarında tez-tez təkrar olunan “səbai” sözü ilə nəsəbi Yəmən qəbilələrinin atası sayılan Səbə ibn Yəşcəb ibn Yərəb ibn Qəhtana dayanan şəxslər vəsf olunurlar. Belə şəxslər arasında Peyğəmbər (s) səhabələri və ondan hədis nəql edən şəxslər var. Bu sözlə şəxsin Abdullah ibn Səbəyə mənsub olduğu və ya bu nisbə ilə vəsf olunan şəxsin İbn Səbənin ardıcıllarından olduğu nəzərdə tutulmur.

Abdullah ibn Səbənin ardıcıllarının nəzərdə tutulduğu “səbəiyyə” (“səbəlilər”) sözünə gəlincə isə, bu söz də Təbərinin “Tarix” kitabı istisna olmaqla heç bir tarix və hədis kitabında gəlməmişdir. Təbərinin kitabında gələn rəvayətlərin vəziyyəti də bəllidir.

[55] “Əs-Silə beynət-təsəvvuf vət-təşəyyü”: 1/92.

## DÖRDÜNCÜ FƏSİL

## Abdullah ibn Səbə əhli-sünnə mənbələrində

Əhli-sünnənin hədis və tarix mənbələrinə nəzər saldıqda, içində Abdullah ibn Səbədən söz açılan rəvayətlərin iki qrupa bölündüyünü görürük:

1-Seyf ibn Ömər Təmimi (vəf. 170 h.) yolu ilə nəql edilən rəvayətlər;

2-başqaları tərəfindən nəql edilən rəvayətlər.

Seyf ibn Ömər Təmiminin rəvayətləri Abdullah ibn Səbə barədə bir qədər təfsilatlı şəkildə danışır. Onun Yəmən yəhudilərindən olduğunu, Osman ibn Əffanın zamanında İslamı qəbul etdiyini, Əli ibn Əbu Talib (ə) barəsində ifrata vardığını, onun əvvəlki xəlifələrdən üstün olduğunu dediyini, camaatı Osmana qarşı qaldırdığını, Bəsrəyə, Kufəyə, Şama, Misirə və başqa yerlərə gedib Osman barəsində nalayiq sözlər danışdığını və camaatı onu hakimiyyətdən salmağa və ya öldürməyə təhrik etdiyini qeyd edir.

Seyfin rəvayətlərinə görə, İbn Səbənin Hicazda, İraqda, Misirdə və digər məntəqələrdə ardıcılları çoxalmış, Əmmar ibn Yasir kimi bəzi böyük səhabələri öz tərəfinə çəkməyi bacarmış, Əbuzərə təsir edə bilmişdir. Onun təhriki ilə Əbuzər Osmanı və onun işçilərini (valilərini), xüsusən də Müaviyə ibn Əbu Süfyanı tənqid etməyə başlamışdır.

Bu şəkildə o və ardıcılları öz fitnə toxumlarını səpərək, camaatı Osmana qarşı qaldırmış, sonda öz hədəflərinin bir qisminə çataraq Osmanın qətlə yetirilməsinə nail olmuşlar.

Xilafət Əli ibn Əbu Talibə (ə) keçdikdən sonra o və ardıcılları Əli tərəfdarlarının arasına sızmış, özü Əli ibn Əbu Talib barəsində ifrat fikirlər söyləməyə başlamış, “rəcət” – öldükdən sonra dünyaya qayıtmaq inancını ixtira etmiş, Əlinin Peyğəmbəri-Əkrəmin (s) canişini və “yerdən çıxan canlı” olduğunu söyləməyə başlamışdır. Bu minvalla bu fikirlər Əli şiələri

arasında qəbul görmüş, beləliklə onlar bu fikirlərə etiqad etməyə başlamışlar.

Burada Seyfin rəvayətlərindən bəzilərini hörmətli oxucular üçün qeyd edirik:

Təbəri "Tarix" kitabında öz sənədi ilə Seyfdən, o, Ətiyyədən, o da Yezid Fəqəsidən belə nəql etmişdir: "Abdullah ibn Səbə Sənadan olan bir yəhudi idi. Anası qaradərili bir qadın idi. Osmanın zamanında İslamı qəbul etmiş, sonra müsəlman ölkələrini gəzərək camaatı azdırmağa çalışmışdır. Əvvəlcə Hicazdan başlamış, sonra Bəsrəyə, sonra Kufəyə, sonra da Şama getmişdir. Şam camaatından bir nəfəri belə öz toruna sala bilməmişdir. Şam camaat onu diyarlarından qovmuşlarr. Bundan sonra o, Misirə gələrək, burada yaşamağa başlamışdır. O, misirlilərə belə deyirdi: "Təəccüb o şəxslərə ki, İsanın qayıdacaqlarını iddia edirlər, amma Muhəmmədin qayıdacağını təkzib edirlər. Allah-taala buyurur ki, "**Quranı sənə nazil edib vacib buyuran (Allah) qayıdacağın yerə səni mütləq qaytaracaq**". Muhəmməd qayıtmağa İsadan daha layiqdir". Sonra bu fikir camaat tərəfindən qəbul edildi və beləliklə o, "rəcət" etiqadının əsasını qoymuş oldu. Sonra camaata belə dedi: "Tarixdə min peyğəmbər olmuş, hər birinin də bir canişini olmuşdur. Əli də Muhəmmədin canişini idi". Sonra isə belə dedi: "Muhəmməd peyğəmbərlərin sonuncusu, Əli isə canişinlərin sonuncusudur". Sonra isə belə dedi: "Allah Rəsulunun (s) vəsiyyətini icra etməyən, onun canişininin üstünə şığıyan və xilafəti öz əlinə keçirəndən daha zalım kim ola bilər?" Sonra isə belə dedi: "Osman xilafəti haqqı çatmadığı halda ələ keçirdi. Peyğəmbərin vəsisi budur [Əlidir]. Elə isə qalxın bu işi hərəkətə gətirin. Rəhbərlərinizə tənə edin. Yaxşılığa dəvət edib, pislikdən çəkindirin. İnsanları öz tərəfinizə çəkin, onları öz etiqadınıza dəvət edin". Beləlikdə öz missionerlərini ətrafa yaydı. Harda fəsad törətməyə can atan adam vardısa, onlarla yazışmağa başladı. Onun adamları zahirdə özlərini yaxşılığa dəvət edib pislikdən çəkindirən

kimi göstərirdilər. Öz valilərinin eyb-nöqsanları barədə başqa yerlərin adamlarına məktublar yazmağa başladılar. Onlar da bunlara eyni şəkildə yazmağa başladılar. Hər yerin adamları başqa yerin adamlarına öz etdiklərini yazır, onlar öz yerlərində, bunlar da öz yerlərində gələn məktubları oxuyurdular... Zahirdə başqa şey deyir, batində başqa şey gizlədirdilər...[56]

Lakin nəyinsə sübutu və ya inkarı üçün Seyfdən nəql olunan bu rəvayətlərə əsaslanmaq olmaz. Çünki bütün hədis hafizləri, eləcə də cərh və tədil alimləri onun zəif şəxs olması barəsində yekdil fikirdədirlər.

Məsələn, Yəhya ibn Məin onun barəsində belə deyir: "Hədisləri zəifdir". Həmçinin deyir: "Qara qəpik ondan daha dəyərlidir".[57]

İbn Hiban deyir: "Zındıqlıqda (dinsizlik və münafiqlikdə) ittiham olunub. Səbt şəxslərdən uydurma rəvayətlər nəql edir"[58].

Əbu Hatim Razi[59] və Darəqutni[60] deyirlər: "Hədisləri tərk olunan şəxsdir".

Əbu Davud deyir: "Bir şey deyil"[61].

İbn Ədiy deyir: "Hədisləri adətən münkərdir"[62].

Hakim deyir: "Zındıqlıqda ittiham olunmuşdur. Hədis nəqlində etibarsızdır"[63].

Nəsai deyir: "Zəifdir"[64].

---

56 "Tarixut-Təbəri": 3/379.

57 "Təhzibut-təhzib": 4/259; "Mizanul-itidal": 3/353; "Təhzibul-kamal": 12/326.

58 "Təhzibut-təhzib": 4/260; "Təhzibul-kamal": 12/326.

59 "Təhzibut-təhzib": 4/259; "Mizanul-itidal": 3/353; "Əl-Cərh vət-tədil": 4/278.

60 "Təhzibut-təhzib": 4/260; Darəqutni onu "Əd-Duəfa vəl-mətrukin" kitabında zəif şəxslərdən hesab etmişdir (səh.243).

61 "Mizanul-itidal": 3/353; "Təhzibul-kamal": 12/326.

62 "Mizanul-itidal": 3/353; "Təhzibul-kamal": 12/326.

63 "Təhzibut-təhzib": 4/260.

64 Həmin mənbə.

İbn Həcər deyir: “Hədisləri zəifdir”[65].

Abdullah ibn Səbə ilə bağlı Seyf ibn Ömərdən qeyriləri yolu ilə nəql edilən rəvayətlərə gəlincə isə, bu rəvayətlər müxtəlifdirlər. Biz burada onları qeyd edərək, mətn və sənəd yönündən onlara münasibət bildirəcəyik.

Belə rəvayətlərdən biri İbn Əsakirin “Tarixu-Diməşq” kitabında öz sənədi ilə Şabidən nəql etdiyi aşağıdakı rəvayətdir: “İlk yalan danışan şəxs Abdullah ibn Səbədir”.[66]

Əvvəla, bu xəbər (sənədi bir yana dursun) Şabidən nəql olunub və məhz buna görə də dəlil deyil. Çünki xəbər reallıq və həqiqəti deyil, məhz Şabinin şəxsi fikrini ifadə edir.

İkincisi, Abdullah ibn Səbə yalançı olsa belə, Allahın və Peyğəmbərin adından yalan danışan ilk şəxs o olmamışdır. Bu əsasla ki, hələ Peyğəmbəri-Əkrəmin (s) zamanında onun adından yalan danışan şəxslər çoxalmışdı və hətta, həzrət minbərə çıxaraq: “Kim mənim adımdan bilərəkdən yalan danışsa, Cəhənnəmdə öz yerini hazır bilsin”, - demişdi[67].

Habelə, Əhməd ibn Hənbəl Əsman binti Yeziddən nəql edir ki, bir gün Peyğəmbər (s) belə buyurdu: “Ay camaat, sizi nə vadar edir ki, kəpənəklər bir-birinin ardınca alova atıldıqları kimi, siz də yalana atılırsınız?!”[68]

---

[65] “Təqribut-təhzib”: səh.262.

[66] “Tarixu-Diməşq”: 29/7.

[67] “Səhihul-Buxari”: 1/61, 385; “Səhihü-Müslim”: 1/10; “Sünənüt-Tirmizi”: 5/35, 36 və s. Süyuti “Qatful-əzharil-mütənasira” kitabında (səh.23), Kittani “Nəzmul-mütənasir” kitabında (səh.35), Zübeydi “Laqtul-ləalil-mütənasira” kitabında (səh.261) bu hədisi mütəvatir hesab etmişlər. Həmçinin, İbn əs-Səlah, Nəvəvi, İraqi və başqaları da bu hədisi mütəvatir hesab etmişlər.

[68] “Müsnədü-Əhməd”: 6/477; “Əl-Mucəmul-kəbir”: 24/165, 166; “Məcməuz-zəvaid”: 1/142, Heysəmi hədisin ardınca deyir: Bu hədisi Əhməd nəql etmişdir. Sənəddə Şəhr ibn Həvşəb var. Onun barəsində ixtilaf edilmişdir. Mən deyirəm: Şəhr

Bundan başqa, səhih hədislər sübut edir ki, Müseyləmə, Ənəsi və Səccah yalançı olmuşlar. Bu şəxslər isə Abdullah ibn Səbədən əvvəl yaşamışlar.

Əhməd "Müsnəd"də, Hakim "Müstədrək"də, İbn Hibban "Səhih"də, Heysəmi "Məcməuz-zəvaid"də, Təbərani "əl-Mucəmul-kəbir"də, digərləri də öz kitablarında öz sənədləri ilə Əbu Bəkrədən nəql edirlər ki:

"Hələ Peyğəmbər (s) Müseyləmə barəsində bir söz deməmişdi ki, camaat Müseyləmə barəsində narazılıq etməyə başladı. Bunu görən Peyğəmbər camaata xütbə edərək, dedi: "Narazılıq etdiyiniz bu adam qiyamətdən qabaq meydana çıxacaq otuz yalançıdan biridir..."[69]

Həmçinin, İbn Əbu Şeybə "əl-Müsənnəf" kitabında, Əbu Yəla "Müsnəd"də, başqaları da öz kitablarında İbn Zübeyrdən nəql edirlər ki:

"Allah rəsulu (s) buyurmuşdur: Otuz yalançı meydana çıxmadan qiyamət qopmayacaq. Müseyləmə, Ənəsi və Muxtar onlardandırlar".[70]

Həmçinin, İbn Macə "Sünən"də, Əhməd "Müsnəd"də, İbn Əbu Şeybə "Müsənnəf"də, İbn Hibban "Səhih"də öz sənədləri ilə Əbu Hüreyrədən nəql edirlər ki: "Allah rəsulu (s) buyurdu: Əlimdə iki qızıl qolbaq gördüm. Onlara üfürdüm, uçdular. Bu iki qolbağı iki yalançı – Müseyləmə və Ənəsiyə yozuram". [71]

Qısası, Şabidən nəql olunan bu xəbər maksimum halda Abdullah ibn Səbənin yalançı olduğunu sübut edə bilər. Onun yalançılığına gəlincə isə, ola bilsin bu, – daha sonra nəql edəcəyimiz Əban ibn Osman və Əbu

---

"Səhihü-Müslim"in ravilərindəndir ("Səhihü-Müslim": 1/312), Əhməd, İbn Məin, Yaqub ibn Əbu Şeybə və başqaları onu siqə bilmişlər (bax: "Təhzibut-təhzib": 4/325).

[69] "Müsnədü-Əhməd": 5/52, 57; "Məcməuz-zəvaid": 7/332. Heysəmi bu hədisin ardınca deyir: "Bu hədisi Əhməd və Təbərani nəql etmişlər. Əhməd və Təbəraninin nəql etdikləri sənədlərdən birinin raviləri "Səhih"in raviləridir".

[70] "Əl-Müsənnəf": 6/192; "Müsnədü-Əbi Yəla": 12/197.

[71] "Sünənü-İbn Macə": 2/1293; "Müsnədü-Əhməd": 2/338, 344; "Səhihü-İbn Hibban": 15/30; "Səhihü-sünəni-İbn Macə": 2/345.

Həmzə Somalinin rəvayətlərində (hər ikisi "Ricalul-Kəşşi" kitabında gəlib) deyildiyi kimi – Əmirəlmöminin (ə) üçün ilahlıq iddia etməsi ilə əlaqədardır. Həqiqətən də bəşər övladı üçün ilahlıq iddiası etmək yalanın ən çirkin və ən iyrənc növlərindəndir.

Abdullah ibn Səbə ilə bağlı Seyf ibn Ömərdən qeyriləri yolu ilə nəql edilən rəvayətlərdən başqa biri Əbu Yəla Mosulinin nəql etdiyi aşağıdakı rəvayətdir:

"Bizə Əbu-Kureyb Muhəmməd ibn Əla nəql edib dedi: bizə Muhəmməd ibn Həsən Əsədi nəql edib dedi: bizə Harun ibn Saleh Həmədani Haris ibn Əbdürrəhmandan, o da Əbülculasdan nəql edib dedi: "Əlinin *Abdullah Səbaiyə* belə dediyini eşitdim: Vay olsun sənə! Allaha and olsun ki, Peyğəmbər mənə camaatdan gizlətdiyi heç bir şey ötürməmişdir. Mən onun "qiyamətdən qabaq otuz yalançı olacaq", - dediyini eşitmişəm. Sən məhz onlardan birisən".[72]

Bu rəvayətin sənədi zəifdir. Çünki onun ravilərindən biri Muhəmməd ibn Həsən Əsədidir, onu isə bir neçə alim zəif hesab etmişdir.

İbn Həcər "Təhzibut-təhzib" əsərində deyir: "Duri, İbn Məindən belə nəql etmişdir: "Şeyxdir".

Murrə isə demişdir: "Onu görüşmüşəm (və ya: onunla eyni zamanda yaşamışam). Bir şey deyil".

Əbu Hatim demişdir: "Şeyxdir..."

Yaqub ibn Süfyan demişdir: "Muhəmməd ibn Həsən Həmədani və Muhəmməd ibn Həsən Əsədi zəif şəxslərdirlər".

Uqeyli demişdir: "Hədisinə tabe olunmaz..."

Zəhəbi "Mizan" kitabında onun tərcümeyi-halını qeyd edərək belə demişdir: İbn Məin demişdir: Bir şey deyil...

Hakim "əl-Kuna" kitabında demişdir: Güclü deyil.

---

[72] "Müsnədü-Əbi Yəla": 1/349; "Məcməuz-zəvaid": 7/333; "Əs-Sünnə libni-Əbi-Asim": 2/476.

Saci demişdir: Zəifdir"[73].

Həmçinin, ravilər arasında Haris ibn Əbdürrəhman var.

İbn Həcər deyir: Malik ibn Ənəs ondan bir hədis nəql etmiş, lakin adını çəkməmişdir. Mədini demişdir ki: Elə düşünürəm ki, Malik bu hədisi Harisdən eşitmişdir, lakin (nəql zamanı) adını çəkməmişdir. Malikin kitablarında ondan nəql olunan bir hədis görməmişəm.

Mən (İbn Həcər) deyirəm: Bu, Malikin adətidir. O, etimad edilməyən şəxslərdən hədis nəql edəndə onların adlarını çəkmir[74].

Əbu Hatim deyir: Ondan Dəravərdi münkər hədislər nəql edir. Güclü deyil.[75]

Hədisin digər ravisi isə Əbülcülasdır. Bu şəxsin də kimliyi bilinmir. Ondan təkcə bu hədis nəql edilmişdir. Diqqətli olmaql lazımdır ki, bu şəxs Əbülcülas Şami Üqbə ibn Yəsar deyil.

İbn Həcər "ət-Təqrib" kitabında deyir: Əbülcülas Kufi, məchuldur[76].

Həmçinin, "Təhzibul-kəmal" və "Təhzibut-təhzib" kitablarında belə deyilir: "Əbülcülas Kufi: nəsəbi bilinmir. Əli ibn Əbu Talib yolu ilə Peyğəmbərin bu sözünü nəql etmişdir: "Qiyamətdən qabaq otuz yalançı olacaq". Bu hədisi ondan Əbu Hind Haris ibn Əbdürrəhman Həmədani nəql etmişdir".[77]

Bu hədisi həmçinin İbn Əbu Asim "əs-Sünnə" kitabında nəql etmişdir. Əlbani hədisə "isnadı zəifdir, Əbülcülas Kufi "ət-Təqrib" kitabında deyildiyi kimi, məchuldur. Harun ibn Saleh də həmçinin məchuldur", - deyə rəy bildirmişdir.[78]

**Nəticə:** Bu rəvayət zəif sənədli rəvayətdir və ona etimad etmək olmaz.

---

[73] "Təhzibut-təhzib": 9/102; "Təhzibul-kamal": 25/79.

[74] "Təhzibut-təhzib": 2/128.

[75] "Əl-Cərh vət-tədil": 3/79.

[76] "Təqributt-təhzib": səh.630.

[77] "Təhzibul-kamal": 33/213; "Təhzibut-təhzib": 12/66.

[78] "Kitabus-sünnə": səh.462.

Üstəlik, çox böyük ehtimalla bu rəvayətdə sözü gedən Abdullah Səbainin Abdullah ibn Səbə yox, Abdullah ibn Vəhb Rasibi Səbai olduğunu demək olar. Çünki Abdullah ibn Səbə başqa addır, Abdullah Səbai başqa ad. Rəvayətdə "Abdullah ibn Səbə" yox, "Abdullah Səbai" adı keçmişdir.

Hətta bütün bunları nəzərə almasaq, rəvayəti səhih fərz etsək və orada adı keçən şəxsin İbn Səbə olduğunu qəbul etsək belə, yenə də rəvayət – əvvəlki rəvayətdə olduğu kimi – maksimum halda Abdullah ibn Səbənin yalançı olduğuna dəlalət edəcək, başqa heç nəyə.

Digər bir rəvayət isə İbn Əsakirin "Tarixu-Diməşq" kitabında öz sənədi ilə Əmmar Dəhənidən nəql etdiyi aşağıdakı rəvayətdir:

Əbut-Tufeylin belə dediyini eşitdim:

Müseyyib ibn Nəcbənin onu – yəni İbn Səvdanı – yaxasından tutmuş halda gətirdiyini gördüm. Bu zaman Əli minbər üstündə idi. Əli bunu görüb dedi: "O nə edib?" Müseyyib dedi: "Allahın və Peyğəmbərinin adından yalan danışır".[79]

Sənədini bir kənara qoysaq, bu rəvayətdə – adı keçən İbn Səvdanın Abdullah ibn Səbə olduğuna dəlalət edən heç bir şey yoxdur. Çünki daha öncə də göstərdiyimiz kimi, o vaxtlar anası qara olan istənilən adama məzəmmət məqsədiylə İbn Səvda deyilə bilirdi. Tarixdən məlum olduğu kimi, bir qrup səhabə və tabei bu adla məzəmmət olunmuşlar. Buna əsasən, rəvayətdə adı keçən İbn Səvdanın kim olduğu bəlli deyil. Bəlkə də o, Abdullah ibn Vəhb Rasibi olmuşdur. Bu əsasla ki, ikinci fəsildə qeyd etdiyimiz kimi, onu da bu adla məzəmmət etmişlər.

Üstəlik, rəvayətdə (iki tre arasında) gələn "yəni İbn Səvdanı" ifadəsi Əbut-Tufeylin yox, ravilərdən birinin şəxsi fikirdən qaynaqlanan əlavəsidir. Hədislərdə bu cür hallara tez-tez rast gəlinir. Bu cür hədislərə hədis alimləri "əl-hədis əl-mudrəc" ("əlavəli hədis" və ya "ara sözlü hədis")

[79] "Tarixu-Diməşq": 29/7.

deyirlər[80]. Buna əsasən, rəvayətdəki "yəni İbn Səvdanı" sözü Əbut-Tufeylin sözü deyil və Əbut-Tufeylin özünə məxsus cümlənin heç yerində Abdullah ibn Səbəyə dəlalət edən bir şey yoxdur.

Lakin yenə də rəvayətdəki ravinin əlavəsi olan İbn Səvda sözü ilə Abdullah ibn Səbənin nəzərdə tutulduğunu fərz etsək, o halda rəvayət ən uzağı Abdullah ibn Səbənin bir yalançı olduğuna dəlalət etmiş olacaq, başqa heç nəyə.

Digər bir rəvayət də İbn Əsakirin "Tarixu-Diməşq" kitabında öz sənədi ilə Zeyd ibn Vəhbdən, onun da Əlidən nəql etdiyi aşağıdakı rəvayətdir: "Nədir bu qara tuluğun əlindən çəkdiyim".[81]

Sənədini bir kənara qoysaq, rəvayətdə "qara tuluq" sözü ilə Abdullah ibn Səbənin nəzərdə tutulduğuna dəlalət edən heç bir şey yoxdur. Bu ifadə ümumi məzmunludur və kimə dəlalət etdiyi aydın deyil. Buna əsasən, ona etimad etmək olmaz.

Hətta, ifadə ilə Abdullah ibn Səbənin nəzərdə tutulduğunu fərz etsək belə, yenə də rəvayət maksimum halda Əmirəlmömininin (ə) hansısa bir səbəbə görə Abdullah ibn Səbədən narazılığını ifadə etdiyinə dəlalət edəcək. Bəlkə də narazılığın səbəbini (əvvəlki rəvayətləri nəzərə alarsaq) elə İbn Səbənin yalançılığı olmuşdur.

Digər bir rəvayət isə İbn Əsakirin "Tarixu-Diməşq" kitabında nəql etdiyi aşağıdakı rəvayətdir: "Bizə Əbu Muhəmməd ibn Tavus və Əbu Yəla Həmzə ibn Həsən ibn Mufric nəql edib dedilər: bizə Əbülqasim ibn Əla nəql edib dedi: bizə Əbu Muhəmməd ibn Əbu Nasir nəql edib dedi: bizə Xeysəmə ibn Süleyman nəql edib dedi: bizə Əhməd ibn Zuheyr ibn Hərb nəql edib dedi: bizə Əmr ibn Mərzuq nəql edib dedi: bizə Şubə Sələmə ibn Kuheyldən, o da Zeyd ibn Vəhbdən nəql edib dedi: "Əli ibn Əbu Talib dedi:

---

80 Bax: "Miqbasul-hidayə": 1/219.

81 "Tarixu-Diməşq": 29/7.

“Nədir bu qara tuluğun əlindən çəkdiyim. – Yəni İbn Səvdanın əlindən çəkdiyim. İbn Səvda Əbu Bəkr və Öməri təhqir edirdi”.[82]

Bu rəvayətin də vəziyyəti Zeyd ibn Vəhbdən nəql edilən rəvayət kimidir. Aydındır ki, tredən sonrakı sözlər ravilərin əlavəsidir. Çünki, rəvayət özü, əvvəlki rəvayətdən də aydın olduğu kimi, bu əlavəsiz nəql olunmuşdur.

Üstəlik, hədisdə adı keçən “Abdullah ibn Səbə”nin Abdullah ibn Vəhb Rasibi Səbai olması da mümkündür.

Lakin israrla sözügedən şəxsin Seyfin rəvayətlərindəki Abdullah ibn Səbə olduğu deyilsə, bu halda rəvayət maksimum onun Əbu Bəkri və Öməri təhqir etdiyinə dəlalət edəcək.

Bununla yanaşı, rəvayətin sənədində barəsində ixtilaf edilən bir şəxs var. O, Əmr ibn Mərzuqdur. Bəzi alimlər onu siqə bilsələr də, Zəhəbi “Siyəru-əlamin-nubəla” kitabında Qəvariridən Yəhya ibn Məinin hədis mövzusunda Əmrdən razı olmadığını nəql etmişdir.

Həmçinin, Zəhəbi Əli ibn Mədininin belə dediyini nəql etmişdir: Alimlər iki “Fəhd”i və iki “Əmr”i tərk etmişlər. Yəni Fəhd ibn Aufu, Fəhd ibn Həyyanı, Əmr ibn Hikamı və Əmr ibn Mərzuqu.[83]

Digər bir rəvayət isə İbn Əsakirin nəql etdiyi aşağıdakı rəvayətdir: “Bizə Əbu Muhəmməd Əbdürrəhman ibn Əbülhəsən ibn İbrahim Darani nəql edib dedi: bizə Səhl ibn Bişr nəql edib dedi: bizə Əbülhəsən Əli ibn Munir ibn Əhməd ibn Munir Xəllal nəql edib dedi: bizə Qazı Əbu Tahir Muhəmməd ibn Əhməd ibn Abdullah Zuhəli nəql edib dedi: bizə Əbu Əhməd ibn Əbdus nəql edib dedi: bizə Muhəmməd ibn Əbbad nəql edib dedi: bizə Süfyan nəql edib dedi: bizə Əbdülcabbar ibn Abbas Həmədani Sələmə ibn Kuheyldən, o da Huciyyə ibn Ədiy Kindidən nəql edib dedi: “Əlinin – Allah üzünü nurlandırsın – minbərdən belə dediyini eşitdim:

---

[82] “Tarixu-Diməşq”: 29/9.

[83] “Siyəru-əlamin-nubəla”: 10/418.

“Allahın və Peyğəmbərinin (s) adından yalan danışan o qara tuluğu – yəni İbn Səvdanı – cəzalandırdığım təqdirdə kim mənə haqq qazandırar? Əgər mənə qarşı çıxan dəstələr qanlarını tökdüyüm təqdirdə Nəhrəvandakılar kimi qanlarına görə ittiham olunacağım şəxslər olmasaydılar, onlardan (onların leşlərindən) qalaq düzəldərdim”.[84]

Bu rəvayət də əvvəlkilər kimidir və onda “qara tuluq” sözü ilə Abdullah ibn Səbənin nəzərdə tutulduğuna dəlalət edən heç bir şey yoxdur. Mətndəki “yəni İbn Səvdanı” sözü də bəlli olduğu kimi, ravilərdən birinin əlavəsidir.

Bununla yanaşı, yenə daha əvvəl qeyd etdiyimiz kimi, İbn Səvda sözü ilə sırf Abdullah ibn Səbənin nəzərdə tutulduğunu demək mümkün deyil. Çünki bu sözlə bir çox şəxslər məzəmmət olunmuşlar. Bəlkə də nəzərdə tutulan şəxs Abdullah ibn Səbə yox, başqa birisidir.

Əhli-sünnə mənbələrində Abdullah ibn Səbədən bəhs edən və bizim rastımıza çıxan hədisləri bunlar idi. Əhli-sünnə mənbələrində bundan başqa da bir sıra rəvayətlər var. Lakin biz onlardan səkkizinci fəsldə Abdullah ibn Səbənin Mədainə sürgün olunması məsələsi barədə danışarkən söz açacağıq.

Bu rəvayətlər sənədlərinin zəif olması ilə yanaşı, ya Abdullah ibn Səbəyə açıq şəkildə dəlalət etmirlər, ya da dəlalət etsələr də, ən uzağı onun Allahın və Peyğəmbərin adından yalan danışan bir şəxs olmasına dəlalət edirlər.

Abdullah ibn Səbənin yəhudi olmasına, sonra islamı qəbul etməsinə, yaxud Osmanın zamanında baş verən fitnə hadisələrində iştirakına, yaxud rəcət, canişinlik və s. bu kimi inancları ixtira etməsinə gəlincə, bu məlumatların heç biri yuxarıdakı rəvayətlərdə qeyd olunmamışdır. Bu məlumatlar yalnız Seyf ibn Ömərin rəvayətlərində mövcuddur.

---

[84] “Tarixu-Diməşq”: 29/8.

Bütün bunlarla yanaşı, haqqında danışılan rəvayətlərin hamısı qeyri-şiə mənbələrində və qeyri-şiə şəxslər yolu ilə nəql edilmişdir. Buna əsasən, hətta sənədləri səhih olsa belə, onlar şiələr üçün deyil, başqaları üçün höccətdir. Buna görə də belə rəvayətləri şiələrə dəlil gətirmək doğru deyil.

## BEŞİNCİ FƏSİL

## Abdullah ibn Səbə şiə mənbələrində

Şiə mənbələrində Abdullah ibn Səbə barədə Əhli-Beyt imamlarından (ə) nəql olunan hədisləri iki qrupa bölmək olar:

**Birinci qrup:** İmam Əli (ə) ilə eyni dövrdə yaşayan Abdullah ibn Səbə adlı bir şəxsin varlığından bəhs edən hədislər.

Belə hədislərdən biri Şeyx Tusinin "ət-Təhzib" kitabında, Şeyx Səduqun da "əl-Fəqih", "əl-Xisal" və "əl-İləl" kitablarında öz sənədləri ilə nəql etdikləri və hamısının sənədində hədisi Həsən ibn Raşidin Əbu Bəsirdən, onun Əbu Abdullahdan (ə), o həzrətin ata-babalarından (ə), onların da Əmirəlmömindən (ə) nəql etdiyi deyilən aşağıdakı hədisdir:

"Əmirəlmöminin (ə) dedi: Namaz qılıb qurtarandan sonra əllərinizi göyə qaldırıb dua edin.

İbn Səbə dedi: Ey möminlərin əmiri, məgər Allah hər yerdə deyil?

Dedi: Niyə, hər yerdədir.

Dedi: Elə isə nə üçün əlimizi göyə qaldırmalıyıq?

Dedi: Məgər "**Sizin ruziniz və sizə vəd edilənlər səmadadır**" ayəsini oxumamısan? Ruzini onun yerindən başqa haradan istəmək olar? Ruzinin və Allahın vəd etdiyi şeylərin yeri göydür".[85]

Lakin bu rəvayətin sənədi Həsən ibn Raşidə görə zəifdir. Belə ki, bioqrafiya kitablarında onun siqə olması sübuta yetməmişdir[86]. Buna əsasən, rəvayət qüvvədən düşmüş sayılır və Abdullah ibn Səbənin varlığı məsələsində ona etimad etmək olmur.

---

[85] "Təhzibul-əhkam": 2/322; "Mən la yəhduruhul-fəqih": 1/229; "İləluş-şərai": 2/344.

[86] Həsən ibn Harun abbasi xəlifəsi Mehdi əl-Abbasinin, Musa və Harunun vəziri olmuşdur. İbn əl-Ğəzairi onun barəsində "hədis nəqlində zəifdir", - demişdir ("Mucəmu-ricalil-hədis": 4/332).

Üstəlik, rəvayətdəki Abdullah ibn Səbənin Abdullah ibn Vəhb Rasibi Səbai olması da mümkündür. Sonrakı bəhslərdə bu barədə ətraflı danışacağıq.

**İkinci qrup:** Abdullah ibn Səbənin Əmirəlmöminin (ə) üçün ilahlıq iddia etdiyini və Əmirəlmömininin (ə) da onu yandırdığını bildirən rəvayətlər. Bunlar bir qrup rəvayətdən ibarətdirlər. Aşağıdakı rəvayətlər onlardandır:

Kəşşi "Rical" kitabında öz sənədi ilə İmam Baqirdən (ə) belə nəql edir: "Abdullah ibn Səbə peyğəmbərlik iddiası edirdi. Əmirəlmömininin Allah olduğunu deyirdi. – Allah bundan çox uzaqdır –. Bu xəbər Əmirəlmömininə çatdıqda, İbn Səbəni yanına çağırıb bunun həqiqət olub-olmamasını soruşdu. İbn Səbə deyilənləri təsdiq edərək, "bəli", - dedi. Əmirəlmöminin ona dedi: "Vay olsun sənə, şeytan səni ələ salıb. Bu fikrindən dön, anan matəmində ağlasın, tövbə et". Lakin İbn Səbə fikrində qaldı. Əmirəlmöminin onu həbs etdi. Üç gün ondan tövbə etməsini tələb etdi, lakin o, etmədi. Əmirəlmöminin də onu odda yandırdı. Sonra dedi: "Şeytan onu azdırmışdı; onun yanına gəlib zehninə o fikirləri atırdı".[87]

Bu rəvayət Muhəmməd ibn Osman Əbdi və Abdullah ibn Sinanın atası Sinan səbəbindən zəifdir. Çünki bu iki şəxsin siqəlikləri sübuta yetməmişdir.

Digər rəvayət Kəşşinin İmam Sadiqdən (ə) nəql etdiyi aşağıdakı rəvayətdir: "Əbu Abdullah (ə) dedi: "Biz doğru danışan bir ailəyik. Amma hər zaman bizim adımızdan yalan danışan və danışdığı yalanla camaata arasında bizim etibarımızı aradan aparan biriləri tapılır. Allah elçisi (s) camaat arasında ən doğru danışan, bütün insanların ən doğruçusu idi. Amma Müseyləmə onun adından yalan danışırdı. Əmirəlmöminin (ə) da Allah elçisindən sonra insanların ən doğruçusu idi. Lakin Abdullah ibn

---

[87] "İxtiyaru-mərifətir-rical": səh.106.

Səbə onun adından yalan danışır, onun danışdığı doğru sözü təkzib etməyə çalışır və Allaha iftra atırdı.[88]

Bu rəvayət də zəifdir. Çünki onun sənədində Muhəmməd ibn Xalid Təyalisi var. Onun barəsində də "Rical" kitablarında tövsiq (siqəlik bildirən ifadə, söz) gəlməmişdir.

Digər rəvayət Kəşşinin öz sənədi ilə Hişam ibn Salimdən nəql etdiyi aşağıdakı rəvayətdir: "Əbu Abdullahın (ə) öz səhabələrinə Abdullah ibn Səbə və onun Əmirəlmöminin (ə) barəsində ilahlıq iddiası etməsi barədə danışdığı vaxt belə dediyini eşitdim: "O, bu iddianı etdiyi vaxt Əmirəlmöminin (ə) ondan tövbə etməsini tələb etdi. Lakin o, imtina etdi. Əmirəlmöminin də onu yandırdı".

Digər rəvayət Kəşşinin adı çəkilən kitabda öz sənədi ilə Əban ibn Osmandan nəql etdiyi bu rəvayətdir: "Əbu Abdullahın (ə) belə dediyini eşitdim: "Allah Abdullah ibn Səbəyə lənət etsin. O, Əmirəlmöminin barəsində allahlıq iddiası edirdi. Halbuki, Allaha and olsun, Əmirəlmöminin Allahın müti bir bəndəsi idi. Vay olsun bizim barəmizdə yalan danışanlara. Bir qrup şəxs bizim barəmizdə bizim özümüzün öz barəmizdə demədiyimiz sözlər deyirlər. Biz o şəxslərdən Allaha sığınırıq, biz o şəxslərdən Allaha sığınırıq".

Digər rəvayət Kəşşinin öz sənədi ilə Əbu Həmzə Sumalidən nəql etdiyi bu rəvayətdir: "Əli ibn Hüseyn (ə) dedi: "Allah bizim adımızdan yalan danışan şəxslərə lənət etsin. Mən Abdullah ibn Səbəni xatırladım, bədənimin bütün tükləri biz-biz oldu. O, çox böyük bir şey iddia etmişdi, Allah ona lənət etsin! Əli, vallahi, Allahın saleh bir bəndəsi, Allah elçisinin qardaşı idi. O, Allah yanında qədr-qiymətə yalnız Allaha və Onun elçisinə itaət etmək sayəsində çatmışdı. Allah elçisi də Allah yanında qədr-qiymətə yalnız Ona itaət etmək sayəsində çatmışdı".

---

[88] "İxtiyaru-mərifətir-rical": səh.107, 305.

Bu qeyd olunan son üç rəvayət sənəd cəhətdən mötəbərdirlər və açıq-aşkar şəkildə dəlalət edirlər ki, Abdullah ibn Səbə adında bir şəxs olmuş, o şəxs Əmirəlmöminin (ə) haqqında ifrata vararaq, onun üçün allahlıq iddiası etmiş, Əmirəlmöminin ondan tövbə etməsini tələb etmiş, o isə imtina etmiş, bundan sonra Əmirəlmöminin onu odda yandırmış və beləcə işi bitmişdir.

Bu rəvayətlərdən belə nəticə çıxara bilərik ki, sözügedən Abdullah ibn Səbə yəhudi olmamış və "fitnə" hadisələrində heç bir rolu ifa etməmişdir. Əgər yəhudi olsa və fitnə hadisələrində bir rol ifa etsəydi, imamlar bunu qeyd edərdilər. Çünki onlar İbn Səbənin tənqid edirdilər və belə məqamda bu xüsusiyyətlərin qeyd edilməsi daha məqsədəuyğun olardı.

Digər bir rəvayət Məclisinin "Biharul-ənvar" kitabında, Nurinin "Müstədrəkül-vəsail" kitabında, başqalarının da öz kitablarında Şeyx Müfidin müasiri olan Hüseyn ibn Əbdülvəhhabın "Kitabul-mucizat" kitabından nəql etdikləri aşağıdakı rəvayətdir (Hüseyn ibn Əbdülvəhhab da bu rəvayəti Əbu Əli Həsən ibn Həmmamın "Kitabul-ənvar" kitabından nəql edir): "Əmmar Sabati deyir: Əmirəlmöminin (ə) Mədainə gəldiyi vaxt Eyvane-kəsra adlanan yerdə mənzil saldı. Kəsranın münəccimi Dəlf ibn Mücir də onunla birgə idi. Gün batdıqdan sonra Əmirəlmöminin Dəlfə dedi: "Mənimlə gəl"...

Sonra Əmirəlmöminin çürümüş bir kəllə sümüyü gördü. Səhabələrindən birinə dedi: "O kəlləni götür". – Kəllə bir tərəfə atılmışdı –.

Əmirəlmöminin eyvana gəlib orada əyləşdi. Bir teşt gətirdib içinə su tökürdü. Səhabəsinə dedi: "Kəlləni teştə qoy". Sonra dedi: "Səni and verirəm, ey kəllə, mənim kim olduğumu və özünün kim olduğunu söylə". Kəllə dilə gəlib təmiz bir dillə dedi: "Sənə gəlincə, sən möminlərin əmiri, canişinlərin rəhbərisən. Mənə gəlincə, mən Allahın bəndəsi, Allah kənizinin oğlu Kəsra Ənuşirəvanam".

Əmirəlmömininin yanında olan sabatlılar öz ev-eşiklərinə qayıdıb olan-bitənləri və kəllədən eşitdiklərini öz adamlarına danışdılar. Sabatlılar “möminlərin əmiri” ifadəsinin mənası barəsində ixtilafa düşdülər. Əmirəlmömininin yanına gəldilər. Onların bəziləri xristianların İsa Məsih barəsində dediklərini, habelə Abdullah ibn Səbə və yoldaşlarının dediklərini Əmirəlmöminin (ə) barəsində dedilər.

Səhabələri Əmirəlmömininə dedilər: “Əgər bunları belə buraxsan, camaat kafir olacaq”.

Əmirəlmöminin dedi: “Onlara nə etməyimi istəyirsiniz?”

Dedilər: “Abdullah ibn Səbə və yoldaşlarını odda yandırdığın kimi, onları da odda yandır”.

Əmirəlmöminin onları çağırıb dedi: “Sizi bu iddiaları etməyə nə vadar etdi?”

Dedilər: “Çürümüş kəllənin sözünü və səninlə danışmasını eşitdik. Belə bir şeyi ancaq Allah-taala edə bilər. Buna görə də məlum sözləri dedik”.

Dedi: “Sözünüzdən dönüb Allah qarşısında tövbə edin”.

Dedilər: “Dediyimizdən dönmərik. Nə istəyirsən et”.

Əmirəlmöminin od qalanmasını əmr etdi, sonra onları odda yandırdı. Yanıb kül olduqdan sonra adamlarına “onları götürüb küləyə sovurun”, - dedi. Adamları yanmış cəsədləri götürüb küləyə sovurdular. Bu hadisədən iki gün keçdikdən sonra, sabatlılar onun yanına gəlib dedilər: “Sənin odda yandırdığın adamlar dirilib əvvəlkindən də yaxşı vəziyyətdə evlərinə qayıdıblar”. Əmirəlmöminin adamlarına dedi: “Məgər onları odda yandırıb küllərini küləyə sovurmadınız?” Dedilər: “Niyə, etdik”. Dedi: “(Deməli) onları mən yandırdım, Allah diriltdi”. Sabatlılar çaşqın vəziyyətdə geri döndülər.[89]

[89] “Uyunul-mucizat”: səh.10; “Müstədrəkül-vəsail”: 18/169; “Biharul-ənvar”: 41/213.

Mətnini bir kənara qoyası olsaq, bu rəvayət Musa İbn Ətiyyə və Həssan ibn Əhməd Əzrəqə görə sənəd baxımından zəifdir. Belə ki, bu iki şəxsin kimliyi məchuldur və barələrində bioqrafiya kitablarında heç nə gəlməmişdir. Həmçinin sənəddə adı keçən Abbas ibn Fəzl bioqrafiya kitablarında siqə - güvənilən hesab edilməmişdir. Üstəlik, Əmmar Sabati bu rəvayəti məsum imamdan nəql etməmişdir. Buna əsasən bu rəvayət hədis terminologiyası ilə məvquf rəvayət adlanır və dəlil gətirmək üçün əsla yaramır.

Rəvayəti həmçinin Şeyx Şazan ibn Cibril "Kitabul-fəzail" kitabında və Muhəmməd ibn Cərir (şiə) "Nəvadirul-mucizat" kitabında Əbüləhvəs yolu ilə nəql etmişlər, lakin bu rəvayət də öncəki rəvayət kimi zəif olduğu üçün dəlil olaraq yaramır.

Lakin rəvayətin səhih olduğunu fərz etsək belə, bu, ən uzağı Abdullah ibn Səbənin İmam Əmirəlmöminin barəsində ifrata vardığına və odda yandırılmaqla cəzalandırıldığına dəlalət edəcək. Bu məsələ barəsində də daha sonra faydalı bir şey qeyd edəcəyik.

Xülasə, Abdullah ibn Səbə barədə gəlib çatan rəvayətlərin əksəriyyətinin sənədi nöqsandan arı deyil və bu səbəbdən də bu şəxsin varlığının isbatı məsələsində onlara əsaslanmaq olmur.

Bu rəvayətlər içərisində mötəbər olanlar Kəşşinin kitabında gələn üç rəvayətdir. Bu rəvayətlər də Abdullah ibn Səbə adlı bir şəxsin var olduğunu, Əmirəlmöminin barəsində ifrata vardığını və odda yandırıldığını sübut edir, başqa heç nə.

İbn Həcərin "Fəthül-Bari" kitabında nəql etdiklərindən isə belə aydın olur ki, səhih rəvayətlərlə sabit olan fakt məhz Əlinin özü barəsində ilahlıq iddiası edən bir dəstə şəxsi odda yandırmasıdır. Buna əsasən, ola bilsin ki, səbaiyyə barəsində deyilənlərin əsli elə bu hadisədən götürülüb.

İbn Həcər yazır:

“Əbülmüzəffər İsfərayini “əl-Miləl vən-nihəl” kitabında iddia etmişdir ki, Əlinin odda yandırdığı şəxslər rafizilərdən olan və Əli barəsində ilahlıq iddia edən bir dəstə şəxs olub. İsfərayiniyə görə, onlar səbaiyyə firqəsidirlər. Onların başçıları Abdullah ibn Səbə yəhudi olmuş, sonra yalandan islamı qəbul etmiş və bu iddianı ortaya atmışdır.

Ola bilər bu deyilənlərin əsli (kökü, qaynaqlandığı və ilham aldığı mənbəsi) bizim bu kitabın üçüncü cildində Şüreyk Amiridən nəql etdiyimiz aşağıdakı rəvayətdir:

Əliyə dedilər: Burada məscidin qapısının ağzında sənin onların rəbbləri olduğunu idda edən bir qrup şəxs var.

Əli onları çağırıb dedi: Vay olsun sizə, nə deyirsiniz?

Dedilər: Sən bizim rəbbimiz, yaradanımız və ruzi verənimizsən.

Dedi: Vay olsun sizə, mən ancaq sizin kimi bir bəndəyəm. Sizin kimi yemək yeyir, sizin kimi su içirəm. Allaha itaət etsəm, inşallah mənə mükafat verəcək, etməsəm mənə əzab verəcəyindən qorxuram. Elə isə Allahdan qorxun, fikrinizdən əl çəkin.

Lakin onlar qəbul etmədilər. Sabahı gün səhər vaxtı Əlinin yanına gəldilər. Qənbər dedi: Vallahi, bunlar gəlib yeni eyni sözü deyirlər.

Əli dedi: Onları içəri al.

Onlar bu dəfə də eyni sözləri təkrarladılar.

Üçüncü dəfə də gəlib eyni şeyi dediklərində, Əli, “Əgər bir də belə bir şey desəniz, sizi ən çirkin şəkildə qətlə yetirəcəyəm”, - dedi. Onlar yenə israr etdilər.

Əli dedi: Ey Qənbər, mənə bel və külüngü olan işçilər gətir. (Qənbər bir neçə adam tapıb gətirdi). Əli onlara məscidin qapısı ilə qəsrin arasında bir çuxur qazdırdı. Qazdırarkən də çuxuru dərin etmələrini əmr etdi. Sonra ağac gətizdirib çuxurun içində bir tonqal qaladı. Sonra o şəxslərə üzünü tutub dedi: Ya sözünüzdən dönəcəksiniz, ya da sizi tonqala atacağam.

Lakin onlar yenə də sözlərini geri götürmədilər. Bundan sonra Əli onları tonqala atdı. Elə ki, yandılar, belə bir şer oxudu:

*Mən pis bir iş müşahidə etdim,*
*Odur ki, Qənbəri çağırıb, od qalatdım.*

Bu rəvayətin sənədi həsəndir.[90]

İbn Həcərin sözündən belə başa düşülür ki, o, səhih hədislər arasında Abdullah ibn Səbə və ardıcıllarının İmam Əli barəsində ilahlıq etdiklərinə dəlalət edən heç bir şey tapmamış, sadəcə Abdullah ibn Səbə və səbailər barəsində deyilən şeylərin əslinin (kökünün, ilham qaynağının) məhz imam barəsində ilahlıq iddia edən bu şəxslər ola biləcəyini ehtimal etmişdir. Ən doğrusunu Allah bilər.

---

[90] "Fəthül-Bari": 12/227.

## ALTINCI FƏSİL

## "İbn səbə" Abdullah ibn Vəhb Rasibidirmi?

Bəzi hədis və tarix mənbələrində Abdullah ibn Vəhb Rasibi Səbai adlı bir şəxsdən söz açılmışdır. O, Nəhrəvanda Əli ilə müharibə aparan xəvariclərin rəhbərlərindən və elə o döyüşdə qətlə yetirilən şəxslərdən olmuşdur.

Bəzi tarixçilər əminliklə bildirmişlər ki, Abdullah ibn Vəhb elə bizim söhbət açdığımız Abdullah ibn Səbədir. Məsələn, Əşəri "əl-Məqalat vəl-firəq" kitabında bunu açıqca ifadə edərək belə demişdir: "Səbaiyyə Abdullah ibn Səbənin ardıcıllarına verilən addır. Abdullah ibn Səbə isə Abdullah ibn Vəhb Rasibi Həmədanidir".[91]

Həmçinin Bəlazuri "Ənsabul-əşraf" kitabında belə demişdir: "Hücr ibn Ədiy Kindi, Əmr ibn Həməq Xuzai, Həbbə ibn Cüveyn Bəcli Ərəni və Abdullah ibn Vəhb Həmədani – *ki, o, Abdullah ibn Səbədir* – Əlinin yanına gəlib ondan Əbu Bəkr və Ömər barəsində bir sıra suallar soruşdular..."[92]

Elə isə görəsən, Abdullah ibn Vəhb Rasibi bizim söhbət açdığmız həmin Abdullah ibn Səbədir, yoxsa başqa şəxsdir?

Məsələnin izahı üçün deyirik: Bu iki şəxs barəsində qeyd olunan oxşar xüsusiyyətlər bəzi tarixçilərin onların eyni şəxs olduqlarını zənn etməsinə səbəb olmuşdur. Belə ki, hər ikisinin adı Abdullahdır, hər ikisi Yəməndəndir, hər ikisi Əmirəlmömininin yanında olmuşlar, hər ikisi "İbn Səvda" adlandırılmışdır və hər ikisinin adlarının son hissələri (birində İbn Səbə, digərində Səbai) oxşardır.

Bundan başqa, bəzi rəvayətlər də bu səhvin meydana gəlməsində müəyyən rol oynamışlar. Məsələn, Xətib Bağdadinin "Tarixu-Bağdad" kitabında öz sənədi ilə Şabidən nəql etdiyi bir rəvayətdə belə deyilir:

---

[91] "Əl-məqalat vəl-firəq": səh.20.

[92] "Ənsabul-əşraf": 2/383.

“Zuhr ibn Qeys Cufi mənə nəql edib dedi: “Əli məni dörd yüz iraqlının başında səfərə göndərdi və Mədaində düşərgə salmağımızı əmr etdi. Allaha and olsun, hələ yolda idik və günəş batdığı vaxt bir yerdə əyləşmişdik ki, birdən bir nəfər miniyi qan-tər içində yanımıza gəldi. Ona dedik: Haradan gəlirsən?

Dedi: Kufədən.

- Nə vaxt çıxmısan?

- Bu gün.

- Nə baş verib?

- Əmirəlmöminin sübh namazı üçün məscidə gəlmişdi. Lakin İbn Bəcdə və İbn Mülcəm onun üzərinə atıldılar və onlardan biri ona zərbə endirdi. Bu elə bir zərbə idi ki, insan bu zərbədən daha ağırı ilə yaşaya bilər, ondan daha yüngülü ilə ölə bilər (yəni öz-özlüyündə ağır zərbə olmasa da həssas bir yerə - başa gəldiyi üçün çox təhlükəli bir zərbədir).

Bunu deyib getdi. Bu vaxt *Abdullah ibn Vəhb Səbai* iki əlini göyə qaldırıb dedi: Allahu əkbər! Allahu əkbər!

Dedim: Belə niyə deyirsən?

Dedi: Bu adam Əmirəlmömininin beyninin çölə çıxdığını desəydi belə, onun ölmədiyini biləcəkdim. Əmirəlmöminin ərəbləri əsası ilə qabağına qatıb sürməyincə ölməyəcək.

Allaha and olsun, həmin gecənin səhəri Həsən ibn Əlinin aşağıdakı məzmunda məktubu bizə çatdı:

“Allahın bəndəsi Həsən Əmirəlmöminindən Zuhr ibn Qeysə: tabeçiliyində olan adamlardan beyət götür”.

Biz İbn Vəhbə dedik: Bəs nə oldu (, deyirdin ölməyəcək)?

Dedi: Onun öləcəyini düşünmürdüm.[93]

İbn Vəhbdən nəql olunan bu sözlər Abdullah ibn Səbədən nəql olunan aşağıdakı cümlələrlə oxşar məzmundadır:

---

[93] “Tarixu-Bağdad”: 8/487.

“Allaha and olsun, əgər onun beynini yetmiş kisəcikdə gətirsəniz belə, yenə onun öldüyünə inanmayacağıq. O, ərəbləri qabağına qatıb əsası ilə sürməyincə, ölməyəcək”.

Bütün bunlar bu iki şəxsin eyni şəxs olması zənninin yaranmasına səbəb olmuşdur.

Lakin biz elə İmam Əlinin Abdllah ibn Səbəni Kufədə yandırdığını bildirən rəvayətləri səhih hesab edəsi olsaq, onda yuxarıdakı fikrin batilliyini isbat etmək üçün əlavə əziyyətə düşməyimizə ehtiyac qalmayacaq.

Buna baxmayaraq, qeyd edək ki, bu iki şəxs arasında müəyyən oxşarlıqlar olsa da, onlar arasındakı fərqliliklər daha çox və daha böyükdür. Bu fərqliliklər onların eyni şəxs olduqlarıı deməyə imkan vermir.

**Onların arasındakı fərqliliklərə nümunə olaraq aşağıdakıları göstərə bilərik:**

1. Kimsə Abdullah ibn Səbənin zöhd və ya ibadət əhli olduğunu deməmişdir. Abdullah ibn Vəhbə gəlincə isə, onun ibadət əhli olduğu qeyd olunmuş, hətta “züs-səfənat” – “qabarlar sahibi” ləqəbi ilə çağırıldığı bildirilmişdir.

İbn Həcər “əl-İsabə” kitabında deyir: “O, çoxlu ibadət etmək mövzusunda inanılmaz bir şəxs olmuş və ona “qabarlar sahibi” ləqəbi verilmişdir. Çoxlu səcdə etmək səbəbindən əllərinin içi və dizlərinin üstü dəvənin dizləri kimi qabar bağlamışdı”.[94]

İbn Kəsir “əl-Bidayə vən-nihayə” kitabında Heysəm ibn Ədiyin “əl-Xəvaric” kitabından belə nəql edir: “(İbadətdə) cidd səy göstərməsi və

[94] “əL-Isabə”: 5/78.

çoxlu səcdələri səbəbindən Abdullah ibn Vəhb Rasibinin səcdə üzvləri qabar bağlamışdı. Ona “züs-səfənat” deyilirdi”.[95]

2. Abdullah ibn Səbənin yəhudi olduğu, sonra Osman ibn Əffanın zamanında İslamı qəbul etdiyi deyilmişdir. Halbuki Abdullah ibn Vəhb Rasibi Ömər ibn Xəttabın zamanında baş verən fütuhatlarda iştirak etmişdir.

İbn Həcər “əl-İsabə” kitabında onun tərcümeyi-halını qeyd edərkən belə deyir: “Səd ibn Əbu Vəqqasla birlikdə İraqın fəthində iştirak etmişdir. Təbəri “Tarix” kitabında qeyd edir ki, Səd onu Müzarib Əcli və bir qrup şəxslə birlikdə (yürüşə) göndərmiş və başlarına da Ömərin göstərişi ilə Zirar ibn Xəttabı qoymuşdur”.[96]

3. Abdullah ibn Səbə İmam Əli barəsində ifrata varıb onu ilahlaşdırdığı, yaxud, Seyfin rəvayətində bildirildiyi kimi, onu digər xəlifələrdən üstün bilərək, barəsində, “Əli Peyğəmbərin canişinidir, yerdən çıxacaq canlıdır...” və s. dediyi halda, Abdullah ibn Vəhb Rasibi onu kafir bilir və onun adını çəkmək istədikdə yalnız “cahid”[97] (“haqla mübarizə aparan”, “inadkar”) sözünü işlədirdi[98].

4. Abdullah ibn Vəhb Rasibi xəvaricin böyüklərindən olmuş, Abdullah ibn Səbə isə böyüklərindən olmaq bir yana dursun, adi xəvariclərdən belə olmamışdır.

5. Əmirəlmöminin Əli Abdullah ibn Səbəni ya yandırmış, ya da Mədainə sürgün etmiş və o da Əmirəlmömininin ölüm xəbəri ona çatanadək orada qalmışdır. Bundan qeyri hətta zəif rəvayətlə belə heç bir şey nəql edilməmişdir. Abdullah ibn Vəhbə gəlincə isə, hamı onun Nəhrəvan döyüşündə öldürüldüyünü bildirmişdir.

---

[95] “Əl-Bidayə vən-nihayə”: 7/300.

[96] “Əl-İsabə”: 5/78.

[97] “Ha” ilə (جاحد). Amma, “cahid” – “hə” ilə (جاهد), “səy edən”, “cəhd edən” deməkdir. Tərc.

[98] “Əl-Bidayə vən-nihayə”: 7/300

İbn Həcər "Lisanul-mizan" kitabında deyir: "Abdullah ibn Rasib: həruriyyə firqəsinin başçılarındandır. Bəzi alimlər onu zəif şəxslərin adlarının toplandığı kitablarda qeyd etmişlər. Əbu İshaq Cüzcaninin kitabında o, Abdullah ibn Kəvvanın həmyaşıdları cərgəsindədir, cahiliyyə dövrünü görmüşdür. Sitatın sonu.

Bu adamın adı məhz Abdullah ibn Vəhb Rasibidir. Məşhur qəbilə olan Rasib qəbiləsindəndir. Nəhrəvanda Əli ilə döyüşən xəvariclərin rəhbəri olmuşdur. Həmin döyüşdə öldürülmüşdür. Onun nəql etdiyi bir rəvayət görməmişəm".[99]

Yenə "əl-İsabə" kitabında belə deyir: "Bu Rasibi Nəhrəvanda öldürülmüşdür. Onun əhvalatı məşhurdur".[100]

İbn Kəsir "əl-Bidayə vən-nihayə" kitabında Nəhrəvan hadisələrindən danışarkən belə deyir: "Xəvariclər dörd min nəfər idilər. (Bir müddət sonra) onlardan geriyə yalnız Abdullah ibn Vəhb Rasibi ilə birlikdə min nəfər və ya daha azı qaldı. Onlar Əlinin üzərinə yürüşə keçdilər.

Əli atlıları qabağa verdi. Onların içindən oxatanları daha önə yerləşdirdi. Piyadaları isə atlıların arxasına düzdü və öz adamlarına dedi: "Onlar birinci başlamadan siz başlamayın". Bu vaxt xəvariclər "Hakimiyyət yalnız Allaha məxsusdur! Cənnətə doğru, Cənnətə doğru!", - deyə-deyə hücuma keçdilər. Əlinin önə düzdüyü atlıları pərən-pərən saldılar. Atlıların bir hissəsi sağa, bir hissəsi isə sola dağıldı. Lakin oxatanlar onların üzərlərinə ox yağdırmağa başladılar. Atlılar da sağdan-soldan onların üzərinə şığıdılar. Piyadalar isə nizə və qılınclarla onların üzərinə atıldılar. Beləcə xəvaricləri məğlub etdilər, onlar atların ayaqları altına yıxılıb qaldılar. Başçıları Abdullah ibn Vəhb, Hərqus ibn Züheyr, Şüreyh

---

[99] "Lisanul-mizan": 3/284.

[100] "Əl-İsabə": 5/78.

ibn Əvfə və Abdullah ibn Səxbərə Suləmi qətlə yetirildilər. Allah üzlərini qara etsin".[101]

Bütün bunlardan bu nəticəyə gəlirik ki, Abdullah ibn Vəhb Rasibi Abdullah ibn Səbədən ayrı bir şəxs olmuşdur və onları qarışdırmamaq lazımdır.

Xətib Bağdadinin "Tarixu-Bağdad" kitabında nəql etdiyi rəvayətə gəlincə isə, o rəvayət on iki imam şiələri tərəfindən nəql edilmədiyi və sənədində bizim yanımızda güvənirlikləri sübuta yetməmiş şəxsləri ehtiva etdiyi üçün zəif olması ilə yanaşı, qarşı tərəfin nəzərində də zəif rəvayət sayılır. Belə ki, rəvayətin sənədində bir sıra alimlər tərəfindən zəif hesab edilmiş Mücalid ibn Səid və Ziyad Bukai[102] var.

Buna əsasən, rəvayət qüvvədən düşmüş sayılır və ona əsaslanmaq olmur.

---

[101] "Əl-Bidayə vən-nihayə": 7/299.

[102] Mücalid ibn Səidi İbn Hibban "Əl-Məcruhin" kitabında (3/10) zəif hesab etmiş və demişdir: "Çox pis yaddaşı olmuşdur, sənədləri qarışdırar, mürsəl hədisləri mərfu kimi nəql edərdi. Ona etimad etmək olmaz."

Həmçinin, Yəhya ibn Məin, Sədi, Yəhya ibn Səid əl-Qəttan və Nəsai onu zəif bilmişlər. Onların sözləri ilətanış olmaq üçün aşağıdakı kitablara müraciət edə bilərsiniz: "Əl-Kamil fid-duəfa" (8/128), "Əd-Duəfa vəl-mətrukin" (Nəsai, səh.236), "Əd-Duəfa əs-sağir" (Buxari, səh.116), "Əd-Duəfa vəl-mətrukin" (İbn əl-Cəvzi, səh.1/35), "Təhzibut-təhzib" (10/36).

Ziyad əl-Bukaiyə gəlincə isə, Yəhya ibn Məin onun İbn İshaqın "Əl-Məğazi" kitabından nəql etdikləri rəvayətlərdən başqa digər rəvayətlərini zəif hesab etmişdir. Həmçinin İbn əl-Mədini, Nəsai, Saleh ibn Muhəmməd və İbn Səd onu zəif hesab etmişlər (bax: "Təhzibul-kəmal": 9/487-489; "Təhzibut-təhzib": 3/323). Əbu Hatim "Əl-Cərh vət-tədil" kitabında (3/538) belə demişdir: "Hədisi yazılar, amma ona etimad edilməz." "Siyəru-əlamin-nubəla" kitabında (9/6) belə deilirr: "İbn əl-Mədini demişdir: Ondan heç nə nəql etmirəm. Saleh Cəzrə demişdir: Onun hədisləri zəifdir... Nəsai demişdir: Güclü deyil... Əbu Hatim demişdir: Ona etimad edilməz. Tirmizi demişdir: Çoxlu münkər hədisləri var... ".

Üstəlik, belə görünür, rəvayətdə sözügedən Abdullah ibn Vəhb, Vəhb ibn Abdullah Səvaidir.[103]Lakin adı səhvən Abdullah ibn Vəhb Səbaiyə dəyişdirilmişdir. Bu iki ad arasında ciddi oxşarlıq var.

Vəhb ibn Abdullah Səvai həmin Əbu Cuheyfə Səvaidir. O, Əlinin səhabələrindən olmuşdur. Peyğəmbərin kiçik səhabələrindəndir. Peyğəmbəri görmüş, vəfatı zamanı onun yanında olmuşdur.

Xətib Bağdadi "Tarix-Bağdad" kitabında belə deyir: Əli ilə birgə Nəhrəvanda iştirak etmiş, onunla birgə Mədainə getmişdir.[104]

Zəhəbi "Siyəru-əlamin-nubəla" kitabında belə deyir: O, Əlinin qarnizonunun rəisi idi. Əli minbərdə xütbə etdiyi vaxt, o, minbərin aşağısında dayanırdı.[105]

İbn Əbdülbərr "əl-İstiab" kitabında belə deyir: "Əli onu Kufədə beytül-malın rəisi təyin etmişdi. Əli ilə birgə bütün döyüşlərdə iştirak etmişdir".[106]

Bu ehtimalı gücləndirən şeylərdən biri də odur ki, İbn Hibban rəvayətin ravisi olan Mücalid ibn Səidi "çox pis yaddaşa malik, sənədləri qarışdıran" bir şəxs kimi vəsf etmişdir. Bəlkə də "Səvai" yerinə "Səbai" adının qeyd edilməsi elə ravinin pis yaddaşından, Abdullah adının Vəhb adından qabağa salınması da ravinin sənədləri qarışdırmaq xislətindən irəli gəlmişdir.

Hər halda, rəvayətdən bu şəxsin yəhudi Abdullah ibn Səbə ilə eyni əqidədə olduğu başa düşülmür. Belə ki, o, sadəcə Əmirəlmömininin ölümünü uzaq hesab edirmiş. Sonradan xəbərin düz olduğunu bilincə isə, onu inkar etmir, (necə ki, bunu onun "onun öləcəyini düşünmürdüm"

---

[103] Tərcümeyi-halı ilə tanış ola bilərsiniz: "Tarixu-Bağdad": 1/199; "Ət-Tarixul-kəbir": 8/162; "Əl-Cərh vət-tədil": 9/22; "Siyəru-əlamin-nubəla": 3/202; "Əl-Kaşif": 3/233; "Əl-İstiab": 4/1562 və s.

[104] "Tarixu-Bağdad":1/199.

[105] "Siyəru-əlamin-nubəla": 3/202.

[106] "İstiab": 4/1561.

sözündən də başa düşmək olur). Camaat arasında belə şeylər tez-tez baş verir. İnsanlar qəfildən bir şey eşidəndə onun baş verməsini uzaq hesab edirlər. Sonra aldıqları xəbərin doğru olduğunu bildikdə, onu qəbul edirlər. Əhli-sünnə alimləri Ömər ibn Xəttab və bir çox digər səhabələr barəsində Peyğəmbərin vəfat xəbəri onlara çatdığı vaxt eyni şəkildə reaksiya verdiklərini nəql etmişlər.

Məsələn, Buxari "Səhih" kitabında öz sənədi ilə Aişədən belə nəql etmişdir:

"Ömər belə deyə-deyə ayağa qalxdı: "Allaha and olsun Muhəmməd ölməyib!" Ömər (sonradan) belə deyirdi: Allaha and olsun, (o an) ürəyimə ancaq bu gəlirdi: Allah onu yenidən diriləcək, o da camaatın əllərini və ayaqlarını kəsəcək..."[107]

İbn Hibban öz sənədi ilə Ənəs ibn Malikdən belə nəql edir ki, Allah elçisi vəfat etdikdə, Ömər ibn Xəttab xütbə edərək, belə dedi: Kimsənin "Muhəmməd öldü" dediyini eşitməyim. Muhəmməd ölməyib. Sadəcə olaraq, Allah Musanı (söhbət üçün müvəqqəti olaraq) çağırdığı və o, öz ümmətindən qırx gün ayrı qaldığı kimi, Muhəmmədi də çağırıb (o da bir müddətdən sonra qayıdacaq).

Zuhri deyir: Mənə Səid ibn Müseyyib Ömərdən belə nəql etdi: Ömər xütbə edib belə dedi: Mən Allah rəsulunun onun öldüyünü iddia edən şəxslərin əllərini və ayaqlarını kəsəcəyinə ümid edirəm.[108]

İbn Macə isə bir hədisdə Aişədən belə nəql edir: ...Həmin vaxt Ömər məscidin bir tərəfində dayanıb belə deyirdi: Allaha and olsun ki, Muhəmməd ölməyib. O, çoxlu münafiqin əl və ayaqlarını kəsmədən ölməyəcək.[109]

---

[107] "Səhihul-Buxari": 3/1128, hədis: 3667; "Əs-Sünənül-kubra" (Beyhəqi): 8/142.

[108] "Səhihu-İbn Hibban": 14/588.

[109] "Sünənü-İbn Macə": 1/520.

Həmçinin, Əhməd "Müsnəd" kitabında Aişədən belə nəql edir: (Peyğəmbər vəfat etdiyi vaxt) Ömər və Müğeyrə ibn Şubə (yanıma) gəlib icazə istədilər. Mən də örtüyü çəkib icazə verdim. Ömər dedi: "Bu necə ürəkgetmədir! Allah rəsulunun ürəkgetməsi necə də şiddətlidir". Sonra qalxdılar. Qapıya yaxınlaşdıqlarında, Müğeyrə dedi: "Ey Ömər, Allah rəsulu vəfat edib". Ömər dedi: "Yalan deyirsən, sən fitnəyə düçar olmuş adamsan; Allah münafiqləri məhv etməyincə, Allah rəsulu ölməyəcək".

Sonra Əbu Bəkr gəldi. Mən örtüyü qaldırdım. Əbu Bəkr dedi: "Biz Allahdanıq və Ona tərəf qayıdacağıq". Allah rəsulu vəfat etmişdir...

Bunu deyib məscidə getdi. Bu zaman Ömər camaata xütbə edib deyirdi: "Allah münafiqləri məhv etməyincə, Allah rəsulu ölməyəcək". Əbu Bəkr söhbətə girişib Allaha həmd-səna edərək dedi: "Allah-taala buyurur: "**(Ey elçim,) sən də öləcəksən, onlar da öləcəklər**".[110]

Başqa bir rəvayətdə isə belə deyilir: Əbu Bəkr Ömərə tərəf əyilib, ağlaya-ağlaya onu öpməyə başladı və belə dedi: Xəttabın oğlunun dediyi boşdur. Canımın sahibinə and olsun ki, Allah rəsulu vəfat edib.

Başqa bir rəvayətdə isə belə deyilir: Ömər ibn Xəttab xütbə edərək, "öldü" sözünü işlədənləri kəsib-öldürməklə təhdid edirdi. O, camaata belə deyirdi: "Allah rəsulunun ürəyi gedib. Ayağa qalxsa, kəsib-öldürəcək".[111]

Həmçinin İbn Səd "Təbəqat" kitabında Əbu Sələmə ibn Əbdürrəhmandan belə nəql edir: "Peyğəmbər vəfat edincə, camaat onu görmək üçün Aişənin evinə tökülüşdülər. Onlar dedilər: "O bizim üstümüzdə, biz də digər insanların üstündə şahid ola-ola Peyğəmbər necə ölə bilər? O insanlar(ın hamısı) üzərində aşkar üstün olmadan necə ölə bilər? Yox, vallah! O, ölməyib! Sadəcə olaraq, İsa ibn Məryəm kimi səmaya qaldırılıb və mütləq qayıdacaq".

---

[110] "Müsnədü-Əhməd": 6/219; "Məcməuz-zəvaid": 9/32; "Müsnədü-İshaq ibn Rahəveyh": 3/991; "Ət-Tabaqatul-kubra": 2/267; "Əl-Bidayə vən-nihayə": 5/212.

[111] "Əl-Bidayətu vən-nihayə": 5/213.

Onlar "Peyğəmbər ölüb" deyənləri təhdid etdilər, Aişənin otağında və o cümlədən qapının ağzında, "Peyğəmbəri dəfn etməyin, o ölməyib!", - deyə qışqırmağa başladılar".

Bu rəvayət açıqca bildirir ki, səhabələrin bir çoxu hətta öz gözləri ilə gördükləri halda Peyğəmbərin vəfatını inkar edibmişlər.

İbn Həcər "Fəthul-Bari" kitabında bir qədər əvvəl Buxaridən nəql etdiyimiz rəvayətə şərh verərkən belə deyir: "...Ürvədən belə nəql olunur ki, Əbu Bəkr "**(Ey Peyğəmbər) sən də öləcəksən, onlar da öləcəklər**" ayəsini oxuyur, camaat isə ona fikir vermirdilər.

Səhabələrin əksəriyyəti Əbu Bəkrdən fərqli düşünürdülər.

Bundan bu nəticə alınır ki, daha az sayda olan dəstə ictihadda daha doğru qərar verə, sayca çox olan dəstə isə yanlış qərar verə bilər. Buna əsasən, bu kimi mövzularda say çoxluğuna baxılmaz; xüsusən də əgər o çoxluqda olan şəxslərin bir-birlərinə baxıb (bir-birlərini təqlid edib) eyni qərara gəldikləri aydın olarsa".[112]

Qısası, Abdullah ibn Vəhb Səbainin və ya Vəhb ibn Abdullah Səvainin Əmirəlmömininin ölümünü uzaq hesab etməsi, qeyri-adi bir şey deyil. Xüsusən də nəzərə aldıqda ki, xəbər gətirən şəxs Əmirəlmömininin öldüyünü deyil, yaralandığını xəbər vermişdi.

Amma Ömər və digərlərinin etdikləri isə bir qədər fərqlidir. Belə ki, onlara həzrət Peyğəmbərin vəfat etdiyi xəbəri çatmış, onlar onun pak bədənini yatağın üzərində cansız görmüş, həmçinin bundan qabaq Peyğəmbəri-Əkrəm xəstəliyindən şikayət edərək, öz əcəlinin yaxınlaşdığını onlara xəbər vermiş, onlara öz vəsiyyətlərini çatdırmışdı... bütün bunlara baxmayaraq, onlar onun ölümünü inkar edərək, məlum şəkildə davranmışdılar.

---

[112] "Fəthul-Bari": 8/120.

Bu deyilənlərdən aydın olur ki, Abdullah ibn Vəhb Rasibi Abdullah ibn Səbə deyil. Çünki bu iki şəxs barəsində nəql edilən rəvayət və xəbərlər onların eyni deyil, fərqli şəxslər olduqlarına dəlalət edirlər.

## YEDDİNCİ FƏSİL

## "İbn səbə" səhabə Əmmar ibn Yasirdirmi?

Doktor Əli Vardi və digərləri Abdullah ibn Səbənin böyük səhabə Əmmar ibn Yasir olduğunu iddia etmişlər. Doktor bu fikrinə dəlil kimi aşağıdakıları göstəmişdir:

1. İbn Səbəyə "İbn Səvda" deyilirdi. Əmmara da həmçinin "İbn Səvda" deyilmişdir.

2. Əmmarın atası yəmənli idi. Bu isə o mənaya gəlir ki, o, Səbənin övladlarından olmuşdur. Bütün yəmənlilərə "ibn Səbə" deyilə bilər. Çünki Yəmən camaatının nəsəbi hamılıqla Səbə ibn Yəşcəb Qəhtana dayanır. Quranda Hudhudun Süleyman peyğəmbərə belə dediyi nəql olunur: "**O, Səbədən gəlmişdir**". Səbədən gəlmişdir deyərkən Yəməni nəzərdə tutur (Nəml, 22; Səbə: 14).

3. Hər şeydən önəmlisi Əmmar Əli ibn Əbu Talibə möhkəm məhəbbət bəsləyir, ona tərəf dəvət edir, camaatı hər yolla ona beyət etməyə təhrik edirdi.

4. Əmmar Osmanin zamanında Misirə getmiş, camaatı təhrik etməyə başlamış, Misir valisi də bundan narahat olaraq, onu həbs etmək istəmişdir... Bu xəbər İbn Səbə barəsində nəql olunan, onun Misirə yerləşməsini, Fustatı özünə mərkəz seçməsini və öz adamlarını oradan başqa yerlərə göndərməsini bildirən xəbərlərə uyğun gəlir.

5. İbn Səbənin belə dediyi nəql olunmuşdur: "Osman xilafəti haqsız yerə alıb, onun qanuni sahibi Əli ibn ƏbuTalibdir". Faktiki olaraq, bu, elə Əmmar ibn Yasirin sözüdür. Osmana beyət edildikdən sonra, bir gün onun məsciddə belə qışqırdığı nəql edilir: "Ey Qüreyş camaatı! Siz ki, xilafəti iki dəfə Peyğəmbərinizin ailəsindən uzaqlaşdırdınız, mən Allahın da onu – siz onu sahiblərinin əlindən alıb başqasına verdiyiniz kimi – sizin əlinizdən alıb başqalarına verməyəcəyindən əmin deyiləm".

6. Deyilənlərə görə, Bəsrə döyüşündən sonra Əli ilə Aişə arasında sülh səylərinin baş tutmasına mane olan şəxs İbn Səbə olmuşdur. Əgər o olmasaydı, sülh baş tutacaqdı. Digər tərəfdən, Bəsrə hadisələrini təfsilatlı şəkildə araşdırdıqda, Əmmarın burada fəal rol oynadığını görürük. Belə ki, Həsən və Malik ə-Əştərlə birgə Kufəyə gedib camaatı Əliyə qoşulmağa təşviq edən məhz odur. Habelə, Əmmarın döyüşdə Əlinin yanında dayanması Zübeyrin peşiman olaraq, geri dönməsinin səbəblərindən biridir.

7. Deyilənə görə, Əbuzəri "sosialist" fikirlərini yaymaq məsələsində hərəkət gətirən şəxs məhz İbn Səbə olmuşdur. Əgər biz Əmmarın Əbuzərlə əlaqəsinə nəzər salsaq, bu əlaqənin çox möhkəm olduğunu görərik. Belə ki, onların hər ikisi eyni məktəbdən – Əli ibn Əbu Talib məktəbindəndirlər. Bu üç şəxs toplaşıb br araya gələr, öz aralarında məsləhətləşər, bir-birlərindən yardım alardılar.

Bu deyilənlərdən belə nəticə alırıq ki, Abdullah ibn Səbə Əmmar ibn Yasirdən başqası olmamışdır. Qüreyş Əmmarı Osmana qarşı qaldırılan qiyamın başçısı hesab edirdi. Amma əvvəldə onun adını açıqca çəkmək istəmirdi, buna görə də onu rəmzlə "İbn Səbə" və ya "İbn Səvda" adlandırırdı. Sonradan gələn ravilər də pərdə arxasında baş verənlərdən xəbərsiz bu adı olduğu kimi nəql etməyə başlamış və sonda ortaya belə bir nəticə çıxmışdır[113].

Doktor Kamil Mustafa Şeybi də "əs-Silətu beynət-tasavvufi vət-təşəyyu" kitabında bu fikiri dəstəkləyərək, belə demişdir:

"Bu dəlillər qaneedici və məntiqidirlər. Lakin onlar Əmmar ibn Yasirin "İbn Səvda" və "İbn Səbə" adlandırıldığını sübut edən mətnlərə - sənədlərə möhtacdırlar.

---

[113] "Vuaazus-salatin": səh.274-278 ("Əs-Silə beynət-tasavvuf vət-təşəyyu" kitabından nəqlən: 1/36).

Əmmar ibn Yasirin İbn Səvda adlandırılmasına gəlincə, qədim şiə təfsir kitabının müəllifi Əli ibn İbrahim Qumminin Hucurat surəsinin 17-ci ayəsinin (“**İslamı qəbul etdiklərinə görə sənə minnət edirlər**”) təfsirində nəql etdiyi bir rəvayətdə belə deyilir:

Bu ayə Xəndək günündə Əskən ibn Müaviyə barəsində nazil olmuşdur. Həmin gün Əskən xəndək qazan Əmmarın yanından keçəndə - bu vaxt xəndəkdən toz qalxmış olur – paltarının qolu ilə burnunu tutur. Bunu görən Əmmar belə bir şer oxuyur:

*İçində rükü və səcdə edilən məscidlər inşa edənlər ilə*
*Özünü toz-torpaqdan uzaq tutub, tozdan qaçanlar bir deyillər*

Əskən ona tərəf dönüb deyir: “Məni nəzərdə tutursan, ey İbn Səvda (qara qadının oğlu)?”

Sonra Peyğəmbərin yanına gəlib dedi: “Biz İslamı namusumuz söyülsün deyə qəbul etməmişik”.

Peyğəmbər də dedi: “Səni İslamdan azad etdim (çıxardım). Di get”[114].

Əmmarın “İbn Səbə” olmasına gəlincə isə, İbn Sədin “Tabaqat” kitabında onun tərcümeyi-halında belə qeyd olunur:

“Əmmar ibn Yasir ibn Malik ibn Auf ibn Harisə ibn Amir ibn Yam ibn Ənəs ibn Malik ibn Ədəd ibn Zeyd ibn Yəşcəb ibn Ğərib ibn Zeyd ibn Kəhlan ibn Səbə ibn Yəşcəb ibn Yərab ibn Qəhtan”.

...Əmmarın “Abdullah” olmasına gəlincə isə, bütün müsəlman kişilər əslində “Abdullah” – “Allahın qulu”-durlar. Bu, onların hamısı üçün keçərli olan ümumi ləqəbdir. Əvvəllər bütün xəlifə və ya başçılardan gedən və ya onlara gələn məktublar “Abdullah filankəsdən” və ya “Abdullah filankəsə” sözləri ilə başlayardı. Məsələn, Əli Səqifədə özünü Abdullah adlandırmış, Mənsur özünü belə adlandırmış, Muhəmməd ibn Abdullah ibn Həsən,

[114] “Təfsiru-Əli ibn İbrahim”: 2/322.

Əbdülməlik ibn Mərvan və digərləri özlərini bu adla adlandırmışlar. Əmmarın bu adla adlandırılması onun “İbn Səvda” adı ilə adlandırılması kimidir; bununla işarə və eham nəzərdə tutulmuşdur.

...Bütün bunlara doktor Vərdinin diqqət yetirmədiyi başqa bir dəlil də əlavə olunmalıdır. Belə ki, Təbəri Cəməl döyüşündən danışarkən Əlinin tərəfdarlarından söz açmışdır. Bu zaman onların adlarını sadalayarkən Əmmarın adını qeyd etdiyi vaxt İbn Səvdanın adını qeyd etməmiş, İbn Səvdanın adını qeyd etdiyi vaxt da Əmmarın adını qeyd etməmişdir. Bu isə öz növbəsində bu iki şəxsin eyni adam olması fikrini gücləndirən bir faktdır[115].

Başqa bir yerdə isə deyir:

Bu əsasla, səbəiyyə Əmmarın başçılıq etdiyi bir firqədir. Sadəcə, Qüreyş Əmmara məlum (Abdullah ibn Səbə) ləqəbi taxmış, sonra onun sözlərindəki qaneedici cəhət aradan getsin, fikirləri şəkk və batillik donuna bürünsün, insanlar ondan, onun fikirlərindən və onun Əlinin haqlığı və öz müasiri olan (Osmanın zamanında yaşayan) müsəlmanlardan üstünlüyü ilə bağlı fikirlərindən uzaqlaşsınlar deyə onun adından mübaliğələr və batil sözlər uydurmuşdular.[116]

Doktor Əli Nəşşarın da bu fikirə meylli olduğu görünür. Belə ki, deyir:

“Ola bilər, Abdullah ibn Səbənin şəxsiyyəti uydurma bir şəxsiyyət olsun, ya da onunla rəmzi şəkildə Əmmar ibn Yasirə işarə edilsin, yaxud da, Abdullah ibn Səbə adı sadəcə Əmmar ibn Yasir adını ört-basdır etmək üçün düzəldilmiş bir ad olsun.. .

Daha dəqiq bir məna ilə ifadə etsəm: böyük ehtimalla Abdullah ibn Səbə Əmmar ibn Yasir ola bilər. Böyük ehtimalla nasibilər Əmmarın əsla

---

[115] “Əs-Silətu beynət-təsəvvufi vət-təşəyyu”: 1/36-37.

[116] Həmin mənbə: 1/89.

xəbəri olmadığı və əsla dilinə gətirmədiyi o məlum fikirləri yalandan Əmmarın adına nisbət vermişlər[117].

**Deyirəm:** Mən özüm Nəcəfül-Əşrəf elm hövzəsindəki böyük şəxsiyyətlərdən birinin bu fikiri qəbul etdiyinin və nəyə görə Əmmar ibn Yasirə öz adı ilə deyil Abdullah ibn Səbə adı ilə işarə edildiyinin izahını verdiyinin şahidi olmuşam.

O bunu belə izah edirdi ki, Əmmarın çoxlu fəzilət və üstünülkləri var idi. Onu tərif edib öyən məzmunda çoxlu hədislər nəql olunmuşdu.

Belə hədislərdən biri Peyğəməri-Əkrəmin buyurduğu “Əmmar başdan ayağa kimi imanla doludur” sözü idi.

Digəri isə bu söz idi: Cənnət üç nəfərə müştaqdır: Əli, Əmmar və Salmana”.

Digəri isə bu söz idi: “Əmmarı azğın tayfa öldürəcək”.

Bundan əlavə, Əmmar İslamı ilk qəbul edən və İslam yolunda işkəncəyə məruz qalan ilk şəxslərdən idi. O, İslamın ilk şəhidləri olan Yasir və Süməyyanın övladıydı.

Bu və digər fəzilətlər Əmmara ali bir məqam qazandırmış, belə demək mümkünsə onu xoşagəlməz sözlərdən sığortalamışdı.

Lakin hakim təbəqənin yaxınları Osman ibn Əffana qarşı tutduğu mövqeyinə görə Əmmarı sevmir, ona düşmənçilik bəsləyirdilər.

Üstəlik, Əmmar Əmirəlmömininin ən yaxın adamlarından, onun fəzilətlərini açıqca yayanlardan, ona hər cür yardım və köməyi əsirgəməyən şəxslərdən idi.

Bütün bu və digər faktlar sonradan gələn tarixçiləri bir dilemma qarşısında qoymuşdu: o dövrün hadisələrini qeyd edərkən, ya Əmmarın adını çəkməli və ona tənə vurmalı idilər, ya da ona tənə vurmaqdan qaçmaqdan ötrü Əmmarın rolunu görməzdən gəlməli idilər. Lakin bu

---

[117] “Nəşətul-fikril-fəlsəfi fil-islami”: 2/27 (“Abdullah ibn Səbə” (əl-Əvdə) kitabından nəqlən, səh.83).

sonuncu, hadisələrin xronologiyasında mühüm bir amilin diqqətdən kənar qalması demək idi.

Buna görə də, bir tərəfdə hadisələr arasında boşluq yaranmasın, digər tərəfdən də İslamı ilk qəbul edənlərdən olan böyük bir səhabəyə tənə vurulmasın deyə, “Abdullah ibn Səbə” adını düzəltməli oldular.

**Lakin mən deyirəm**: bu deyilənlər öz-özlüyündə mümkün olsalar da, ehtimaldan başqa bir şey deyillər; onları sübut edən heç bir dəlil yoxdur, hətta əksinə, dəlillər bunun əksini göstərir.

Belə ki:

1. Bu cür ehtimallara yalnız o vaxt baş vurula bilər ki, Abdullah ibn Səbənin fitnə hadisələrində rolu olduğundan bəhs edən rəvayətlər səhih və sabit olsunlar. Bu rəvayətlər səhih və mötəbər olmadıqdan, əksinə uydurma və xəyal məhsulu olduqdan sonra, onları hansısa başqa rəvayətlərlə tutuşdurmaq və ya hansısa bir formada izah etməyə çalışmaq mənasız bir iş olur. Çünki bu rəvayətlər zatən uydurmadır.

2. Tarixçilər Peyğəmbər səhabələri arasında baş verən bir çox hadisə və olayları səhabələrdən hansısa birini – hətta Əmmardan daha üstün hesab etdikləri Əbu Bəkr, Ömər və s. səhabələri belə – qorumaqdan ötrü onların dedikləri bir sözü və ya etdikləri hərəkəti gizlətmədən nəql etmişlər. Elə isə Əmmarın “etdiklərini” niyə gizlətməli idilər?

Əmmarın müxalif tarixçilər yanında elə bir xüsusiyyəti yoxdur ki, onlar ona yaxından və ya uzaqda tənə gətirən hər hansı bir şeyi nəql etməkdən çəkinsinlər. Xüsusən də nəzərə almaq lazımdır ki, onlar bütün səhabələrə bir növ tənə və tənqiddən “toxunulmazlıq” vermişlər. Belə ki, səhabə hətta böyük və ağır cinayət və günahlara bulaşsa belə, onlar ona tənqid və ya tənə demirlər. Deməli, Əmmarın “etdiklərini” gizlətməkdən ötrü heç bir səbəb yox idi.

3. Tarixçilər o dövrdə Əmmarın nə etdiyini qeyd etmiş, onun Osman ibn Əffana qarşı necə bir mövqe tutduğunu bəyan etmişlər. Belə olunca, buna

bənzər hadisələri başqa bir adama – Abdullah ibn Səbəyə nisbət verməyin heç bir anlamı qalmır. Çünki belə bir şey Əmmarı "təmizə çıxarmayacaq".

4. Tarixçilər Abdullah ibn Səbənin yəhudi olduğunu, sonra Osmanın xilafəti zamanında İslamı qəbul etdiyini yazmışlar. Əmmar isə Islami ilk qəbul edən şəxslərdən olmuşdur. Elə isə bu iki şey necə bir araya gələ bilər?

5. Tarixçilər qeyd etmişlər ki, Əmirəlmöminin Abdullah ibn Səbədən tövbə etməsini tələb etmiş, o, imtina etmiş, belə olunca da Əmirəlmöminin onu yandırmışdır. Yaxud, digər rəvayətə görə, Əmirəlmöminin onu Mədainə sürgün etmiş, o da Əmirəlmöminin şəhid olanadək, orada qalmışdır. Halbuki, bunların heç biri Əmmara uyğun gəlmir. Çünki yüzdə yüz məlumdur ki, Əmmar Siffində şəhid olmuşdur.

6. Tarixçilər İbn Səbənin Əmirəlmöminin barəsində ifrata varıb onu ilahlaşdıran bir şəxs olduğunu yazmışlar.

Onun Əmirəlmömininin ölüm xəbərini alınca belə dediyini nəql etmişlər: "O, ölməyib. Sadəcə Musa peyğəmbər kimi qeybə çəkilib. Qayıdacaq və yer üzündə hökmranlıq edəcək. Ərəbləri əsa ilə qabağına qatıb sürəcək".

Əmmarın isə belə sözlər dediyi əsla nəql edilməmişdir və bu sözlər onun birbaşa Peyğəmbərdən və Əli ibn Əbu Talibdən aldığı doğru inanclarla uyğun gəlmir.

7. Tarixçilər İbn Səbənin öz etiqad və ifrat fikirlərini Əmirəlmömininin qətlə yetirilməsindən sonra yaymağa başladıqlarını yazmışlar. Bu isə Əmirəlmömininin sağlığında – Siffində şəhid olan Əmmara uyğun gəlmir.

8. Təbəri və başqaları qeyd etmişlər ki, Əmmarın özü İbn Səbənin toruna düşənlərdən və ona kömək edən şəxslərdən olmuşdur.

Təbərinin Seyf ibn Ömərdən nəql etdiyi uzun bir rəvayətdə belə deyilir:

“Osman Muhəmməd ibn Məsləməni yanına çağırıb onu Kufəyə göndərdi. Həmçinin, Üsamə ibn Zeydi Bəsrəyə, Əmmar ibn Yasiri Misirə, Abdullah ibn Öməri də Şama göndərdi. Həmçinin başqa şəxsləri başqa yerlərə göndərdi. Onların hamısı Əmmardan qabaq qayıdıb dedilər: “Ey camaat, biz pis bir şey görmədik. Müsəlmanlarin böyükləri və sadə şəxsləri də pis bir şey görməyiblər”. Camaat da dedi: “Elə isə müsəlmanlar necə istəyir, elə də olsun. Yalnız rəhbərlər adil davransınlar, ədalətlə rəftar etsinlər”. Lakin Əmmarın qayıtması yubandı. Camaat onun sui-qəsdə uğradığını zənn etdilər. Lakin birdən Abdullah ibn Səd ibn Əbu Sərhin məktubu gəldi. Məktubda deyilirdi ki, bir qrup misirli, o cümlədən Abdullah ibn Səvda, Xalid ibn Mülcəm, Səvdan ibn Həmran və Kinanə ibn Bişr Əmmarı öz tərəflərinə çəkiblər”.[118]

İbn Xəldun da öz kitabında belə yazır: “Osman Muhəmməd ibn Məsləməni Kufəyə, Üsamə bn Zeydi Bəsrəyə, Abdullah ibn Öməri Şama, başqalarını da başqa yerlərə göndərdi. Hamısı qayıdıb, “biz pis bir şey görmədik. Müsəlmanlarin böyükləri və sadə şəxsləri də pis bir şey görməyiblər”, - dedilər. Lakin Əmmar Misirdə yubandı. İbn Səvda və onun adamları: Xalid ibn Mülcəm, Səvdan ibn Həmran və Kinanə ibn Bişr onu öz tərəflərinə çəkmişdilər”.[119]

Belədirsə, onda Əmmarla Abdullah ibn Səbə necə eyni şəxs ola bilərlər?!

Bütün bu dəlillər Əmmar ibn Yasirlə Abdullah ibn Səbənin tamamilə ayrı şəxslər olduğuna dəlalət edirlər. Alimlərin bu iki şəxslə bağlı qeyd etdikləri oxşarlıqlardan onların mütləq eyni şəxs olduqları qənaəti əldə etmək olmaz, çünki qeyd etdiyimiz kimi, onlar arasında fərqli cəhətlər oxşar cəhətlərdən daha çoxdur. Qısası, bu fikir bir sıra oxşarlıqlardan qaynaqlanan və dəlilə əsaslanmaan bir iddiadır.

---

[118] “Tarixu-Təbəri”: 3/379.

[119] “Tarixu-İbn Xəldun”: c.2, hissə: 2/143.

## SƏKKİZİNCİ FƏSİL

## İmam Əli (Ə) Abdullah İbn Səbəni Mədainə sürgün edibmi?

Biz daha əvvəl Əmirəlmömininin Abdullah ibn Səbəni Kufədə yandırdığını və bununla da Abdullah ibn Səbənin işinin bitdiyini bildirən rəvayətləri nəql etmişdik. Əgər biz bu rəvayətləri səhih bilsək, onda İbn Səbənin Mədainə sürgün edilib=edilməməsi məsələsini araşdırmağa heç bir lüzum qalmayacaq.

Lakin bir sıra mənbələrdə Əmirəlmömininin Abdullah ibn Səbəni Mədainə sürgün etdiyi və onun da Əmirəlmömininin vəfatına qədər orada qaldığı deyildiyi üçün[120], bu məsələni dəqiqləşdirmək lazımdır.

Qyed edək ki, Abdullah ibn Səbənin Mədainə sürgün edilməsi məsələsi şiə mənbələrində nəql olunmamışdır. Bu məlumat yalnız sünni mənbələrində, özü də zəif sənədlərlə nəql olunmuşdur.

Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

İbn Həcər "Lisanul-mizan" kitabında belə nəql edir: "Əbu İshaq Şubədən, o, Sələmə ibn Kuheyldən, o, Əbuz-Zəradan, o da Zeyd ibn Vəhbdən belə nəql edir: "Əlinin xəlifəliyi zamanında Süveyd ibn Ğəflə Əlinin yanına gəlib dedi: "Mən Əbu Bəkr və Ömər barəsində pis sözlər danışan bir qrup adamla qarşılaşdım. Onlar deyirdilər ki, sən də daxilində o iki şəxs barəsində onlar kimi düşünürsən. Abdullah ibn Səbə də onların arasında idi. Bu sözləri deyən ən birinci şəs də elə o idi". Əli dedi: "Nədir bu qara xəbisin əlindən çəkdiyim. Qəlbimdə Əbu Bəkr və Ömərə qarşı yaxşılıqdan başqa bir şey bələməkdən Allaha sığınıram". Sonra Abdullah ibn Səbənin ardınca adam göndərdib, onu Mədainə sürgün etdirdi. Və belə dedi: "O, mənimlə eyni şəhərdə yaşaya bilməz". Sonra tez minbərə yollandı. Camaat toplaşdı. Əli Əbu Bəkr və Ömər barəsində tərifli sözlər dedi. Sözünün sonunda isə belə dedi: "Məlum olsun, əgər kiminsə məni

---

120 "Əl-Farqu beynəl-firəq": səh.234; "Əl-Fasl fil-miləl vəl-əhva vən-nihəl": 5/36.

onlardan üstün bildiyini eşitsəm, o adama iftira atdığına görə şəri cəza tətbiq edəcəyəm".[121]

Bu rəvayətin sənədində Əbuz-Zəra var. İbn Həcər "Təhzibut-təhzib" kitabında Bərqanidən onun Huciyyə ibn Ədiy Kindi olduğunu nəql etmişdir[122].

Lakin Əbuz-Zəra adı daşıyan cəmi üç nəfər şəxs var və Huciyyə ibn Ədiy Kindi bunların heç biri deyil.

**1. Abdullah ibn Hani Kindi və ya Əzdi Kufi:**

İbn Həcər onun barəsində "Təhzibut-təhzib" kitabında belə demişdir: "Ömər və İbn Məsuddan hədis nəql etmişdir. Ondan da bacısı oğlu Sələmə ibn Kuheyl hədis nəql etmişdir. Buxari demişdir: "Hədisinə tabe olunmaz".[123]

**2. Əmr ibn Əmr:**

İbn Malik ibn Nədlə Cəşmi Əbüzzəra Kufi. İbn Həcər onun barəsində "Təhzibut-təhzib" kitabında belə demişdir: "Əmisi Əbüləhvəs Auf ibn Malikdən, İkrimədən və Übeydulah ibn Abdullahdan hədis nəql etmişdir. Ondan da Səvri – Səvri onun adını Əmr ibn Amir kimi qeyd etmişdir –, İbn Üyeynə, Übeydə ibn Həmid... hədis nəql etmişlər. İbn Əbdülbərr demişdir: Alimlər onun siqə şəxs olması barəsində icma etmişlər".[124]

**3. Yəhya ibn Vəlid ibn Müseyyir Tai Əbuz-Zura Kufi:**

İbn Həcər onun barəsində "Təhzibut-təhzib" kitabında belə demişdir:

---

[121] "Lisanul-mizan": 3/290.

[122] "Təhzibut-təhzib": 2/190.

[123] "Təhzibut-təhzib": 6/56.

[124] "Təhzibut-təhzib": 8/72.

“Məhəl ibn Xəlifədən vəid ibn Ömər ibn Əşvədən hədis nəql etmiş, ondan da İbn Mehdi, İsam ibn Əmr, Yəhya ibn Mütəvəkkil Bahili, Zeyd ibn Hubab, Süveyd ibn Əmr və Əbu Asim hədis nəql etmişlər. Nəsai demişdir: “Onda bir problem yoxdur”. İbn Hibban da onu “əs-Suqat” kitabında (“siqə şəxslərin adlarının toplandığı kitab”) qeyd etmişdir”.[125]

Söhbət açdığımız rəvayətin sənədində Əbuz-Zurə adlı şəxsdən nəql edən şəxsin adının Sələmə ibn Kuheyl olduğunu görürük. Sələmə ibn Kuheyl isə yuxarıdakı üç Əbu-Zurə içərisində yalnız birinci şəxsdən hədis nəql etmişdir. Deməli, sənəddəki Əbuz-Zurə elə birinci şəxs – Abdullah ibn Hanidir. Onu isə İcli və İbn Hibban siqə bilsələr də, Buxari məzəmmət etmişdir. Əhli-sünnə nəzərində İcli və İbn Hibbanın sözü Buxarinin sözündən önə keçirilməz.

Buna əsasən, rəvayət zəifdir. Allah daha yaxşı bilər.

Digər bir rəvayət İbn Əsakirin “Tarixu-Diməşq” kitabında nəql etdiyi aşağıdakı rəvayətdir: “Bizə Əbu Bəkr Əhməd ibn Müzəffər ibn Hüseyn ibn Susən Təmmar nəql edib dedi: bizə Əbu Tahir Muhəmməd ibn Muhəmməd ibn Abdullah ibn Sənci nəql edib dedi: bizə Əbu Əli ibn Şazan nəql edib dedi: bizı Əbu Bəkr Muhəmməd ibn Cəfər ibn Muhəmməd Adəmi nəql edib dedi: bizə Əhməd ibn Musa Şətvi nəql edib dedi: bizə Əhmə ibn Abdullah ibn Yunis nəql edib dedi: bizə Əbüləhvəs Müğeyrədən, o da Səbatdan nəql edib dedi:

“Əliyə İbn Səvdanın Əbu Bəkr və Ömər barəsində pis sözlər danışdığı çatdı. Əli onu yanına çağırtdırdı, bir qılınc da gətizdirdi. Onu öldürmək istədi. Lakin xahiş etdilər, (vaz keçdi). Sonra belə dedi: “O mənimlə bir şəhərdə yaşaya bilməz”. Bundan sonra onu Mədainə sürgün etdi”.[126]

Bioqrafiya kitablarında rəvayəti nəql edən Sabat barəsində heç nə gəlməmişdir. Bəlkə də onun adı “Əsbat”dır. Lakin tabeilər arasında birbaşa

---

[125] “Təhzibut-təhzib”: 11/259.

[126] “Tarixu-Diməşq”: 29/9.

Əlidən və ya başqa bir səhabədən rəvayət nəql edən bu adda bir adam yoxdur. Bu adı daşıyanlar içərisində səhabə dövrünə ən yaxın ravi Əsbat ibn Nəsr Həmədani Kufidir. O da səhabə Cabir ibn Səmurədən bir vasitə ilə (Səmmak ibn Hərb vasitəsilə), səhabə Əbu Hüreyrədən iki vasitə ilə (Suddi və atası vasitəsilə), səhabə İbn Abbasdan da bir vasitə ilə (Suddi vasitəsilə) hədis nəql edir. Lakin vasitəsiz hədis nəql etdiyi bir səhabə yoxdur.

Bəlkə də Sabat (سباط) adı "Səmmak" (سماك) adının səhv yazılmış formasıdır. Səmak isə Səmmak ibn Hərbdir, hansı ki, Müğeyrə ibn Muqsim Dabbi ondan hədis nəql etmişdir. Səmmak bir çox səhabəni görmüşdür. Bəlkə də Əlini də görmüşdür. Lakin bir sıra bioqrafiya alimləri onun barəsində tənqidi fikirlər səsləndirmişlər, buna görə də onun rəvayətlərinə etmək olmaz[127].

Bundan başqa, rəvayətin sənədində Əbu Bəkr Muhəmməd ibn Cəfər ibn Muhəmməd Adəmi Qari adlı bir şəxs də var. Bu şəxs də bioqrafiya kitablarında siqə hesab edilməmişdir. Hətta əksinə, Muhəmməd ibn Əbülfəvaris onun barəsində "nəql etdiyi hədislərdə qarışdırmışdır", -demişdir[128].

---

[127] İbn Həcər "Təhzibut-təhzib" kitabında (4/204) belə demişdir (ixtisarla): "Əbu Talib Əhməddən belə nəql etmişdir: "Hədisləri müztəribdir". Həmçinin demişdir: Şubə onu zəif bilirdi. İbn Əmmar demişdir: Onun hədisləri qarışdırdığnı deyirlər və onun hədisləri barəsində ixtilaf edirlər. Icli demişdir: "...Şubə onu bir qədər zəif hesab edirdi". Yaqub ibn Əbu Şeybə demişdir: "İbn əl-Mədiniyə dedim: Səmmakın İkrimədən nəql etdiyi rəvayətlər necədir? Dedi: Müztəribdir.Zəkəriyya ibn Ədiy İbn əl-Mübarəkin belə dediyini nəql etmişdir: Səmmak hədis nəqlində zəifdir. Yaqub demişdir: "Onun sırf İkrimədən nəql etdiyi rəvayətlər müztəribdir. Qalan rəvayətlər isə yaxşıdır. Amma sabit şəxslərdən deyil..." Nəsai demişdir: Onda bir problem yoxdur, hədisində isəbir şey var. Saleh Cəzrə demişdir: Zəif hesab olunur. Ibn Xiraş demişdir: Hədislərində bir zəiflik var. Ibn Hibban demişdir: Çoxlu xətalar edir..."

[128] Bunu İbn Həcər "Lisanul-mizan" kitabında (5/108), Xətib Bağdadi də "Tarixu-Bağdad" kitabında (2/148) nəql etmişdir. Xətib əl-Bağdadi həmçinin bir məlumat qeyd etmişdir ki, bu məlumat açıq-aşkar şəkildə sözügedən şəxsin məzəmmətinə dəlalət

Üstəlik, bu rəvayəti Lalakai “Şərhu-usuli-itiqadi-əhlis-sünnə” kitabında Əbüləhvəsdən, o, Müğeyrədən, o da *Şəbbakdan* nəql etmişdir. Bu da əvvəlki rəvayətlə eynidir, sadəcə son cümlədə “Mədain” əvəzinə “Şam” sözü işlənmişdir.

Həmçinin, başqa bir rəvayətdə sənəd belədir: Əbüləhvəs Müğeyrədən, o, Şəbbakdan, o da İbrahimdən belə nəql edir: “Əliyə *Abdullah ibn Əsvədin* Əbu Bəkr və Ömər barəsində pis sözlər danışdığı xəbəri çatdı. Əli onu öldürmək istədi. Lakin ona edilər: “Siz Əhli-Beytin məhəbbətinə tərəf çağıran bir adamı öldürmək istəyirsən?” Əli dedi: “O mənimlə bir şəhərdə yaşaya bilməz”[129].

Bu rəvayətlərin sənədində adı keçən Şəbbak – Şəbbak Dabbi Kufi Əmadır. Əhməd, Nəsai, İbn Hibban, İbn Şahin, İbn Səd, Osman ibn Əbu Şeybə və başqaları onu siqə bilmiş, Hakim və Darəqutni isə onun“tədlis”çi olduğunu demişlər.

Bununla belə, rəvayət mürsəldir. Çünki Şəbbak Əlini görməmişdir. Həmçinin, ikinci rəvayətin sənədində adı keçən İbrahim – İbrahim Nəxəi – Əlini görməmişdir. (Çünki, İbrahim hicrətin 50-ci ilində dünyaya gəlib, Əli isə hicrətin 40-ci ilində şəhadətə çatıb[130]).

Üstəlik, birinci rəvayətdə Əmirəlmömininin Abdullah ibn Səbəni Şama sürgün etdiyi deyilsə də, ikinci rəvayətdə sadəcə onun Kufədə yaşamasına etiraz etdiyi, hər hansısa bir yerə sürgün etmədiyi bildirilir.

Qısası, bu rəvayət sənəd baxımından mürsəl olmaqla yanaşı, mətn və sənəd yönündən də müztəribdir; belə ki, o, gah Səbat, gah Şəbbak, gah da Şəbbak → İbrahim yolu ilə nəql edilmişdir. Həmçinin rəvayətlərin birində

---

edir. Belə ki, Xətibin məlumatına əsasən, sözügedən şəxs Quranı Allah üçün deyil, camaat və dünya üçün oxuyarmış!

[129] “Şərhu-usuli-itiqadi-əhlis-sünnə”: 7/1339.

[130] “Məşahiru-uləmail-əmsar”: səh.163, rəqəm: 748.

Əbüləhvəsdən nəql edən şəxs Əhməd ibn Abdullah ibn Yunisdir, digərində Əhməd ibn Yunisdir, digərində isə Əhməd ibn Əsəddir.

Həmçinin, rəvayətlərin birində sürügn olunan şəxsin "İbn Səvda" olduğu, digərində isə "Abdullah ibn Əsvəd" olduğu qeyd olunur.

Həmçinin, rəvayətlərin birində sürgün yerinin Mədain olduğu, digərində Şam olduğu, digərində isə heç bir yer olmadığı qeyd olunur.

Bununla belə, hətta rəvayətlərin hamısının Mədainə sürgünə dəlalət etdiyini qəbul etsək belə, daha əvvəl də dediyimiz kimi, İbn Səvdanın Abdullah ibn Səbə olduğunu demək mümkün deyil.

Digər bir rəvayət İbn Əsakirin nəql etdiyi aşağıdakı rəvayətdir: "Bizə Əbu Bəkr Muhəmməd ibn Tərxan ibn Bəltəkin ibn Yəckəm nəql edib dedi: bizə Əbülfəzail Muhəmməd ibn Əhməd ibn Əbdülbaqi ibn Tauq nəql edib dedi: Əbülqasim Übeydullah ibn Əli ibn Übeydullah Riqqi nəql edib dedi: bizə Əbu Əhməd Übeydullah ibn Muhəmməd ibn Əbu Müslim nəql edib dedi: izə Əbu Ömər Muhəmməd ibn Əbdülvahid nəql edib dedi: bizə Ğəttafi öz ravilərindən, onlar Sadiqdən, o öz pak ata-babalarından, onlar da Cabirdən nəql edib dedi:

"Əliyə beyət edildikdən sonra, Əli camaat üçün xütbə etdi. O əsnada Abdullah ibn Səbə ayağa qalxıb dedi: "Sən yerdən çıxan canlısan". Əli dedi: "Allahdan qorx". Dedi: "Sən hökmdarsan". Dedi: "Allahdan qorx". Dedi: "Sən məxluqatı yaradan, ruziləri bölüşdürənsən". Əli onun öldürülməsini əmr etdi. Lakin rafizilər toplaşıb dedilər: "Onu öldürmə, onu Mədainin Sabat məntqəsinə sürgün et. Əgər onu Mədinədə öldürsən, yoldaşları və tərəfdarları bizə qarşı çıxacaqlar". Əli də onu Mədainə sürgün etdi. Orada qəramitilər və rafizilər yaşayırdı.

Sonra on bir nəfərdən ibarət bir qrup şəxs – bunlar səbəiyyə idilər – qalxıb Abdullah ibn Səbənin arxasınca getdilər. Əli dedi: "Geri qayıdın. Mən Əli ibn Əbu Talibəm. Atam məşhurdur, anam məşhurdur. Mən

Peyğəmbərin əmisi oğluyam". Dedilər: "Qayıtmarıq, nə istəyirsən et". Əli də onları yandırdı. Qəbirləri də səhrada qaldı. On bir qəbir idi..."[131]

Rəvayətin sənədində Ğəttafi adlı şəxs var. Bu şəxs barəsində bioqrafiya kitablarında nə tərif, nə də tənqid gəlmişdir. Onun "raviləri"nin kim olduğu da bilinmir. Buna əsasən, rəvayət zəif sayılır və ona etimad etmək olmur.

Bu rəvayəti Lalakai "Şərhu-usuli-itiqadi-əhlis-sünnə" kitabında Əbu Ömər Zahid (Muhəmməd ibn Əbdülvahid – Sələbin qulamı) → Əttafi → şiələr yolu ilə nəql etmişdir[132].

Yenə həmin kitabda belə bir sənəd qeyd olunur: Əbu Ömər Zahid → Əttafi → raviləri.[133]

Həmçinin Bəkri bu rəvayəti "Mucəmu-məstu`cim" kitabında Əbu Ömər Zahid → Əttafi → raviləri sənədi ilə nəql etmişdir[134].

Əttafi adlı şəxs barəsində də bioqrafiya kitablarında heç bir məlumat gəlməmişdir. Belə görünür, bu şəxs Sələbin qulamının özündən uydurduğu bir şəxsdir. Bu cür nümunələr nə çoxdur.

Həmçinin, bu rəvayətin sənədində "Sələbin qulamı" adı ilə tanınan Əbu Ömər Muhəmməd ibn Əbdülvahid var. O, leksikolologiya elmi ilə məşhur olan bir şəxsdir. Lakin alimlər onu bu elmdə güvənilən hesab etməmişlər. Kiminsə onu hədis elmində güvənilən bildiyini də görməmişəm. Bircə Xətib Təbrizinin "Tarixu-Bağdad" kitabında dediyi "bütün şeyxlərin onu hədis nəqlində güvənilən bilir və sözünü təsdiq edirlər" sözü istisnadır. Lakin Xətib dediyinin təsdiqi üçün heç bir alimdən sitat nəql etməmişdir. Bu da öz növbəsində ümumi qəbul olunmuş qaydaya zidd bir işdir.

---

[131] "Tarixu-Diməşq": 29/9.

[132] "Şərhu-usuli-itiqadi-əhlis-sünnə": 4/758.

[133] Həmin mənbə: 4/759.

[134] "Mucəmu-məstu`cim": 2/705.

Zəhəbi Xətibin bu sözünü "Siyəru-əlamin-nubəla" kitabında[135], İbn Həcər də "Lisanul-mizan" kitabında[136] olduğu kimi nəql etmişlər. Bu isə onu göstərir ki, onlar Xətibin dediyindən başqa bu şəxsin güvənilən olmasına dəlalət edən heç bir söz (sitat) tapmamışlar.

Bunun müqabilində İbn Nüdeym "əl-Fihrist" kitabında belə demişdir: "Bir qrup alimin onu zəif hesab etdiyini eşitmişəm. Onun zeydi məzhəbindən olduğu deyilmişdir. Əliyə qarşı düşmənçilikdə son həddə olan bir şəxs olmuşdur"[137].

İbn Həcər isə belə deyir: "Xətib demişdir: Başçıların başçısı mənə belə dedi: Əbu Ömərə irad tutulan çoxlu şeylər görmüşəm. Onu elm imamlarının kitablarından yalandan hədis nəql etməkdə ittiham etmişlər".

Bundan başqa, əhli-sünnə alimləri onun Müaviyənin "fəzilətlərinə" dair bir kitab yazdığını qeyd etmişlər[138]. Deyilənə görə, öz yanına gələn böyük şəxslərə və ədiblərə yalnız bu kitabı onlar üçün oxuduqdan sonra hədis nəql edərmiş. Şübhəsiz ki, bu, onun Əliyə qarşı olan düşmənçilik və ədavətinin hansı həddə olduğunu göstəricisidir.

Digər tərəfdən, rəvayətin uydurma olduğuna dəlalət edən şeylərdən biri rəvayətin mətnində gələn "rafizilər" sözüdür. Çünki "rafizi" ("rədd edən, tərk edən") sözü müxaliflərin yanında yalnız Zeyd ibn Əlinin

---

135 "Siyəru-əlamin-nubəla": 15/511.

136 "Lisanul-mizan": 5/268.

137 "Əl-Fihrist": səh.113. İbn Nədimin bu sözü "Lisanul-mizan" kitabında (5/268) da nəql olunmuşdur.

138 İbn Həcər "Lisanul-mizan" kitabında (5/268) belə deyir:

"Onun Müaviyənin fəzilətləri barədə yazdığı kitabı görmüşəm. Orada çoxlu uydurma şeylər var idi. Lakin problem onda yox, onun hədis nəql etdiyi şəxslərdədir". Sitatın sonu.

Deyirəm: Xeyr, bəlkə də problem elə onun özündədir. Onun Müaviyənin "fəzilətlərinə" dair uydurma rəvayətlər nəql etməsi və Əliyə qarşı düşmənçilik bəsləməsi onun bütün rəvayətlərini zəif edir.

zamanında meydana çıxıb. Deyilənə görə, ondan Əbu Bəkr və Öməri söyməsi istənmiş, o, bunu rədd etmiş, bundan sonra həmin şəxslər onu tərk etmişlər, o da onları "rafizi" (tərk/rədd edən) adlandırmışdır.

İbn Teymiyyə deyir: "Rafizi sözü bir qrup şəxs Zeyd ibn Əli ibn Hüseyni rədd edib tərk etdikləri vaxt meydana çıxmışdır. Zeydin başına gələn bu hadisə 120-ci ildən sonra; 121 və ya 122-ci ildə; Hişamın xəlifəliyinin sonlarında baş vermişdir".[139]

Nəvəvi deyir: "Rafizi sözü "rafd", yəni tərk etmək sözündən düzəlmişdir. Əsməi və başqaları demişlər ki, rafizilər Zeyd ibn Əlini tərk etdikləri üçün rafizi (tərk edən) adlanmışlar".[140]

Munavi "Təvqif" kitabında deyir: "Rafd tərk etmək deməkdir. Rafizi sözü də buradan yaranmışdır. Zeyd ibn Əli bir dəstə şəxsi səhabələri söyməkdən çəkindirdiyi vaxt onlar onu tərk etmişlər. Onlar Zeydin fikrini bildikdən və onun iki şeyxdən bezarlıq etmədiyini gördükdə, onu rədd edib getmişlər. Sonradan bu ad bu məzhəbdə ifrata varan hər bir kəs barəsində işlədilməyə başlamışdır".[141]

Deyirəm: Zeyd ibn Əli fərqli nəzərlərə əsasən, 122-ci, 120-ci və ya 126-cı ildə qətlə yetirilmişdir[142]. Halbuki, rəvayətin ravisi Cabir ibn Abdullah fərqli fikirlərə görə, 77, 78 və ya 83-cü ildə vəfat etmişdir[143].

Cabirin bu rəvayəti ömrünün sonunda nəql etdiyini fərz etmiş olsaq, onda o, bu rəvayəti Zeydin qiyamından ən azı 30 il əvvəl nəql etmiş olacaq. Bu isə təbii ki, açıq-aşkar ziddiyyət deməkdir; çünki əhli-sünnəyə görə rafizi adı Zeydin qiyamından sonra ortaya çıxmışdır.

---

139 "Minhacus-sünnə": 1/8.

140 "Şərhun-Nəvəvi alə-səhihi-Müslim": 1/103.

141 "Ət-Təvqif əla muhimmatit-təarif": 2/369.

142 "Təhzibut-təhzib": 3/362; "Təhzibul-kəmal": 10/98.

143 "Siyəru-əlamin-nubəla": 3/192; "Təzkirətul-huffaz": 1/44; "Təhzibut-təhzib": 2/38; "Təhzibul-kamal": 4/453.

Digər bir rəvayət isə İbn Əbulhədidin "Şərhu-nəhcil-bəlağə" kitabında gəlmiş aşağıdakı rəvayətdir: "Əbülabbas, Muhəmməd ibn Süleyman ibn Həbib Məsisidən, o, Əli ibn Muhəmməd Nəvfəlidən, o, atasından, o da öz şeyxlərindən belə nəql etmişdir:

"Bir gün Əli Ramazan ayında gündüz vaxtı yemək yeyən bir dəstə şəxsin yanından keçdi. Onlara dedi: "Səfərdəsiniz, ya xəstəsiniz?" Dedilər: "Heç biri". Dedi: "Əhli-kitabdansınız?" Dedilər: "Xeyr". Dedi: "Onda Ramazan ayında gündüz vaxtı niyə yemək yeyirsiniz?" Dedilər: "Sən! Sən!" Bundan başqa bir şey demədilər. Əli onların nə demək istədiklərini başa düşdü. Atından enib üzünü torpağa sürtdü. Sonra dedi: "Vay olsun sizə! Mən yalnız Allah bəndələrindən biriyəm. Allahdan qorxun, İslama dönün". Onlar imtina etdilər. Əli onları dəfələrlə dönməyə çağırdı, lakin onlar israr etdilər. Əli onları buraxıb getdi.

Sonra (öz adamlarına) dedi: "Onları iplə bağlayın. Mənə işçi, odun və od gətirin". Sonra iki quyu qazılmasını əmr etdi. BiriniN torpağın altında, digərinin isə üstüaçıq edilməsini tapşırdı. Açıq quyuya odunları atdı. Sonra iki quyu arasında bir pəncərə açdı. Sonra oduna od vurub tüstünü onların üzərinə saldı. Onlara səslənərək belə deməyə başladı: "Islama qayıdın". Lakin onlar imtina etdilər. Belə olunca Əli odun və od gətirdib onların üzərinə atdı. Beləcə yandılar.

Onlar yanıb kül olana qədər Əli onların başı üstündə dayandı.

Əbülabbas deyir: "Əlinin əshabından olan bir qrup şəxs, o cümlədən Abdullah ibn Abbas xüsusi olaraq Abdullah ibn Səbə barədə xahiş edərək belə dedilər: "Ey möminlərin əmiri, o, tövbə edib, onu bağışla". Əli Kufədə qalmaması şərti ilə onu azad etdi. O dedi: "Hara gedim?" Dedi: "Mədainə". Beləliklə onu Mədainə sürgün etdi.

Lakin Əmirəlmöminin qətlə yetiriləndən sonra o öz əqidəsini meydana çıxardı. Onun dediklərini təsdiq edən və ardınca gedən bir firqə yarandı. Əlinin ölüm xəbəri ona çatanda, belə dedi: Allaha and olsun, əgər onun

beynini yetmiş kisəcikdə gətirsəniz belə, yenə də onun ölmədiyini biləcəyik. O, əsa ilə ərəbləri qabağına qatıb sürməyincə ölməyəcək.

Bu xəbər İbn Abbasa çatdıqda, belə dedi: Əgər onun qayıdacağını bilsəydik, qadınları ilə ailə qurmaz, mirasını bölməzdik.[144]

Bu rəvayət hər iki tərəfdən mürsəldir. Üstəlik, sənəddəki Əbülabbas əhli-sünnənin "həmmarul-əziz" (Əzizin eşşəkbaşısı – eşşəklərə nəzarə edən şəxsi) adlandırdığı Əhməd ibn Übeydullah ibn Əmmar Səqəfidir və bu şəxs əhli-sünnə alimlərinin nəzərində zəif şəxsdir.

İbn Həcər "Lisanul-mizan" kitabında onun barəsində belə demişdir: "Şiələrin rəhbərlərindəndir... Onun qədəri olduğu da deyilmişdir... Əli ibn Übeydullah ibn Müseyyib Katib belə demişdir: "Böyük şəxslərə çox dil uzadardı". İbn Nüdeym "əl-Fihrist" kitabında onun bir neçə kitabının adını qeyd etmişdir. Onlardan biri də "Müaviyənin rəzillikləri"dir".[145]

Abdullah ibn Səbənin Mədainə sürgün olunması məsələsi barədə əldə etdiyimiz rəvayətlər bunlar idi. Bu rəvayətlər gördüyümüz kimi, on iki imam şiələri yolu ilə nəql edilməmişdir. Və onlar ya mürsəl olduqları, ya da ravilərindən bəziləri zəif olduğu üçün əhli-sünnə nəzərində zəifdirdirlər. Bu rəvayətlər Abdullah ibn Səbənin Mədainə sürgün olunması bir yana, heç onun varlığını belə sübut etmək üçün yetərli deyil.

---

[144] "Şərhu-İbn Əbil-Hədid": 5/6.

[145] "Lisanul-mizan": 1/219.

# DOQQUZUNCU FƏSİL

## İbn səbə yəhudi olub?

## Görəsən, fitnə hadisələrində iştirak edibmi?

Bura qədər deyilənlərdən aydın olur ki, Abdullah ibn Səbənin yəhudi olmasına, həmçinin fitnə hadisələrində iştirak etməsinə, camaatı Osmanın əleyhinə qaldırmasına, onun qətlində iştirak etməsinə və ya bu işdə bir rolu olmasına dəlalət edən bircə dənə də olsun səhih dəlil yoxdur. Bütün bu deyilənlər yalnız Seyf ibn Ömərin rəvayətlərində gəlmişdir, onun rəvayətləri də dəfələrlə qeyd etdiyimiz kimi zəif və qeyri-mötəbərdir.

Fikrimizcə, aşağıda mətləbləri qeyd etdikdən sonra yuxarıda qeyd etdiyimiz fikrin doğruluğu daha da aydınlaşacaq:

**Birinci:** Əhli-sünnə mənbələrində (məsələn, "Tarixu-Təbəri", "Tarixu-Diməşq", "Tarixul-İslam", "əl-Bidayə vən-nihayə" və s.) nəql olunub, yəhudi Abdullah ibn Səbədən söz açan bütün rəvayətlər Seyf ibn Ömər Təmimiyə çatır.

Seyf ibn Ömər, daha əvvəl də dediyimiz kimi, çox zəifdir; bioqrafiya alimləri yekdilliklə onun zəif olduğnu demişlər.

Üstəlik, rəvayətləri Seyfdən nəql edən şəxs Şüeyb ibn İbrahim adlı bir şəxsdir. O da həmçinin, bioqrafiya kitablarında güvənilən hesab edilməmişdir.

İbn Ədiy "əl-Kamil" kitabında belə deyir: "Şüeyb ibn İbrahim: bir sıra hədis və rəvayətlər nəql etmişdir. O qədər də məşhur deyil. Nəql etdiyi hədis və rəvayətlərin sayı çox deyil. Nəql etdiyi hədis və rəvayətlər içərisində bir sıra münkər rəvayətlər var, çünki onun bir sıra hədis və rəvayətlərində sələfə qarşı cürətkarlıq var".[146]

---

[146] "əL-Kamil fi duəfair-rical": 5/7.

Zəhəbi "Mizanul-itidal" kitabında belə demişdir: "Şüeyb ibn İbrahim Kufi: Seyfin kitablarını nəql edən şəxsdir. Barəsində məlumat yoxdur".[147]

Əgər Abdullah ibn Səbədən bəhs edən rəvayətlərin raviləri bunlardırsa, onda onlara necə etimad etdib güvənmək olar?!

**İkinci:** Seyf ibn Ömər hədis nəqlində zəif olmaqla yanaşı, özündən şəxsiyyətlər, ravilər və hadisələr uydurmağa və onları real tarixi hadisələrin arasına atmağa həris bir şəxs olmuşdur.

Məsələn, aşağıdakı misala diqqət yetirin:

Təbəri öz sənədi ilə Seyfdən belə nəql edir ki, Zatus-səlasil döyüşü və Ubullənin fəthi Əbu Bəkrin zamanında Xalid ibn Vəlidin başçılığı ilə olub. Seyfə görə, Xalid Kazimə məntəqəsinə gəlir. Hörmüz öz adamları ilə sulu ərazi olan Zatus-səlasil məntəqəsində, Xalid də susuz bir yerdə düşərgə salır.. Sonra döyüşürlər. Allah müsəlmanların olduğu hissəyə yağış göndərir və bununla onları gücləndirir... Xülasə, bir müddət sonra farslar məğlub olurlar. Xalid Zirr ibn Kuleybi bir fil ilə birlikdə əldə edilmiş mallar və xümslərlə Mədinəyə göndərir. Camaat fili görsün deyə, fili Mədinədə dolaşdırırlar. Bu vaxt imanı zəif qadınlar belə deməyə başlayırlar: "Bu gördüyümüz Allahın yaratdıqlarındandır?" Belə olunca, Əbu Bəkr fili Zirr ilə geri qaytarır.[148]

Təbəri deyir: "Ubullə və onun fəthi barədə nəql olunan bu əhvalat tarixçilər yanında bilinən və səhih rəvayətlərdə gələn məlumatlara ziddir. Ubullənin fəthi məhz Ömərin vaxında, 14-cü ildə, Ütbə ibn Ğəzvanın başçılığı ilə olmuşdur".[149]

Gördüyünüz kimi, bu adam özündən faktlar uydurub. Özündən tamamilə yeni bir döyüş, yeni qəhrəmanlar, olmamış hadisələr, fəthlər, qənimətlər və s. qondarıb.

---

[147] Mizanul-itidal » : 3/377.

[148] "Tarixut-Təbəri": 2/308 və sonrası.

[149] Həmin mənbə: 2/311.

Əgər biz Seyfin bu hadisəni nəql etdiyi şəxslərə baxsaq, onların aşağıdakılardan ibarət olduğunu görərik: “Muhəmməd ibn Nüveyrə[150], Hənzələ ibn Ziyad ibn Hənzələ[151], Əbdürrəhman ibn Siyah Əhməri[152], Təlhə ibn Ələm[153] və Məhləb ibn Ütbə Əsədi[154].

Bu şəxslərin heç biri barədə bioqrafiya, tarix və ya başqa kitablarda məlumat gəlməyib. Onların heç biri Seyfin onlara nisbət verdiyi bu rəvayətlərdən başqa rəvayət “nəql etməmişlər”. Bu onu göstərir ki, bu şəxslər də Seyfin uydurduğu şəxslərdəndir[155].

Seyfin rəvayətlərinin vəziyyəti bax belədir.

Abdullah ibn Səbənin yəhudiliyi və fitnə hadisələrində iştirakı da onun özündən qondardığı şeylərdəndir. Çünki bu məsələlər Seyfdən başqası yolu ilə nəql edilməmişlər.

**Üçüncü:** Seyf ibn Ömərdən qabaq yaşamış, habelə onunla eyni dövrdə yaşamış tarixçi və ravilər öz hədis və rəvayətlərində Seyf ibn Ömərdən söz açmamış, fitnə hadisələri vaxtı onun hər hansı bir rolunu qeyd etməmişlər.

Doktor Əbdüləziz Həllabi deyir: “Ürvə ibn Zübeyr (vəf.94), Muhəmməd ibn Müslim ibn Şihab Zuhri (vəf.124), İbn İshaq (vəf.150), Vaqidi (vəf.207), Xəlifə ibn Xəyyat (vəf.240), İbn Səd (vəf.230), İbn Həkəm (vəf.257), Əbu Hənifə Dinəvəri (vəf.282), Kindi (vəf.283), Yaqubi (vəf.292), Məsudi

---

150 Seyf ibn Ömər “Tarixut-Təbəri” kitabında ondan rəvayət nəql edib: 2/310, 311, 369, 423; 3/12, 54.

151 Seyf ibn Ömər “Tarixut-Təbəri” kitabında ondan rəvayət nəql edib: 2/310, 311.

152 Seyf ibn Ömər “Tarixut-Təbəri” kitabında ondan rəvayət nəql edib: 2/311, 312.

153 Seyf ibn Ömər “Tarixut-Təbəri” kitabında ondan rəvayət nəql edib: 2/225, 247, 262, 276, 277, 280, 309, 472; 3/23.

154 Seyf ibn Ömər “Tarixut-Təbəri” kitabında ondan rəvayət nəql edib: 2/309, 311, 312.

155 Seyfin uydurduğu şəxslər, hadisələr və ravilər barəsində daha artıq məlumat almaq istəyənlər Seyyid Mürtəza əl-Əskərinin “Abdullah ibn Səbə” kitabına müraciət edə bilərlər. Bu kitabda bu mövzuya dair xeyli sayda misallar var.

(vəf.346) və s. kimi üçüncü və dördüncü əsr ravi və tarixçilərinin heç biri öz rəvayət və ya kitablarında fitnə hadisələri zamanı Abdullah ibn Səbənin hər hansısa bir rolu olduğunu qeyd etməmişlər”[156].

Şübhəsiz ki, bu qədər tarixçinin belə mühüm əhəmiyyət daşıyan və islam tarixini kökündən dəyişdiyi iddia olunan bu cür bir “rolu” yaddan çıxarmaları və ya unutmaları mümkünsüzdür. Elə bu faktın özü məsələ ilə bağlı deyilən bütün sözlərin hadisədən çox sonralar ortaya çıxarılmış qondarma şeyrlə olduğunu isbat edir.

**Dördüncü:** Xüsusilə Təbəri və eləcə də, İbn Səbədən söz açan digər tarixçilər İbn Səbənin Osman ibn Əffanın zamanından sonrakı fəaliyyəti barədə heç nə yazmamışlar. Biz möminlərin əmiri Əli ibn Əbu Talibin zamanında baş verən hadisələrdə, daha konkret: üç döyüş zamanında İbn Səbənin fəaliyyət və rolu barədə heç nə oxumuruq. Halbuki İbn Səbə meydana çıxmalı, müsəlmanlar arasındakı müharibəni daha da alovlandırmağa çalışmalı, camaatı bir-birinin əleyhinə qızışdırmalıydı. Axı Təbərinin nəql etdiyinə görə, o, özünə çoxlu tərəfdar toplamış, müsəlman ölkələrini gəzərək öz yardımçıları vasitəsilə missionerlik edən bir şəxs idi. Elə isə nə üçün burada da eyni şeyi etmirdi?

Taha Hüseyn “Əli və bənuh” (“Əli və övladları”) kitabında belə deyir: “Tarixçilərin Siffeyn döyüşündə “səbəiyyə” və İbn Səvda(nın rolu) barədə heç bir söz deməmələri ən azı buna dəlalət edir ki, “səbəiyyə” firqəsi və onun başçsı İbn Səvda sonradan – şiələrlə digər islam firqələri arasında münaqişə ortaya çıxdığı zaman qondarılan uydurma və saxta obrazlardır. Şiələrin müxalifləri şiə məzhəbinə qarşı hiylə qurub onu gözdən salmaqdan ötrü bu məzhəbin əqidə əsaslarına yəhudi ünsürü daxil etmək istəmişlər (buna görə də İbn Səvda əfsanəsini uydurmuşlar). Əgər İbnSəvda məsələsinin haqqa və doğru tarixə dayanan bir əsası olsaydı, onda təbii olaraq, İbn Səvda Siffeyndə baş tutan o çətin və mürəkkəb

[156] “Abdullah ibn Səbə”: səh.13.

müharibədə öz təsirini və hiyləsini ortaya qoyardı; Əlinin səhabələri hakimiyyət məsələsində ixtilaf etdiyi zaman öz təsirini ortaya qoyardı; sülh istəməyib sülhə nifrət edən və sülhə meyl edəni və ya sülhdə iştirak edəni təkfir edən yeni qruplaşmanın (xaricilərin) təşəkkül tapmasında öz təsirini ortaya qoyardı. Lakin biz tarixdə İbn Səvdanın xəvariclərlə bağlı heç bir roluna rastlamırıq. Görəsən bu faktı nə ilə əlaqələndirmək olar? Yaxud, İbn Səvdanın Siffeyn hadisəsində yoxa çıxmasını və mühəkkimə (xəvaric) dəstənin formalaşmasında iştirak etməməsini nə ilə əlaqələndirə bilərik? Mən bu iki işin səbəbini yalnız bir şeydə görürəm. O da budur ki, İbn Səba uydurma şəxsiyyətdir, hətta real olaraq mövcud olmuşdursa belə, tarixçilərin təsvir etdiyi həmin önəmli rola malik olmamışdır".[157]

**Beşinci:** İbn Səbə barəsində nəql olunmuş söz və rəvayətlər bir-birləri ilə ciddi şəkildə ziddiyyət təşkil edirlər (bu barədə növbəti fəsildə ətraflı şəkildə danışacağıq).

Belə ki, bəzən onun adı Abdullah ibn Səbə kimi, bəzən isə İbn Səvda kimi qeyd olunmuşdur. Əbdülqadir Bağdadinin "əl-Farq beynəl-firəq" ("Firqələr arasında fərq") kitabında dediyi sözlərdən belə başa düşülür ki (onun sitatını kitabın birinci fəslində qeyd etdik), onlar eyni deyil, ayrı-ayrı şəxslərdirlər. Halbuki, əksəriyyət Abdullah ibn Səbə ilə İbn Səvdanın eyni şəxslər olduqlarını düşünür.

Həmçinin Bəlazurinin "Ənsabul-əşraf" ("Alicənab şəxslərin nəsəbləri") kitabında, Səmaninin "Ənsab" ("Nəsəblər") kitabında və Məqrizinin də "əl-Xutat vəl-asar" ("İzlər və əsərlər") kitabında dediklərindən belə başa düşülür ki, İbn Səbə xəvaricin öndərlərindən olan Abdullah ibn Vəhb Rasibi Həmədanidir. Bu məsələ barəsində də altıncı fəsildə danışmışıq.[158]

---

[157] "Əl-Fitnətul-kubra": 2/98,99.

[158] "Ənsabul-əşraf": 2/383; "Abdullah ibn Səbə" (Əskəri): 2/321; Taha Hüseyn "Əli və övladları" kitabında belə deyir: "Bəlazuriyə görə İbn Səbə İbn Səvda deyil, əksinə Abdullah ibn Vəhb Rasibidir".

Həmçinin, əksəriyyət Abdullah ibn Səbənin Yəmən yəhudilərindən olduğunu deMİŞ[159], bəziləri isə Hirə yəhudilərindən olduğunu demişlər. Biz birinci fəsildə bu barədə də danışdıq. Dedik ki, Bağdadiyə görə Hirə yəhudilərindən olan – Abdullah ibn Səbə deyil, İbn Səvdadır.

Bundan başqa, bəzi rəvayətlər Əli ibn Əbu Talibin Abdullah ibn Səbəni Mədainə sürgün etdiyini və onun Əli ibn Əbu Talibin qətlə yetirilməsinədək orada qaldığını bildirir, digərləri isə Əlinin onu Kufədə yandırdığını deyir. Bunlar barəsində də daha əvvəl ətraflı danışdıq.

Həmçinin, bəzi rəvayətlərdən başa düşüldüyünə görə, Əli ibn Əbu Talib

İbn Səbəni özü barəsində allahlıq iddiası etdiyinə görə Mədainə sürgün etmiş, bəzilərinə görə sürgünün səbəbi onun Əbu Bəkr və Öməri təhqir etməsi, bir digər rəvayətə görə isə onun Əli barəsində, "Sən yerdən çıxan canlısan" deməsi olmuşdur.

Habelə, tarixçilər bir yandan İbn Səbənin Əli barəsində ifrata varıb onun peyğəmbər olduğunu, sonra bir qədər də ifrata varıb onun allah olduğunu iddia etdiyini nəql etmiş, digər tərəfdən isə onun Əli barəsində "mən Tövratda belə oxumuşam ki, hər bir peyğəmbərin bir canişini olmalıdır, Allah rəsulunun canişini də Əlidir. Muhəmməd peyğəmbərlərin ən üstünü olduğu kimi, Əli də canişinlərin ən üstünüdür", - dediyini nəql etmişlər.[160]

Şübhəsiz ki, fitnə hadisələrində fəal rol oynadığı iddia olunan bir şəxs barəsində mövcud olan bu qədər kəskin ziddiyyətlər bu şəxsin kimliyinin yalan və uydurmalara əhatələndiyini göstərir; əks halda tarixdə o boyda təsir və rolu olan bir şəxs barəsində bu qədər ciddi fərqliliklər nə üçün meydana gəlsin? Məgər o boyda rolu olduğu iddia olunan bir şəxsin hərəkətlərinin diqqətlə izlənilməsi, nə etdiyinin qeydə alınması və

---

[159] "Tarixu-Diməşq": 34/1; "Lisanul-mizan": 3/289.

[160] "Əl-Farq beynəl-firəq": səh.235; "Tarixu-Diməşq": 29/7; "Əl-Bidayə vən-nihayə": 7/174.

kimliyinin dəqiq təsvir olunması lazım deyilmi? Bəs nə üçün belə olmamışdır?

**Altıncı:** Yəməndən olan, xalis ərəb olan, fitnə hadisələrində əsas rolu üstlənən, müxtəlif islam ölkələrində xeyli sayda ardıcıl və müridə malik olan... Abdullah ibn Səbənin əsl-nəcabəti bilinmir. Onun ata-babalarının silsiləvi şəkildə adları bir yana, heç bircə dənə babasının adı belə bilinmir. Bilinən təkcə atasının adıdır – "Səbə". Bacı-qardaşı, əmi-dayısı, bibi-xalası, həyat yoldaşı, övladları, kürəkənləri, qayınları.. bir sözlə, ona bağlılığı olan hər hansısa yaxın qohumu barədə heç bir məlumat yoxdur. Halbuki tarixçilər o dövrdə müəyyən rolu olan şəxslərin əsl-nəsəblərini, hansı qəbilədən olduqlarını və kimlə qohum olduqlarını qeyd etmişlər. Bioqrafiya və rical kitablarına nəzər salan hər bir kəs bunu açıqca görə bilər.

Elə isə nə üçün bu adam barəsində belə bir şey qeyd olunmamışdır? Nə üçün bu qədər tarixçi və bioqraf onun tərcümeyi-halından xəbərsiz qalmışdır?

Bunun yalnız bir cavabı var və o da budur ki, bu şəxsin ona nisbət verilən rolla heç bir əlaqəsi olmamışdır; o, əsla sözügedən rolu oynamamışdır. O, heç bir əhəmiyyəti olmayan adi bir adam olmuşdur, buna görə də tarixçilər onun hərəkətlərini qeydə almağa və ya tərcümeyi-halını yazmağa diqqət göstərməmişlər.

**Yeddinci:** Qara dərili, yəmənli, nəsəbi bilinməyən, əvvəllər yəhudi olan, islamı yenicə qəbul edən və Əli barəsində ifrat sözlər danışan bir adamın o boyda Peyğəmbər səhabələrini və ümumilikdə bütün camaatı uşaq yerinə qoyub, ağıllarını ələ alması, onları yoldan çıxarması, Osmana qarşı qaldırması və ikiyə parçalaması necə mümkün olub?!

Bu bir yana dursun, necə olub ki, bu adam o müsəlman cəmiyyətində istədiyi çirkin əqidələri və batil inanclarını yaya bilib və Əli barəsində

açıq-aşkar ifrat sözlər danışa bilib, amma bir nəfər ona etiraz etməyib, heç kəs onu tutduğu yoldan çəkindirməyib?

Bütün bu deyilənlərdən bu nəticəyə gəlirik ki, Abdullah ibn Səbənin yəhudi olması və fitnə hadisələrində əsas rol oynaması tamamilə əsassız, yalan və Seyf ibn Ömərin qondardığı şeylərdir. Bu şeyləri o, bir tərəfdən Osman ibn Əffanı müdafiə etmək, digər tərəfdfən isə Əli və şiələrinə tənə vurmaq üçün qondarmışdır. Ya da aşağıda bəyan olunacaq şeylər üçün qondarmıdşrı.

## İbn Səbəyə belə bir rolun yüklənməsinin arxasında yatan səbəblər

Şübhəsiz ki, Abdullah ibn Səbəyə bu rolu yükləyənlərin və onun bu saxta rolu ətrafında rəvayətlər düzüb-qoşanların xüsusi hədəf və məqsədləri olmuşdur.

Bu rəvayətləri diqqətlə incələyən şəxslər onların arxasında yatan səbələri görə bilərlər. Doktor Əbdüləziz Həllabi "Abdullah ibn Səbə" kitabında belə deyir: "Seyfin fitnə hadisələri ilə bağlı nəql etdiyi rəvayətlərinin arxasında yatan səbəbləri belə xülasələşdirə bilərik:

1. Rəvayət qondarmağa və ya rəvayətləri təhrif etməyə gətirib çıxarsa belə, Osmanı, möminlər anası Aişəni, Təlhə, Zübeyr və Osmanın valilərini müdafiə etmək və onların tutduqları mövqelərə haqq qazandırmaq.

2. Dolayı yolla xəlifə Əliyə tənə vurmaq.

3. İstər səhabə olsun, istərsə də qeyrisi – Osmanı tənqid edən və ya onun valilərinə tənə vuran, yaxud Bəsrədə Əlinin ordusuna qoşulan hər bir kəsi pis göstərmək.

4. Osmana, Aişəyə, Təlhəyə və Zübeyrə dil uzadan şiə rəvayətlərinin qarşısını əks məzmunlu, müxalif rəvayətlərlə almaq..." və s.[161]

---

[161] "Abdullah ibn Səbə": səh.40.

Abdullah ibn Səbə barəsində uydurulan əfsanələrin arxasında başqa səbəblər də yatır. Bunları aşağıdakı kimi sıralamaq olar:

1. Camaatı Osmanın evini mühasirəyə almağa və onu evində qətlə yetirməyə sövq edən əsl səbəbləri gizlətmək. Belə ki, tarixçilərin yazdığına görə, Osmanın əksəriyyəti əməvilərdən olan valiləri bütün islam ölkələrində fəsad yayır, Allahın malını öz malları kimi yeyir, Allah bəndələrini zəlil vəziyyətə salırdılar. Camaat da Osmandan ya o valiləri vəzifədən uzaqlaşdırmağı, ya da özünün xəlifəlikdən getməsini və əvəzində ondan daha güclü birisinin xəlifəliyə gəlməsini istəyirlər. Osmanın bu istəkləri geri çevirməsi və valiləri vəzifədən uzaqlaşdırıb istintaqa cəlb etməməsi, camaatın onun əleyhinə qiyam qaldırmasına və onu qətlə yetirməsinə gətirib çıxarMIŞDır.

Osmanı qətlə yetirilməsinin arxasında duran həqiqi səbəb məzh bu olmuşdur.

Təbəri öz tarix kitabında öz sənədi ilə Muhəmməd ibn Məsləmədən belə nəql edir: "...Misirlilər Osmanın yanına gəldilər, amma ona xəlifə kimi salam vermədilər. Mən bunun əsl şər olduğunu başa düşdüm. Osman dedi: "Səlamun aleykum". Dedilər: "Və aleykumus-səlam". Bundan sonra misirlilər danışmağa başladılar. Birinci İbn Üdeys başladı. O, İbn Sədin Misirdə nələr etdiyini, onun həm müsəlmanlara, həm də zimmilərə qarşı necə qəddar davrandığını, müsəlmanların haqqı olan döyüş qənimətlərini özünə götürdüyünü, bununla bağlı ona irad tutulduqda da, "Bu, möminlərin əmirinin [Osmanın] mənə məktubudur", - dediyini Osmanın nəzərinə çatdırdı.

Sonra misirlilər Osmanın özündən əvvəlki iki xəlifəyə zidd olaraq, Mədinədə etdiyi bidət işlərdən danışdılar. Sonra dedilər: "(Keçən dəfə) sənin yanına gələndə ya səni öldürəcəkdik, ya da sən xilafətdən gedəcəkdin. Amma Əli və Muhəmməd ibn Məsləmə bizi geri qaytardılar.

Muhəmməd bizə zəmanət verdi ki, səsləndirdiyimiz bütün istəklər yerinə yetiriləcək".

Sonra mənə dönüb dedilər: "Belə oldu?"

Dedim: "Bəli".

Dedilər: "Bundan sonra Allahdan kömək istəyib, geri döndük. Buveyb məntəqəsində idik ki, sənin nökərinlə qarşılaşdıq. Ondan sənin öz möhürünlə möhürlənmiş Abdullah ibn Sədə yazdığın məktubu ələ keçirdik. O məktubda Sədə bizi şallaqlamağı, üz-gözümüzün tüklərini yolmağı və bizi uzun müddət həbsdə saxlamağı əmr edirdin. Bu da sənin məktubun".

Osman Allaha həmd-səna edib dedi: "Allaha and olsun ki, mən heç nə yazmamışam, heç nə əmr etməmişəm, heç kəs mənimlə məşvərət etməyib və heç nədən xəbərim yoxdur".

Mən və Əli dedik: "Düz deyir".

Misirlilər dedilər: "Onda bu məktubu kim yazıb?"

Dedi: "Bilmirəm".

Dedilər: "Deyirsən ki, sənə qarşı belə cürətkarlıq edilir, səndən izin almada xidmətçin müsəlmanların dəvələri ilə birlikdə harasa göndərilir, sənin möhüründən istifadə edilir və sənin valinə belə böyük məzmunlu sözlər yazılır, amma sənin bütün bunlardan xəbərin olmur?"

Dedi: "Bəli".

Dedilər: "Onda sənin kimi birisi xilafətə layiq deyil. Xilafətdən əl çək, zatən Allah səni xilafətdən salıb".

Dedi: "Allahın mənə geydirdiyi libası [xilafət libasını] əynimdən çıxarmaram".

Bu vaxt səslər yüksəldi, hay-küy qalxdı. Mən onların Osmanın üzərinə atılmadan oranı tərk etməyəcəklərini düşünürdüm. Bu vaxt Əli çıxmaq üçün ayağa qalxdı. O ayağa qalxınca, mən də qalxdım. Əli misirlilərə dedi: "Evdən çıxın". Onlar da çıxdılar. Mən öz evimə qayıtdım, Əli də öz evinə

qayıtdı. Amma misirlilər Osmanın evini mühasirədə saxladılar və nəhayət onu qətlə yetirdilər".[162]

Lakin İbn Səbəyə uydurma rol biçənlər Osmanın öldürülməsini belə qələmə vermişlər ki, güya bu hadisə sırf müsəlmanlara qarşı kini olan, müsəlmanlar arasında şər və fintə düşməsini istəyən, Əli ibn Əbu Talibin canişinliyi məsələsini ortaya çıxaran, onun xilafətə Osmandan daha layiq olduğunu bildirən, Osman və onun valiləri barədə pis sözlər danışan və camaatı ona qarşı qaldıran bir yəhudi tərəfindən planlanıbmış.

2. Şamlıları, onların içində də təbii olaraq Müaviyəni öymək; İbn Səbənin öz hiylələri ilə onları aldada bilmədiyini; onların çox ağıllı və dərrakəli olduqlarını; dərin zəkaları sayəsində İbn Səbənin hiylələrini başa düşüb onu Şamdan qovduqlarını və onun da məcbur qalıb başqa diyarlara üz tutduğunu göstərmək.

Təbər Seyf yolu ilə belə nəql edir: "Abdullah ibn Səbə Sənadan olan bir yəhudi idi. Anası qaradərili bir qadın idi. Osmanın zamanında İslamı qəbul etmiş, sonra müsəlman ölkələrini gəzərək camaatı azdırmağa çalışmışdır. Əvvəlcə Hicazdan başlamış, sonra Bəsrəyə, sonra Kufəyə, sonra da Şama getmişdir. *Şam camaatından bir nəfəri belə öz toruna sala bilməmişdir. Şam camaat onu diyarlarından qovmular.* Bundan sonra o, Misirə gələrək, burada yaşamağa başlamışdır".[163]

3. Rəcət, Əli ibn Əbu Talibin canişinliyi, onun yerdən çıxacaq canlı olması, onun xəlifəliyə Osmandan daha layiq olması kimi doğru islam əqidələrini "yəhudi" Abdullah ibn Səbəyə nisbət verməklə bu əqidələri ləkələyib, gözdən salmaq.

Eyni zamanda valilərə və rəhbərlərə tənə vurmağın dini baxımdan qadağan olduğunu göstərmək. Çünki Abdullah ibn Səbə islam dövlətini zəiflətməyin ən əlverişli yolunun məhz vali və rəhbərləri tənqid etmək,

---

[162] "Tarixut-Təbəri": 3/407.

[163] "Əl-fitnə və vaqatul-cəməl": 2/48; "Tarixut-Təbəri": 2/647.

onlara tənə vurmaq olduğunu düşünürmüş. Buna görə də islam dövlətini zəiflətməmək üçün İbn Səbənin yolunu tutmamaq – başqa sözlə, rəhbərlərə heç nə deməmək lazımdır. Elə məhz bu təfəkkür əsasında, zalım və azğın olsalar belə rəhbərlərə etiraz etməməyin vacibliyi barədə cürbəcür rəvayətlər uydurdular.

4-Heç bir əsli və əsası olmayan müxtəlif tarixi hadisələr, şəxslər, ravilər, səhabələr, yerlər və qəbilələr uydurmaqla həqiqətləri təhrif etmək, dorğu ilə yalanı bir-birinə qarışdırmaq, həqiqətləri qalaq-qalaq yalanın içində itirib batırmaq. Necə ki, bunun bir nümunəsini Zatussəlasil döyüşü ilə bağlı nəql etdiyimiz rəvayətdən gördük.

Bununla belə, araşdırmaçı şəxslər Abdullah ibn Səbəyə bu rolun verilməsinin və onun bu cür təsvir edilməsinin arxasında başqa səbəblər də tapa bilərlər.

## ONUNCU FƏSİL

## Abdullah İbn Səbənin şəxsiyyəti barədə təzadlı fikirlər

Firqələr üzrə mütəxəssislərin, bioqrafiya alimlərinin, araşdırmaçıların və digər elm adamlarının Abdullah ibn Səbə barəsində yazdıqları məlumatlara nəzər saldıqda, bu məlumatların ciddi şəkildə təzadlı olduğunu müşahidə edirik. Bəzən bu təzad o qədər güclü olur ki, fərqli fikirləri bir-birinə uyğunlaşdırmaq və ya onların arasında konkret nəticəyə gəlmək mümkünsüz olur.

### Abdullah ibn Səbənin mövcudluğu barədə ixtilaf

Bir qrup müəlliflər Abdullah ibn Səbənin mövcudiyyətin kökündən inkar etmişlər. Bu şəxslərə görə Abdullah ibn Səbə adlı bir şəxs əsla mövcud olmamışdır, onu kimlərsə müəyyən məqsədlərdən ötrü icad etmişdir. Belə alimlərə misal olaraq aşağıdakıları göstərə bilərik:

**1. Əllamə Muhəmmədhüseyn Təbatəbai:**

Əllamə Təbatəbai "əl-Mizan" təfsirində belə demişdir: "Təbərinin rəvayət nəql etdiyi bu iki şəxs – Şüeyb ilə Seyfi nəzərdə tutur – məşhur yalançılardan və hədis qondaranlardandırlar. Bioqrafiya alimləri onların hər ikisi barəsində tənqidi fikirlər səsləndirmişlər. Bu iki şəxsin uydurduğu İbn Səvda və ya Abdullah ibn Səbə ilə bağlı rəvayətlər uydurma rəvayətlər sayılırlar. Son olaraq tətqiqatçı alimlər bu iki şəxsin uydurma şəxslər olduğu qənaətinə gəliİBləR".[164]

**2. Əllamə Mürtəza Əskəri:**

164 "Əl-Mizan fi təfsiril-Quran": 9/260.

O özünün “Abdullah ibn Səbə və əsatir uxra” kitabında belə demişdir: “Seyf bu əfsanələri ikinci hicri əsrinin əvvəllərində uydurmuşdur. Onları yalnız Seyf nəql etmşdir. Təbəri kimi böyük alimlər bu rəvayətlri Seyfdən nəql etməyənədək, onlar yayılmamışlar”.[165]

Sonra deyir: “Seyfin əfsanəsinin hər yerdə yayılmasından sonra, Abdullah ibn Səbə barələrində xalqların sərhəd tanımayacaq şəkildə əfsanələr düzüb qoşduğu mifik qəhrəmanlardan biri kimi olmuşdur”.[166]

**3.** Digər bir alim **Doktor Taha Hüseyndir**. O, özünün “Əli və övladları” kitabında belə deyir: “Tarixçilərin Siffeyn döyüşündə “səbəiyyə” və İbn Səvda(nın rolu) barədə heç bir söz deməmələri ən azı buna dəlalət edir ki, “səbəiyyə” firqəsi və onun başçsı İbn Səvda sonradan – şiələrlə digər islam firqələri arasında münaqişə ortaya çıxdığı zaman qondarılan uydurma və saxta obrazlardır. Şiələrin müxalifləri şiə məzhəbinə qarşı hiylə qurub onu gözdən salmaqdan ötrü bu məzhəbin əqidə əsaslarına yəhudi ünsürü daxil etmək istəmişlər (buna görə də İbn Səvda əfsanəsini uydurmuşlar)”.[167]

**4.** Digər bir müəllif isə **doktor Əbdüləziz Həllabidir.** O özünün “Abdullah ibn Səbə” kitabında belə deyir: “Bu araşdırmamızda gəldiyimiz nəticəyə əsasən, Abdullah ibn Səbə reallıqla əlaqəsi olmayan uydurma bir şəxsiyyətdir. Əgər bu adda bir şəxs mövcud olmuşdursa da, heç şübhəsiz ki, nə siyasi, nə də ideoloji cəhətdən Seyfin və firqələr barədə kitab yazan müəlliflərin ona nisbət verdikləri rolu oynamamışdır”.[168]

**5-6. Doktor Əli Vardi və doktor Mustafa Şeybi:**

---

[165] “Abdullah ibn Səbə və əsatir uxra”: 2/315

[166] “Abdullah ibn Səbə və əsatir uxra”: 2/423.

[167] “Əl-Fitnətul-kubra”: 2/98.

[168] “Abdullah ibn Səbə: dirasətun lir-rivayatit-tarixiyyə an daurihi fil-fitnə”: səh.71.

Doktor Əli Vardi və doktor Şeybi Abdullah ibn Səbənin böyüksəhabə Əmmar ibn Yasir olduğu qənaətinə gəlmişlər. Onlara görə İbn Səbə ilə Əmmar ibn Yasir eyni şəxslər olmuşlar.

Doktor Əli Vardi "Vuaazus-salatin" kitabında deyir: "Araşdırmamızda gəldiyimiz nəticəyə əsasən, İbn Səba həqiqi yox, xəyali bir şəxsiyyətdir. Əgər bu adda bir şəxs mövcud olmuşdursa belə, şübhəsiz ki, o, Seyfin və firqələrdən bəhs edən kitab müəlliflərinin ona nisbət verdikləri siyasi və ya etiqadi rolu oynanamışdır".[169]

Doktor Şeybi də "əs-Silə beynət-təsəvvufi vət-təşəyyu" kitabında deyir: "Bu əsasla, səbəiyyə Əmmarın başçılıq etdiyi bir firqədir. Sadəcə, Qüreyş Əmmara məlum (Abdullah ibn Səbə) ləqəbi taxmış, sonra onun sözlərindəki qaneedici cəhət aradan getsin, fikirləri şəkk və batillik donuna bürünsün, insanlar ondan, onun fikirlərindən və onun Əlinin haqlığı və öz müasiri olan (Osmanın zamanında yaşayan) müsəlmanlardan üstünlüyü ilə bağlı fikirlərindən uzaqlaşsınlar deyə onun adından mübaliğələr və batil sözlər uydurmuşdular".[170]

Yeddinci fəsildə bu nəzər barədə danışaraq, ona cavab verdik. İstəyənlər həmin fəsilə müraciət edə bilərlər.

### 7. Misirli yazıçı Əhməd Abbas Saleh:

O, özünün "əl-Yəmin vəl-yəsar fil-İslam" kitabında belə deyir: "...Burada Abdullah ibn Səbə adı ortaya çıxır. Deyilənə görə, o, əvvəllər yəhudi olmuş, sonra islamı qəbul etmişdir. Tarix kitabları onu Osmanın zamanında baş verən fitnənin, hətta bütün hadisələrin arxasındakı şeytan kimi təsvir etmişdir... Yazıçılar ona nisbətdə təzadlı mövqe tutmuşlar. Bəziləri ümumiyyətlə onun nə vaxtsa var olduğunu inkar etmiş, bəziləri isə onu

[169] "Vuaazus-salatin": səh.274-278.

[170] "Əs-Silə beynət-təsəvvufi vət-təşəyyu": 1/89.

hər bir şeyin, hətta yad və azğın məzhəblərdən islama daxil olan bütün batil fikirlərin kökü və mənşəyi hesab etmişlər.

Abdullah ibn Səbə, heç şübhəsiz ki, uydurma bir şəxsdir. Bütün bu hadisələrin yanında İbn Səbənin nə dəyəri ola bilər?! Bu geniş və böyük dünyada baş verən çarpışma və münaqişələrlə müqayisədə İbn Səba kimdir ki?! Bir adam, dəyəri hər nə qədər olursa olsun, təkbaşına bütün bu mübarizə aparan cərəyanlar arasında nə kimi rol oynaya bilər?! Sürətli, güclü və ard-arda baş verən hadisələr heç vaxt kiməsə möhtac olmayıb, hətta şeytanın özünə belə. Çünki onun kökləri olduqca dərin, gücünün həcmi isə olduqca çox olub; heç kəs bu hadisələri nəzarət altına ala və yönləndirə bilməyib...

Heç şübhəsiz ki, bu cür xürafi bir şəxsiyyət yaradan və baş verən hadisələrdə ona müəyyən rol verən şəxslər sadəlövh və avam şəxslər olmuşlar. Onlardan daha sadəlövhü isə, bu uydurma şəxsiyyətin Əbuzər kimi böyük səhabələrə təsir etdiyini düşünən kəslərdir. Əbuzər o şəxsdir ki, məşhur hədisçi Əbu Hüreyrənin özüylə münaqişə etməsini qəbul etməmiş, ona bir zərbə vurub başını yararaq, "Dinimizi bizəmi öyrədirsən, ey yəhudi qadının oğlu?!", - demişdi.

Abdullah ibn Səbə barədə nəql olunan əhvalatlar sonrakı dövrlərin uydurmasıdır. Qədim mənbələrdə onun varlığını təsdiq edəcək heç bir dəlil yoxdur. Ümumiyyətlə, onun var olduğunu demək cəfəngiyyatdan başqa bir şey deyil".[171]

Ayətullahul-üzma Seyyid Əbülqasim Xoinin "Mucəmu-ricalil-hədis" kitabında dedikləri isə - ilk baxışda belə görünsə belə - onun Abdullah ibn Səbənin kökündən uydurma bir şəxs olduğu fikrinin tərəfdarı olduğuna dəlalət etmir. Onun dediklərindən onun Abdullah ibn Səbə ətrafında düzülüb-qoşulan müəllifi Seyf ibn Ömər Təmimi olan uydurma əhvalat və mifləri inkar etdiyi mənası başa düşülə bilər.

[171] "Əl-yəmin fil-islam": səh.95.

Mərhum Xoi "Mucəmu-ricalil-hədis" kitabında deyir: "Abdullah ibn Səbə əfsanəsi və onun çıxardığı nəhəng iğtşaşlarla bağlı hekayələr hamısı uydurma və saxtadır; onları saxtakar və yalançı Seyf ibn Ömər uydurmuşdur. Hal-hazırda bu barədə ətraflı danışa və dəlillər təqdim edə bilmirik. Böyük alim və istedadlı tədqiqatçı Əllamə Seyyid Mürtəza Əskəri özünün "Abdullah ibn Səbə" adı altında çap olunan iki cildlik irihəcmli kitabındakı, habelə "Xamsunə və miətu səhabiyyin muxtələq" ("Yüz əlli uydurma səhabə") kitabındakı dərin və dəqiq araşdırmaları ilə bizi bu xurafat əhvalatlar, Seyf və onun uydurmaları barədə danışmaqdan ehtiyacsız etmişdir".[172]

Seyyid Xoinin sözü açıq şəkildə ona dəlalət edir ki, o, Abdullah ibn Səbənin varlığını deyil, sadəcə onun və onun saldığı "çaxnaşmalar" barədə uydurulan qondarma rəvayətləri inkar etmişdir.

## İbn Səbənin sürgün olunması və yandırılması mövzusunda ixtilaf

Bir qrup alim İmam Əlinin özü barəsində ilahlıq iddiası etdiyinə görə Abdullah ibn Səbəni yandırdığı fikrini qəbul etmişlər.

Əllamə Hilli özünün "Xülasətul-əqval" kitabında belə demişdir: "Abdullah ibn Səbə ifratçı və məlundur. Əmirəlmöminin onu odda yandırmışdır. O, Əlinin ilah, özünün də peyğəmbər olduğunu iddia etmişdir".[173]

"ət-Təhrirut-tavusi" kitabında nəql olunana görə, eyni sözləri Seyyid Əhməd ibn Tavus da "Həllul-işkal fi mərifətir-rical" ("Ravilərin tanınması mövzusunda qarşıya çıxan problemlərin həlli") kitabında demişdir.[174]

---

[172] "Mucəmu-ricalil-hədis": 11/207.

[173] "Ricaul-əllamətil-Hilli": səh.237.

[174] "Ət-təhrirut-tavusi": səh.173.

Əbu Əmr Kəşşi isə belə deyir: “Abdullah ibn Səbə peyğəmbərlik iddiası edir, Əlinin Allah olduğunu deyirdi. Əli üç gün ondan tövbə etməsini tələb etmiş, lakin o sözündən dönməmişdir. Bundan sonra Əli onu eyni iddianı edən yetmiş nəfərlə birlikdə yandırmışdır”. [175]

Şeyx Yusif Bəhrani deyir: “İbn Səbə Əlinin Allah olduğunu iddia edirdi. Əli üç gün ondan tövbə etməsini tələb etmiş, lakin o sözündən dönməmişdir. Bundan sonra Əli onu yandırmışdır”.[176]

Bu sözlərin hamısının məzmunu Kəşşinin öz kitabında nəql etdiyi və bizim də daha əvvəl qeyd etdiyimiz rəvayətlərin məzmunu ilə eynidir. Bəlkə də bu böyük şəxslər öz sözlərini həmin rəvayətlərə istinadən demişlər.

İbn Həzm də “əl-Fasl fil-miləl” kitabında bu fikri bildirmişdir: “Allahdan başqası üçün ilahlıq iddia edən azğın firqələrdən birincisi Abdullah ibn Səbə Himyərinin – Allah ona lənət eləsin – əshabından olan bir firqədir. Onlar Əli ibn Əbu Talibin yanına gələrək ona belə deyirlər: “Sən “o”-san”. Əli deyir: “O kimdir?” Deyirlər: “Sən Allahsan”. Bu söz Əliyə çox ağır gəlir. Od qalanmasını əmr edir. O şəxsləri oda atdırır. Onlar oda atıldıqları vaxt belə deyirlər: “İndi bir daha əmin olduq ki, sən Allahsan. Çünki odla yalnız odun rəbbi əzab verə bilər”.[177]

Zəhəbi də “Mizanul-itidal” kitabında belə deyir: “Abdullah ibn Səbə ifratçı zındıqlardandır. Azğın və azdırandır. Hesab edirəm ki, Əli onu odda yandırmışdır”.[178]

Bir qrup başqa müəlliflər isə Əlinin Abdullah ibn Səbəni yandırmadığı, əksinə onu özü barədə ilahlıq iddiaları səsləndirdiyinə və ya Əbu Bəkr və

---

[175] “Ricalu-İbn Davud” kitabından (səh.30, ikinci hissə) və “Tənqihul-məqal” kitabından (2/184) nəqlən. Lakin Kəşşinin bu sözü “Ricalul-Kəşşi” kimi məşhur olan “İxtiyaru-mərifətir-rical” kitabında mövcud deyil.

[176] “Əl-hədaiqun-nadira”: 8/511.

[177] “Əl-fasl fil-miləl vəl-əhva vən-nihəl”: 5/46.

[178] “Mizanul-itidal”: 4/105.

Ömər barədə pis sözlər danışdığına görə Mədainə sürgün etdiyi fikrini dəstəkləmişlər.

Şəhristani "əl-Miləl vən-nihəl" kitabında belə yazır: "Səbaiyyə firqəsi: Bu, Əli – Allah üzünü nurlandırsın – barəsində "sən, sənsən", yəni "sən ilahsan", - deyən Abdullah ibn Səbənin tərəfdarlarına verilən addır. Əli bu iddiasına görə Abdullahı Mədainə sürgün etmişdir. İddiaya görə, Abdullah əvvəllər yəhudi olmuş, sonra islamı qəbul etmişdir. Yəhudi olduğu vaxtlar Yuşə ibn Nunun Musanın canişini olduğunu deyərmiş, müsəlman olduqdan sonra da eyni şeyi Əli barəsində demişdir. O, Əlinin Allah tərəfindən imam təyin edilməsi fikrini ortaya atan ilk şəxsdir. İfratçı cərəyanlar ondan nəşət tapmışdır. O, Əlinin ölməyib diri olduğunu, buludlarda gəzdiyini, göy gurultusunun onun səsi olduğunu, ildırımın onun təbəssümü olduğunu, onun sonradan yer üzünə qayıdacağını və yer üzünü haqsızlıqla dolduğu kimi ədalətlə dolduracağını iddia etmişdir".[179]

Əbdülqahir Bağdadi ("əl-Farq beynəl-firəq")[180], Munavi ("ət-Təvqif əla muhimmatit-təarif")[181] və Curcani ("Kitabut-tərifat")[182] də buna yaxın mənalı sözlər demişlər.

Səd ibn Abdullah Əşəri isə "əl-Məqalat vəl-firəq" kitabında belə demişdir: "Səbaiyyə Abdullah ibn Səbənin, yəni Abdullah ibn Vəhb Rasibi Həmədaninin ardıcıllarına verilən addır... Abdullah ibn Səbə aşkar şəkildə Əbu Bəkrə, Ömərə, Osmana və səhabələrə tənə vurub onlardan bezarlıq edən ilk şəxsdir.

O, bunu ona Əlinin əmr etdiyini və təqiyyənin icazəli və halal olmadığını iddia edir. Bunu eşidən Əli onu öz yanına gətirtərək, ondan həqiqətən də belə bir söz deyib-demədiyini soruşur. O, dediyini etiraf edir.

---

[179] "Əl-Miləl vən-nihəl": 1/174.

[180] "Əl-Farq beynəl-firəq": səh.233.

[181] "Ət-Təvqif əla muhimmatit-təarif": 2/394.

[182] "Kitabut-tərifat": səh.118.

Bu vaxt Əli onun öldürülməsini ərm edir. Lakin camaat hər tərəfdən "Ey möminlərin əmiri, siz Əhli-Beytin məhəbbətinə, sizə dostluğa və sizin düşmənlərinizdən uzaqlığa tərəf çağıran bir adamı öldürmək istəyirsən?", - deyərək hay-həŞir salırlar. Buna görə də Əli onu öldürməyib Mədainə sürgün edir.

Bir qrup elm əhli nəql etmişlər ki, Abdullah ibn Səbə ƏVVƏLLƏR yəhudi olmuş, sonradan islamı qəbul etmiş və Əlinin dostları cərgəsinə keçmişdir. Yəhudi olduğu vaxt Yuşə ibn Nunun Musa peyğəmbərin canişini olduğunu deyər, Peyğəmbərin vəfatından sonra da müsəlmanlığı vaxtı Əli barəsində eyni şeyi deyərmiş.

O, Əli ibn Əbu Talibin vilayətinin vacibliyi məsələsini ortaya çıxaran, Əlinin düşmənlərindən bəraət edən, onun müxaliflərini ifşa edib təkfir edən ilk şəxsdir. Məhz buna görə DƏ şiələrin müxalifləri "rafiziliyin əsli İbn Səbədən götürülmədir", - demişlər.

İbn Səbə Mədaində olduğu vaxt ona və yoldaşlarına Əlinin zərbələnməsi xəbəri gəlir; bir nəfər atlı onların yanına gəlir. Camaat ondan "Əmirəlmömininindən nə xəbər var?", - deyə soruşunca atlı deyir: "Ən bədbəxt insan ona elə bir zərbə vurub ki, insan ondan daha ağırı ilə yaşaya bilər, daha zəifi ilə ölə bilər".

Sonra Əli ibn Əbu Talibin ölüm xəbəri gəlib çatır.

Ibn Səbənin adamları xəbəri gətirən çapara belə deyirlər: "Yalan deyirsən, ey Allahın düşməni. Allaha and olsun, əgər onun beynini bir kisəcikdə bizə gətirsən və onun öldüyünü təsdiq edən yetmiş adil şəxs təqdim etsən belə, yenə də sənə inanmayacaq və onun ölmədiyini, öldürülmədiyini, ərəbləri əsas ilə qabağına qatıb sürməyincə və yer üzünə hökmranlıq etməyincə də ölməyəcəyini biləcəyik".

Sonra elə həmin gün gedib Əlinin qapısında dayanırlar. Onun yaşadığına əmin olan və onunla görüşə can atan adamlar kimi ondan içəri girmək üçün izin istəyirlər. Bu vaxt Əlinin ailə üzvləri və övladları onlara

deyirlər: “Sübhanallah! Bilmirsiniz ki, möminlərin əmiri şəhid olub?” Onlar deyirlər: “Biz onun ərəbləri – vaxtikən onları öz dəlil-sübutları ilə qabağına qatıb sürdüyü kimi – qılınc və qamçı ilə qabağına qatıb sürməyincə ölməyəcəyini bilirik. Biz bilirik ki, o, gizli söhbətləri eşidir, torpağın altında olanları bilir, iti və parlaq qılınc kimi parıldayır”.

Səbəiyyənin və hərbiyyənin – hərbiyyə Abdullah ibn Ömər Hərb Kindinin ardıcıllarına verilən addır – Əli barədə düşüncələri bunlardır. Onlar sonradan Əlinin aləmlərin allahı olduğunu, insanlara qəzəb etdiyinə görə gözlərdən gizləndiyini və yenidən zühur edəcəyini demişlər”.[183]

Buna yaxın sözlər Novbəxtinin “Firəquş-şiə” kitabında da qeyd olunmuşdur[184].

Ümumiyyətlə, görünən budur ki, “əl-Məqalat vəl-firəq” kitabı elə həmin “Firəquş-şiə” kitabıdır, başqa kitab deyil. Əgər siz bu iki kitabı əvvəldən axıradək oxuyub müqayisə etsəniz, onların elə eyni kitab olduqlarını görərsiniz. SadəcƏ yeganə fərq budur ki, birinci kitabdan müqəddimə hissəsi çıxarılmışdır, bir də iki kitabın bəzi cümlələri arasında – adətən eyni kitabın fərqli nüsxələrində müşahidə edildiyi kimi – cüzi fərqliliklər mövcuddur.

Hər halda, bu iki kitabda nəql edilən faktlarla əlaqədar bir neçə mülahizə və irad ortaya çıxır:

1. Hər iki kitab Abdullah ibn Səbənin Abdullah ibn VəhbRasibi Həmədani olduğunu iddia edir. Halbuki biz altıncı fəsildə bu fikrin batilliyini müfəssəl şəkildə bəyan etdik.

2. Kitablara görə, Əmirəlmömini Abdullah ibn Səbənin Əbu Bəkr və Öməri söydüyünü eşidincə onu öldürmək istəyir, lakin camaat İbn Səbə barəsində müəyyən sözləri deyərək Əlinin fikrini dəyişdirirlər, Əli də FİKRİNDƏN vaz keçərək, onu Mədainə sürgün edir.

---

[183] “Əl-Məqalat vəl-firəq”: səh.20.

[184] “Firəquş-şiə”: səh.22.

Burada irad meydana çıxır: belə ki, əgər İbn Səbənin Əbu Bəkr və Öməri söyməsi həqiqətən də onun öldürülməsini gərəkli edirdisə, onda o, hətta Əhli-Beytin məhəbbətinə tərəf çağıran bir şəxs olsaydı belə, öldürülməsi lazım gələrdi; çünki insanın Əhli-Beyt sevənlərdən olması onun üzərindəki vacib şəri cəzanı qüvvədən salmır. Yox əgər belə deyildisə, yəni Əbu Bəkr və Öməri söymək öldürülməni gərəkli etmirdisə, onda Əmirəlmöminin nə əsasla belə bir əmr verirdi?!

3. Əmirəlmömininin Abdullah ibn Səbəni Mədainə sürgün etDyini sübuta yetirən bircə dənə də olsun səhih rəvayət yoxdur. Səkkizinci fəsildə bu barədə ətraflı danışmışıq.

4. Müəlliflərin nəql etdiyi "Abdullah ibn Səbənin Peyğəmbərin vəfatından sonra müsəlman olması və bu vaxtdn etibarən Əmirəlmömininin canişinliyi məsələsini yayması fikri Abdullah ibn Səbənin məhz Osmanın vaxtında müsəlman olması VƏ ƏQİDƏSİNİ O vaxt aşkara çıxarması fikri ilə ziddiyyət təşkil edir. Əgər o, həqiqətən də öz əqidəsini Peyğəmbərin vəfatından sonra aşkara çıxarmış olsaydı, onda Ömər ibn Xəttab onu rahat buraxmazdı. Ömər Əbu Hüreyrəyə bundan daha əhəmiyyətsiz şeyləri nəql etməyi qadağan etdiyi VƏ ONU Təqib etdiyi halda, yəhudi İbn Səbənin özünün və Əbu Bəkrin xilafətini silkələyən belə sözlər danışmasına necə icazə verə bilərdi?!

5. Müəlliflərin qeyd etdiyi "O, Əli ibn Əbu Talibin vilayətinin vacibliyi məsələsini ortaya çıxaran, Əlinin düşmənlərindən bəraət edən, onun müxaliflərini ifşa edib təkfir edən ilk şəxsdir" fikri doğru deyil. Bu məsələni ilk dəfə ortaya çıxaran Allah rəsulu və onun bu məsələyə dəlalət edən çoxlu mübarək hədisləridir. Hal-hazırda həmin hədislər barədə danışmaq imkanımız yoxdur.

Təəcüblü olan digər bir şey İbn Əbülizzin "əl-Əqidətut-təhaviyyə" kitabının şərhində dediyi sözlərdir. O deyir: "Rafiziliyi münafiq və zındıq bir şəxs icad etmişdir. Onun bunu etməkdən məqsədi, alimlərin də dediyi

kimi, islam dinini aradan aparmaq və Peyğəmbəri gözdən salmaq olmuşdur. Abdullah ibn Səbə adlanan bu şəxs özünü zahirdə müsəlman kimi göstərərək, eyniylə Paulun *xristianlığa*[185] etdiyi kimi, öz hiylə və kələyi ilə islam dinini xarab etmək istəmişdir. Bu məqsədlə özünü abid kimi göstərmiş, özünü yaxşılığa dəvət edib pislikdən çəkindirən kimi qələmə vermişdir, daha sonra isə Osmanın öldürülməsinə çalışmışdır. Sonradan Əli Kufəyə gələndə, öz hədəflərinə çatmaqdan ötrü onun barəsində ifrata varmış və özünü onun dostuymuş kimi göstərmişdir. Onun Əli barəsində dediyi ifrat sözlər Əliyə çatdıqda Əli onu qətlə yetirmək istəmiş, *lakin o, Qirqisə qaçmışdır*. Onun əhvalatı tarixdə məşhurdur"[186].

Həqiqətən də maraqlıdır, İbn Səbədən söz açan rəvayətlərin heç birində onun Qirqisə qaçdığı deyilmədiyi halda, görəsən İbn Əbülizz İbn Səbənin Qirqisə qaçdığını haradan çıxarmışdır? Yəqin nurə kisəsindən çıxarmışdır.[187]

## Bu ziddiyyətli fikirlərin arasında uyğunluq yaratmaq mümkündürmü?

Şübhəsiz ki, bu təzadlı fikirlər arasında uyğunluq yaratmaq qeyri-mümkündür. Çünki İbn Səbə ya həqiqətən də mövcud olmuşdur, ya da olmamışdır.

Əgər həqiqətən də mövcud olmuşDURSA, ya Əmirəlmöminin onu Kufədə yandırmışdır, ya da Mədainə sürgün etmişdir.

---

[185] İsəviliyə yox, məhz xristianlığa... (Tərc.).

[186] "Şərhul-əqidətit-təhaviyyə": səh.490.

[187] "Nurə kisəsindən çıxarmaq" - ərəblər arasında məşhur məsəldir. Bir şey barəsində bilmədən danışan, yaxud danışdığı sözlər heç bir dəlilə əsaslanmayan şəxslər üçün işlədilir. Tərc.

Əgər həqiqətən də Mədainə sürgün etmişdirsə, onda da ya Əbu BƏKr və Öməri söydüyü üçün sürgün etmişdir, ya da özü barəsində ilahlıq iddiası etdiyi üçün sürgün etmişdir.

Buna əsasən, bu fikirlər arasında uyğunluq tapmaq mümkünsüzdür. Bəli, kimsə bu ziddiyyəti Abdullah ibn Səbə adında iki şəxsin var olması və onların birinin Kufədə yandırılması, digərinin də Mədainə sürgün edilməsi ilə həll etməyə çalışa bilər.

Lakin buna belə cavab verilər ki, bu iddia heç bir dəlil və sübuta əsaslanmayan, habelə şiə və sünnilər arasında heç kəs tərəfindən irəli sürülməyən bir iddiadır.

Hər ikisi qaradərili olan, hər ikisi qaradərili anadan dünyaya gələn, hər ikisi Yəməndən olan, hər ikisi Əmirəlmömininin tərəfdarlarındna olan, hər ikisi Kufədə yaşayan və hər ikisinin kimliyi və nəsəbi naməlum olan iki şəxsin eyni dövrdə yaşaması, onlarda birinin Əmirəlmöminini ilahlaşdırması və bu səbəbdən də yandırılması, digərinin də Əbu Bəkr və Ömər barəsində təhqiramiz sözlər dediyi üçün sürgün edilməsi, sonra da heç bir kitabda və ya rəvayətdə bu barədə bir şeyə rast gəlinməməsi və kimsənin bu iki nəfərin fərqli şəxslər olduğunu dediyinin görülməməsi doğrudan da çox uzaq, hətta qeyri-mümkün bir işdir. Biz indiyə kimi iki nəfər arasında bu qədər oxşarlığın olduğunu görməmişikş.

*Bundan başqa, ikilik iddiası edən şəxslər bu iddialarını dəstəkləyəcək dəlil və sübut təqdim etməlidirLƏR. Təkcə fərqli rəvayətlər və təzadlı fikirləri bir-biri ilə tutuşdurmaq kifayət etmir. Üstəlik bu növ tutuşdurma doğru da deyilDİR. Çünki elmi qaydalara əsasən höccət sayılan şeylə yalnız höccət sayılan şeyi tutuşdurmaq olar. Burada isə rəvayətlərlə alimlərin nəyə əsasən deyildiyi bilinməyən sözləri bir-biri ilə tutuşdurulur. Rəvayətlər öz-özlüklərində höccət sözlər cərgəsində olsalar da, alimlərin sözləri öz-özlüklərində höccət deyillər. Buna əsasən, səhih rəvayətlə ziddiyyət təşkil*

*edən və nəyə əsaslandığı bilinməyən sözlər rədd edilməlidir, hətta böyük şəxslər tərəfindən deyilsə belə.*

Üstəlik, biz Novbəxtinin və Səd ibn Abdullahın bu məsələ İLƏ BAĞLIL səsləndirdiKLƏRi fikirlərin istinadgahını bilmirik. Təxminən 300-cü hicri ili ərəfəsində yaşayan Novbəxti və 301-ci ildə vəfat edən Səd ibn Abdullah ilə Abdullah ibn Səbə arasında 260 ildən çox fasilə var. Elə isə onların heç bir istinad qeyd etmədən nəql etdikləri bu fikirlərə necə etimad etmək olar?

## ON BİRİNCİ FƏSİL

## Abdullah ibn Səbə məsələsində yekun mövqe

Açıq-aşkar şəkildə Abdullah ibn Səbə adlı bir şəxsin yaşadığına, Əmirəlmöminin Əli ibn Əbu Talib barəsində ifrata vardığına və Əmirəlmömininin onu yandırdığına dəlalət edən rəvayətlər yalnız “Ricalul-Kəşşi” adı ilə tanınan “İxtiyaru-mərifəıtir-rical” adlı kitabda gəlmişdir. Şiə alimlərindən hansı biri bu rəvayətləri öz kitabında nəql etmişsə, məhz bu kitabdan nəql etmişdir. Həmçinin hansı ON iki imamçı şiə alimi Abdullah ibn Səbə barədə danışmışsa, həmin kitabdakı rəvayətlərin məzmununa istinadən danşmışdır.

Bu rəvayətlərdə Abdullah ibn Səbənin yəhudi olması, fitnə hadisələrində iştirak etməsi və s. kimi məlumatlar əsla gəlməmişdir.

Əhli-sünnənin hədis alimləri də öz kitablarında Əmirəlmöminin Əli ibn Əbu Talibin özü barəsində ifrata varıb onu ilahlaşdıran bir qrup şəxsi yandırdığını nəql etmişlər. Lakin bu rəvayətlərdə Abdullah ibn Səbənin də onların içində olduğu deyilməmişdir. Sözügedən rəvayətlər barədə bir qədər sonra danışacağıq.

Abdullah ibn Səbə ilə bağlı şiə və sünni mənbələrində gələn sair rəvayət və xəbərlərə gəlincə isə, bu rəvayətlər zəif olmaqla yanaşı Abdullah ibn Səbənin yəhudi olduğunu, yasxud ifrata vardığını, yaxud fitnə hadisələrində rolu olduğunu bildirmir. Bu rəvayətlər sadəcə onu yalançı kimi tənqid edir.

Abdullah ibn Səbənin yəhudiliyi və Osmanın zamanında baş verən fitnə hadisələrinin əsas fiquru olması ilə bağlı nəql olunan rəvayətlərə gəlincə isə, bu rəvayətlər bəzi əhli-sünnə mənbələrində Seyf ibn Ömərdən nəql olunmuşdur. O da dəfələrlə dediyimiz kimi, yalançı və saxtakar bir şəxs olduğu üçün onun rəvayətlərinə etimad etmək olmaz.

## Bir dəstə ifratçının yandırıldığına dəlalət edən Əhli-Sünnə rəvayətləri

Əhli-sünnənin hədis hafizləri Əmirəlmöminin Əmirəlmöminin Əli ibn Əbu Talibin özü barəsində ifrata varıb onu ilahlaşdıran bir qrup şəxsi yandırdığına dəlalət edən bir sıra rəvayətlər nəql etmişlər. Həmin rəvayətlərdən aşağıdakıları misal göstərə bilərik.

İbn Həcər "Fəthül-Bari" kitabında belə nəql edir: "Əliyə dedilər: Burada məscidin qapısının ağzında sənin onların rəbbləri olduğunu idda edən bir qrup şəxs var.

Əli onları çağırıb dedi: Vay olsun sizə, nə deyirsiniz?

Dedilər: Sən bizim rəbbimiz, yaradanımız və ruzi verənimizsən.

Dedi: Vay olsun sizə, mən ancaq sizin kimi bir bəndəyəm. Sizin kimi yemək yeyir, sizin kimi su içirəm. Allaha itaət etsəm, inşallah mənə mükafat verəcək, etməsəm mənə əzab verəcəyindən qorxuram. Elə isə Allahdan qorxun, fikrinizdən əl çəkin.

Lakin onlar qəbul etmədilər. Sabahı gün səhər vaxtı Əlinin yanına gəldilər. Qənbər dedi: Vallahi, bunlar gəlib yeni eyni sözü deyirlər.

Əli dedi: Onları içəri al.

Onlar bu dəfə də eyni sözləri təkrarladılar.

Üçüncü dəfə də gəlib eyni şeyi dediklərində, Əli, "Əgər bir də belə bir şey desəniz, sizi ən çirkin şəkildə qətlə yetirəcəyəm", - dedi. Onlar yenə israr etdilər.

Əli dedi: Əli dedi: Ey Qənbər, mənə bel və külüngü olan işçilər gətir. (Qənbər bir neçə adam tapıb gətirdi). Əli onlara məscidin qapısı ilə qəsrin arasında bir çuxur qazdırdı. Qazdırarkən də çuxuru dərin etmələrini əmr etdi. Sonra ağac gətizdirib çuxurun içində bir tonqal qaladı. Sonra o şəxslərə üzünü tutub dedi: Ya sözünüzdən dönəcəksiniz, ya da sizi tonqala atacağam.

Lakin onlar yenə də sözlərini geri götürmədilər. Bundan sonra Əli onları tonqala atdı. Elə ki, yandılar, belə bir şer oxudu:

*Mən pis bir iş müşahidə etdim,*
*Odur ki, Qənbəri çağırıb, od qalatdım.*

Bu rəvayətin sənədi həsəndir”.[188]

Həmçinin Osman ibn Əbu Osman Ənsaridən belə nəql olunur:

“Bir qrup şiə Əlinin yanına gəlib dedilər: “Ey möminlərin əmiri, sən “o”-san”.

Əli dedi: “Mən kiməm?”

Dedilər: “Sən “o”-san”.

Dedi: “Vay olsun sizə, mən kiməm?”

Dedilər: “Sən bizim rəbbimizsən”.

Dedi: “Vay olsun sizə, bu sözünüzdən dönüb tövbə edin”.

Lakin onlar qəbul etmədilər. Əli də onların boyunlarını vurdu. Sonra dedi: “Ey Qənbər, mənə bir dəstə odun gətir”. Sonra onlar üçün bir xəndək qazaraq, onları orada yandırdı. Sonra dedi:

*Mən pis bir iş müşahidə etdim,*
*Qənbəri çağırıb, od qalatdım.*[189]

Zəhəbi “Mizanul-itidal” kitabında belə deyir: “Abdullah ibn Səbə ifratçı zındıqlardandır. Azğın və azdırandır. Hesab edirəm ki, Əli onu odda yandırmışdır”.[190]

---

188 “Fəthül-Bari”: 12/227.

189 “Ət-Təmhid” (İbn Əbdülbərr): 5/317; “Şərhuz-Zərqani ələl-muvatta”: 4/18; “Mizanul-itidal”: 2/404; “Tabaqatul-muhəddisin bi-İsbahan”: 2/343.

190 “Mizanul-itidal”: 4/105.

İbn Həcər də "Lisanul-mizan" kitabında belə demişdir: "Abdullah ibn Səbənin ardıcılları olmuşdur. Onlara səbaiyyə deyilmişdir. Onlar Əli ibn Əbu Talibin allah olduğuna inanmışlar. Əli xəlifəliyi vaxtında onları odda yandırmışdır".[191]

Şəhrisdtani "əl-Miləl vən-nihəl" kitabında belə deyir: "Səbaiyyə Əliyə "sən sənsən", yəni sən ilahsan deyən Abdllah ibn Səbənin ardıcıllarına verilən addır".[192]

Əbdülqahir Bağdadi "əl-Farq beynəl-firəq" kitabında deyir: "Səbaiyyə Əli barəsində ifrata varan, onun peyğəmbər olduğunu, sonra bir qədər də ifrata varıb onun ilah olduğunu deyən və Kufənin bir qrup avan camaatını bu inanca dəvət edən Abdullah ibn Səbənin ardıcıllarına verilən addır. Abdullah və onun adamlarının xəbəri Əliyə çatdıqda o, onun dəstəsindən olan bir qrup şəxsin iki çuxurda yandırılmalarını əmr edir..."[193]

İbn Qüteybə "Təvilu-muxtələfil-hədis" kitabında belə deyir: "Abdullah ibn Səbə Əlinin rəbb olduğunu iddia etmişdir. Əli onun adamlarını odda yandırmışdır. O, bununla bağlı belə bir şer demişdir:

*Mən işin pis bir iş olduğunu gördükdə,*
*Qənbəri çağırıb, od qalatdım.*[194]

İsfərayini. İbn Həcər "Fəthul-Bari" kitabında deyir: "Əbülmüzəffər İsfərayini "əl-Miləl vən-nihəl" kitabında iddia etmişdir ki, Əlinin odda yandırdığı şəxslər rafizilərdən olan və Əli barəsində ilahlıq iddia edən bir dəstə şəxs olub. İsfərayiniyə görə, onlar səbaiyyə firqəsidirlər. Onların

[191] "Lisanul-mizan": 3/290.

[192] "əL-Miləl vən-nihəl": 1/174.

[193] "Əl-Farq beynəl-firəq": səh.233.

[194] "Təvilu-muxtələfil-hədis": səh.69.

başçıları Abdullah ibn Səbə yəhudi olmuş, sonra yalandan islamı qəbul etmiş və bu əqidəni qondarmışdır".[195]

Hafiz İbrahim ibn Yaqub Cuzcani "Əhvalur-rical" kitabında deyir: "Səbəiyyə firqəsi küfrdə ifrata varıb Əlinin özlərinin ilahı olduğunu iddia etdikdə, Əli onları odda yandırmış və bu sözləri demişdir.

*Mən işin pis bir iş olduğunu gördükdə,*
*Qənbəri çağırıb, od qalatdım.*

Abdullah ibn Səbə o zamankı Quranın doqquz cilddən yalnız bir cild olduğunu deyincə və bunu Əlidən öyrəndiyini iddia edincə, Əli onu vurmuş, sonra onu öldürmək istəsə də (fikrindən daşınaraq) onu sürgün etmişdir".[196]

Bəlkə də hədis hafizlərinin Əli ibn Əbu Talibin İslamdan dönən bir qrup şəxsi yandırması ilə bağlı nəql etdiyi rəvayətlər də məhz Abdullah ibn Səbə və onun adamlarına işarə edir, çünki bir şəxs barədə ilahlıq iddiası etmək islamdan dönmək sayılır:

Buxari "Səhih" kitabında, Əbu Davud "Sünən" kitabında – mətn Əbu Davududundur - , Nəsai, Beyhəqi, Əhməd, Hakim, Darəqutni və başqaları da öz kitablarında öz sənədləri ilə İkrimədən belə nəql etmişlər:

"Əli islamdan dönən bir dəstə şəxsi odda yandırdı. Bu xəbər İbn Abbasa çatdıqda, o belə dedi: "Mən onları odda yandırmazdım. Çünki Peyğəmbər buyurub ki, Allahın əzabı ilə əzab verməyin. Mən Peyğəmbərin "kim dinini dəyişsə, onu öldürün" sözünə görə onları öldürərdim. Bu xəbər Əliyə çatdıqda, o "vay olsun İbn Abbasa", - dedi".[197]

---

[195] "Fəthul-Bari": 12/227.

[196] "Əhvalur-rical": səh.38.

[197] "Səhihul-Buxari": 2/927; "Sünənü-Əbi Davud": 4/126; "Sünənün-Nəsai": 7/120; "Əs-Sünənül-kubra" (Beyhəqi): 8/202; "Əs-Sünən" (Nəsai): 2/301; "Əl-Müstədrək": 3/537 (Hakim səhih bilmiş, Zəhəbi də rəvayətin Buxarinin şərtinə müvafiq olduğunu

Habelə, bəzi şairlər, o cümlədən Seyyid Himyəri bu hadisə barəsində şer yazmışlar. Seyyid Himyəri demişdir:

*Bir dəstə şəxs Əlinin barəsində ifrata vardılar,*
*Vay olsun onlara, yollarını azdılar!*
*"O, Allahdır!" – dedilər, lakin bizim xaliqimiz olan Allah,*
*Oğlunun olması və ya ata olmaqdan çox-çox ucadır!*[198]

Xülasə, şiə və sünni mənbələrində nəql olunan səhih rəvayətlər əmirəlmöminin Əli ibn Əbu Talib özü barəsində ifrata varan bir qrup şəxsi odda yandırdığına dəlalət edir. (İstər şiə hədislərində bildirildiyi kimi, Abdullah ibn Səbə də onlardan olsun, istər sünni hədislərində bildirildiyi kimi, onun onlardan olub-olmamasi bilinməsin, fərq etməz).

Nəticə etibarilə bu səhih rəvayətlrəin heç birində Abdullah ibn Səbənin yəhudi olması, yaxud Osmanın qətlə yetirilməsi hadisəsində iştirak etməsi qeyd olunmamışdır.

Abdullah ibn Səbədən söz açan digər rəvayətlərə gəlincə isə, onlar da iki qrupa bölünürlər:

1. Seyf ibn Ömər Təmimidən qeyriləri yolu ilə nəql olunmuş rəvayətlər. Bu rəvayətlər İbn Səbənin yalançı olmasından başqa heç nəyə dəlalət etmirlər. Bu rəvayətlər barədə ötən fəsillərdə danışdıq.

2. Seyf ibn Ömər Təmimi yolu ilə nəql edilən və İbn Səbənin yəhudi olmasına və fitnə hadisələrində əsas rol sahibi olmasına dəlalət edən rəvayətlər.

---

bildirmişdir); "Müsnədü-Əhməd": 1/217, 282; "Sünənüd-Darəqutni": 3/108 (Darəqutni demişdir: Bu, sabit və səhihdir); "Səhihü-sünəni-Əbi Davud" (Əlbani): 3/822 və s.

[198] "Əl-İqdul-fərid": 2/245.

Bu iki qrup rəvayətlərin sənədləri zəif olduğu üçün nəyinsə isbatı və ya inkarı mövzusunda onlara etimad etmək mümkün deyil.

Deməli, İbn Səbə məsələsində etimad edilən rəvayətlər YALNIZ Əmirəlmömininin içlərində İbn Səbənin də olduğu özü barədə ifrat fikirlər söyləyən bir qrup şəxsi yandırdığına dəlalət edən rəvayətlərdir.

## Araşdırmanın nəticəsi

Şiə mənbələrində nəql edilmiş səhih rəvayətlər Əmirəlmömininin zamanında Abdullah ibn Səbə adlı bir şəxsin yaşadığına, bu şəxsin Əmirəlmöminin barəsində ifrata varıb ilahlıq iddiası etdiyinə və Əmirəlmömininin onu onunla eyni düşüncədə olan bir neçə şəxslə birlikdə odda yandırdığına dəlalət edir.

İkinci hicri əsrinin sonlarında Seyf ibn Ömər Təmimi adlı bir saxtakar isə Abdullah ibn Səbə barəsində başqa yalanlar uyduraraq, onu əfsanəvi qəhrəmana çevirmişdir. O, İbn Səbəni yəmənli bir yəhudi kimi təsvir etmiş, onun Osmanın vaxtında hiylə və kələkləri ilə islamı zəiflətmək üçün yalandan islamı qəbul etdiyini demiş, onun səhabələri belə yoldan çıxardığını, ətrafına xeyli sayda adam yığdığını, adamlarını müxtəlif ölkələrə göndərdiyini və Osmanın öldürülməsinə gətirib çıxaran bütün işlərin arxasında onun dayandığını nəql etmişdir.

Lakin saxtakr Seyf ibn Ömər bununla da kifayətlənməmişdir. O, rəcət, Əli ibn Əbu Talibin Peyğəmbərin canişini olması, habelə yerdən çıxacaq canlının o olması kimi doğru şiə inanclarını Abdullah ibn Səbəyə nisbət verərək, şiəliyin ilk qurucusunun o olduğunu və şiəlik əqidəsinin yəhudilikdən qaynaqlandığını göstərməyə çalışmışdır.

Seyf ibn Ömər Təmiminin rəvayət qondarmaqda ustalığı Muhəmməd ibn Cərir Təbəri kimi nüfuzlu tarixçinin onun əfsanələrini özünün məşhur

və əhli-sünnə nəzərində ən mötəbər tarix kitablarından biri sayılan "Tarix" kitabında nəql etməsinə səbəb olmuşdur.

Sonradan, Təbəridən sonra yaşamış İbn Əsakir, Zəhəbi, İbn Kəsir və b. kimi bir sıra tarixçilər də eyni uydurmaları öz kitablarında nəql etmişlər. Nəticədə Abdullah ibn Səbə əfsanəsi şübhə olunmaz bir tarixi həqiqətə çevrilmiş, İbn Səbə şiəlik üçün tənə vasitəsi olmuş, şiəliyin canişinlik, rəcət və s. kimi səhih dəlillərə əsaslanan inancları "islama qarşı kinli olan bir yəhudi" tərəfindən ixtira edildiyi üçün heç bir müsəlmanın etiqad etməməli olduğu batil inanclara dönmüşdür.

Bu uydurmaların müəllifi hafizlərin və hədisçilərin yalançılığı və saxtakarlığı barəsində yekdl fikirdə olduqları Seyf ibn Ömər Təmimi olsa da, bəzi əhli-sünnə alimləri sanki bunu görməzdən gələrək, ya dərin araşdırma aparmadan, ya da şiələr əleyhinədir deyə nəfslərinə xoş gəldiyi üçün bu əfsanələri həqiqət kimi qəbul etmiş, onları hər yerdə səsləndirməyə çalışmışlar.

Nəticədə sözügedən məsələ onlar arasında heç bir tədqiqat aparılmadan, sanki həqiqətmiş kimi nəsilbənəsil ötürülmüş, onu inkar edənlər ya şiə olmaqla, ya da şiələrə simpatiyası olmaqla ittiham edilmişdir.

Qısası, Abdullah ibn Səbəyə nisbət verilən fitnə hadisələrində iştirak və s. kimi məsələlər, habelə onun şiəliyin bir sıra inanclarının təsisçisi olması ilə bağlı nağıllar heç bir səhih dəlillə əsaslanmır.

İbn Səbənin yalançı olmasına, Əmirəlmöminin Əli ibn Əbu Talib barəsində ifrata vararaq onun ilah olduğunu iddia etməsinə və Əmirəlmömininin də onu odda yandırmasına gəlincə isə, bütün bu bunlar daha öncə qeyd etdiyimiz səhih rəvayətlərə əsasən, mötəbər məlumatlardır.

Abdullah ibn Səbə barədə bizim gəldiyimiz qənaət budur. Daha öncə sitatlarını qeyd etdiyimiz böyük keçmiş dövr şiə alimlərinin nəzəri də məhz belədir.

Bundan aydın olur ki, “Abdullah ibn Səbə uydurma şəxsiyyətdir” deyənlər heç bir doğru dəlil olmadan mötəbər rəvayətləri inkar etmişlər, “Abdullah ibn Səbə yəhudi olmuş və fitnə hadisələrində əsas rol almışdır” deyənlər də heç bir dəlil olmadan yalan, zəif və uydurma rəvayətləri əsas götürmüşlər.

## ON İKİNCİ FƏSİL

### Şiə məzhəbinin Abdullah ibn Səbədən uzaqlığı

Ötən fəsillərdə Abdullah ibn Səbənin yəhudi olmadığı, fitnə hadisələrində heç bir rol almadığı və bu kimi nağılların məhz bir qisminə işarə etdiyimiz müəyyən məqsəd və hədəflərdən ötrü qondarıldığı, habelə, Abdullah ibn Səbənin həqiqətdə ifratçı olduğu, Əmirəlmöminin barədə ilahlıq iddiası etdiyi və odda yandırıldığı aydın olduqdan və sübuta yetdikdən sonra, deyirik:

Abdullah ibn Səbənin istər yəhudi olaraq, istərsə də qeyri-yəhudi olaraq, istər fitnə hadisələrində rolu oynamış bir şəxs olaraq, istərsə da oynamamaış bir şəxs olaraq sözügedən dövrdə var olması, yaşaması və fəaliyyət göstərməsinin on iki imamçı şiə məzhəbinə heç bir aidiyyatı yoxdur. Çünki şiə məzəbi yaxından-uzaqdan bu şəxslə əlaqəli deyil. On iki imam məzhəbinin Abdullah ibn Səbənin ixtirası olduğunu iddia edən kəslər böyük bir günaha bulaşmış yalançı və iftiraçı ŞƏXSLƏRDİRLƏR. Belə iddia edən şəxslər dəlil və sübut gətirməlidirlər. Lakin necə gətirə bilərlər? Bunu etmək quru qayadan su çıxarmaq kimidir.

Bunununla belə, biz on iki imam şiə məzhəbinin bu şəxsdən uzaq olduğunu göstərməkdən ötrü aşağıdakıları qeyd edirik:

1. Biz şiə kitablarında ondan nəql olunan bircə dənə hədis, söz, fətva və s. görmürük. Əgər şiə məzhəbi Abdullah ibn Səbə tərəfindən yaradılmış olsaydı, onda onun əlamətləri bu məzhəbdə açıq-aşkar görünər, barəsində ətraflı məlumat olar, sözləri nəql edilər, fətvaları yazılar, etiqad və fiqhə dair fikirləri kitablarda qeyd olunardı. Əgər bunların heç biri mövcud deyilsə, onda bu məzhəbi ona necə nisbət vermək olar?

Bəzi şiə düşmənlərinin rəcət, İmam Əlinin yerdən çıxacaq canlı olması və vəsilik kimi bəzi şiə inanclarını Abdullah ibn Səbəyə nisbət vermələrinə gəlincə isə, bunun saxtakarlıq və oyundan başqa bir şey olmadığı gün kimi aydındır. Onlar bununla öz yalanlarını bəzəyib-düzəmək, onu

gücləndirmək istəmişlər. Lakin bu məlumatların yalnız və yalnız yalançı və saxtakar Seyf ibn Ömərin rəvayətlərində, bir də Seyfin rəvayətlərinə istinad edən bir sıra əhli-sünnə alimlərinin sözlərində gəlməsi onların yetərsizliyiNİN və batilliyinin isbatı üçün kifayət edir.

Kəşşinin rəvayətlərinə gəlincə isə, bu rəvayətlər ən çoxu Abdullah ibn Səbənin Əli ibn Əbu Talibi ilahlaşdırdığına dəlalət edir. Aydındır ki, bir kəsi ilahlaşdıran onun yerdən çıxacaq canlı olmasına və ya Peyğəmbərin canişini olmasına etiqad etməz.

Bundan başqa, Əmirəlmömininin həzrət Peyğəmbərin canişini olması fikri təkcə on iki imam şiələrinə məxsus bir fikir deyil. Əksinə, səhabələrin bir dəstəsi də bu fikirdə olmuşlar. Buna onlarda nəql olunan çoxlu sözlər və şer parçaları da dəlalət edir. Hal-hazırda onları qeyd etməyə imkan yoxdur. Əmirəlmömimininin yerdən çıxacaq canlı olması inancı da belədir.

2. Bəzi şiə kitablarında Abdullah ibn Səbə ilə bağlı Əhli-Beyt imamlarından nəql edilən hədislər məzəmmət, lənət və uzaqlıq məzmunundadır. Biz həmin hədislər qeyd etdik. Halbuki, siz heç bir islam məzhəbinin kitablarında səhih sənədlərlə bir yana, heç zəif sənədlərlə belə öz məzhəblərinin təsisçilərini lənətləyib məzəmmət edən rəvayətlərin nəql olunduğunu tapa bilməzsiniz.

3. İbn Səbənin həqiqi şəxsiyyət olduğu və İmam Əlini ilahlaşdırdığı qənaətində olan şiə alimləri onun kafir, ifratçı və məlun olduğunu qeyd etmişlər. Biz daha öncə bu alimlərdən də sitatlar qeyd etdik.

Bundan başqa, siz heç bir şiə aliminin İbn Səbəni öydüyünü, tərifldiyini, mədh etdiyini, onu təmizə çıxarmağa çalışdığını və ya barəsində xoş sözlər dediyini görə bilməzsiniz. Əgər şiə məzhəbi onun tərəfindən yaradılmış olsaydı, onda şiələr arasında onu müdafiə edən və ya tərifləyən şəxslər GÖRƏRDİK.

4. On iki imam şiə məhzəbi əqidə əsasları, ibadətləri, fiqhi və s. ilə kamil bir məzhəbdir. Onun bütün ideoloji və əməli təlimləri səhih rəvayətlərlə

Əhli-Beyt imamlarından nəql olunmuşdur. Şiələrin sxolastika və fiqhə dair kitabları buna ən gözəl şahiddir. Bu kitablara nəzər salan hər bir şəxs bu kitablarda qeyd olunan ideoloji və ya əməli təlimlərin heç birinin Abdullah ibn Səbədən götürülmədiyinə qəti şəkildə əmin olar.

Seyf ibn Ömərin Abdullah ibn Səbə tərəfindən icad olunduğunu iddia etdiyi canişinlik, yerdən çıxacaq canlı, səhabələrin ən üstünü və rəcət kimi məsələlərinə gəlincə isə, bu məsələlər şiələrin etiqad əsaslarına daxil olan minlərlə məsələdən sadəcə dördüdürlər (və təbii ki, yalandan İbn Səbəyə nisbət verilmişlər).

Elə isə, minlərlə təlimindən cəmi dörd təlimi – özü də bu təlimlər həmin şəxsdən daha əvvəl mövcud olmuş və səhih dəlillərlə sübuta yetmişdir – ona nisbət verilib deyə bütöv bir məzhəbi bir şəxsin adına necə yazmaq olar?! Əgər bu məntiqə əsaslansaq, onda əhli-sünnə məzhəbini də yəhudilərə nisbət verməliyik. Axı onların bəzi ideoloji və əməli təlimləri dolayı və ya birbaşa yolla Kəbul-Əhbar və qeyriləri kimi bəzi yəhudilərdən əxz edilib!

Deməli, on iki imam məzhəbi Abdullah ibn Səbədən uzaqdır, onun Abdullah ibn Səbə ilə heç bir əlaqəsi yoxdur və onun etiqadi və fiqhi təlimlərinin heç biri bu şəxsdən götürülməmişdir. Əksinə, şiələr Abdullah ibn Səbədən bezarlıq edir, onu və onunla eyni inancda olan bütün şəxsləri lənətləyirlər. Kim şiələrə bundan başqa bir şey nisbət versə, yalançı və iftiraçıdır.

Ustad Muhəmməd Kürd Əli "Xutatuş-Şam" kitabında necə də gözəl deyir:

"Bəzi yazıçıların dediyi şiə məzhəbinin əsli İbn Səvda adı ilə tanınan Abdullah ibn Səbədən gəlir fikri səhvdir və bu, şiə məzhəbini tanımamaqdan qaynaqlanır. Kim bu adamın şiələrin nəzərində hansı yeri tutduğunu, şiələrin ondan və onun əməl və sözlərindən necə bezarlıq

etdiklərini və şiə alimlərinin hamılıqla ona tənə etdiklərini bilsə, bu sözün nə dərəcədə "doğru" olduğunu anlayar".[199]

[199] "Xutatuş-Şam": 6/246.

# SON

Bütün bu deyilənlərdən aydın olur ki, Abdullah ibn Səbə məsələsi heç bir reallığı olmayıb heç bir dəlillə sübuta yetməyən uydurma və xəyallardan ibarətdir. Lakin uydurma olsa belə, ona böyük önəm verilmiş, meydana çıxdığı dövrdən, yəni ikinci hicri əsrindən etibarən onun baş qəhrəmanı – Abdullah ibn Səbə şiələr əleyhinə istifadə olunan bir "qılınca" dönmüşdür. Buna görədir ki, bəzi sünni alim və yazıçıların şiələrə irad tutarkən birinci Abdullah ibn Səbə ilə irad tutduqlarını və şiələri məzhəblərinin qurucusunun yəhudi olması ilə ittiham etdiklərini görürük.

Doğrudan da, islam məzhəblərindən birinin heç bir əsası olmayan uydurma və yalan bir şeylə ittiham olunması və sonra da nə bir sözünün, nə də bir iradının eşidilməməsi çox təəssüfverici, kədərverici bir haldır.

*Güclünün iddiası yırtıcı heyvanın,*
*Zəif heyvanın qarşısındakı iddiası kimidir.*
*Yırtıcının ən böyük dəlili,*
*Elə onun dırnağıdır.*

Abdullah ibn Səbə məsələsi şiələrin məruz qaldıqları yeganə iftira deyil. Şiələr onun kimi çoxlu iftira və haqsızlıqlar məruz qalmışlar.

Lakin biz buna təəccüblənmirik. Çünki aciz adam dəlilə dəlillə, sübuta sübutla cavab verə bilmədikdə, ittiham atmağa, yalan uydurmağa əl atar. Elə təkcə İbn Teymiyyə və onun kimilərin iftiralarına baxsanız, inana bilməyəcəyiniz iftiralar görərsiniz.[200]

---

[200] İbn Teymiyyə "Minhacus-sünnə" kitabında (2/143-144) belə deyir: "Batil mövzusunda rafizilərdən daha təəssübkeş firqə görməmişik. Bütün firqələr içərisində yalnız onlar öz müxaliflərinin əleyhinə yalandan şahidlik etməklə tanınmışlar. Onlar o qədər təəssübkeşdirlər ki, hətta "Fatimə Peyğəmbərdən irs alıb, amma Peyğəmbərin əmisi almayıb", - deyə bilmək üçün mirasın hamısının qız övladın payı olduğunu

Ümumiyyətlə, bəzi müxaliflər – Allah onları hidayət etsin – müəyyən iftiralar uydurараq həmin iftiraları özləri üçün "dəlil" qərar vermiş, başdan-ayağa yalan, uydurma, saxta və əsassız olmalarına baxmayaraq, onları sanki qəti şəkildə təsdiqini tapmış məsələ kimi təqdim etmiş, bununla şiəliyi gözdən salmağa, şiələri təkfir etməyə, yaxud onları azğın göstərməyə və ya məzhəblərini batil çıxarmağa çalışmışlar.

İstər nə vaxtsa var olduğunu təsdiq edək, istərsə də inkar edək, istər əhli-sünnə şiələrin Abdullah ibn Səbədən uzaq olduğunu qəbul etsinlər, istərsə də etməsinlər Abdullah ibn Səbə məsələsinin şiələrin nəzərində heç bir əhəmiyyəti yoxdur.

Yəhudi əllər bəzi islam məzhəbləri ilə çox oynamışdır. Lakin həmin məzhəblərin nümayəndələri öz üzərlərində olan ləkəni ört-basdır etməkdən ötrü bu ləkəni ondan ən uzaq olan şəxslərə – öz məzhəblərini Əhli-Beytdən (hansı ki, bütün müsəlmanlara onlara tabe olmaq əmr edilib) götürən şiələrə yaxmaq istəmişlər.

İftira atmaq şiə düşmənlərinin ən güclü silahıdır. Onlar bununla haqq əhlini batil göstərməyə, onların tərəfini zəiflətməyə çalışırlar.

*Xəbərçiyə bir çarə edə bilərəm,*
*Amma yalançının qarşısında heç nə edə bilmərəm.*
*O kəs ki, yalandan nə istəyir düzüb-qoşur,*

---

demişlər. Onlardan bəzisi Aişə dəvənin üstündə Əli ilə döyüşüb deyə, dəvənin ətini haram edib... Onlar təəssübkeşliklərindən "on" sayının adını çəkmirlər, əksinə, "doqquz və bir", - deyirlər. Əgər sütun və s. inşa etmək istəsələr, onların sayını on etmirlər. Onlar bir çox işlərində bu qaydaya riayət edirlər. Onlar ifrat cahillilәri və təəssübkeşlikləri səbəbindən heç bir günahı olmayan heyvanları öz nifrət elədikləri şəxslər hesab edərək onlara haqsız yerə işkəncə verirlər. Məsələn, qırmızı qoyunu Aişə adlandırır, sonra da onun yununu yolurlar. Həmçinin bəzi heyvanlarını Əbu Bəkr, bəzilərini də Ömər adlandırır və onlarI haqsız yerə vururlar. Xurmadan bir insan surəti düzəldib adını Ömər qoyur, sonra da onun qarnını yarırlar..."

*Mənim ona qarşı bir çarəm yoxdur.*

Lakin bu üslub qəti dəlillər və möhkəm sübutlar qarşısında iflasa məhkum ola bir üslubdur. Buna görə də möhtərəm şiə alimləri – Allah onların məkanlarını cənnət etsin – həmişə bu cür iftira, yalan və ittihamlara möhkəm dəlillərlə cavab verMİŞ, ittihamlara rədd olaraq həqiqətləri bəyan edən nəfis kitablar və faydalı əsərlər yazmışlar.

Hazırkı dövrdə yaşayan bəzi alimlər şiələri təkfir etməkdən və azğın göstərməkdən başqa heç bir işləri yoxmuş kimi hələ də İbn Teymiyyə, Zəhəbi, Ibn Cəvzi, Ibn Kəsir, İbn Həcər Heysəmi, Əbu Bəkr ibn Ərəbi və s. kimi qədim şiə düşmənlərinin yazdıqlarını cəmiyyətə tirajlamaqla məşğuldurlar. Görəsən, bu adamlar ümmətin müqəddəratı oynayan və onların sərvətlərinə hakim kəsilən islam düşmənlərinə qarşı bir şey yazsaydılar, daha yaxşı olmazdımı? Görəsən, 21-ci əsrin hər tərəfdən fəsad, azğınlıq və şəhvətlə əhatə olunmuş biçarə gənciyi barədə bir şey yazsaydılar faydalı olmazdımı?

Bunlar özlərini - əgər nə vaxtsa yaşadığını fərz etsək - bir yəhudi ilə məşğul ediblər, amma din və dünyanı xarab edən min-min “yəhudi”ni görməzdən gəliblər.

Allah-taala Qurani-Kərimdə belə buyurur: ***“De: “Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək. Əgər onlar üz döndərsələr, deyin: “Şahid olun ki, biz müsəlmanlarıq!”***[201]

Elə isə ey “la ilahə illəllah” əhli, buyurun bizimlə sizin aranızdakı ortaq kəliməyə doğru gəlin: Allahdan başqasına ibadət etməyək, Ondan başqasını Ona şərik qoşmayaq.

[201] Ali-İmran, 64

Bizim ortaq fikirdə olduğumuz məsələlər ixtilaf etdiyimiz məsələlərdən daha çoxdur. Bizi birləşdirən şeylər bizi ayıran şeylərdən daha çoxdur. Allahımız birdir, peyğəmbərimiz birdir, kitabımız birdir, qibləmiz birdir, namazlarımız beşdir, oruclarımız Ramazan ayındadır, Həccimiz Kəbə evinədir.. və... və... və.

Biz bir olduqda daha güclüyük, birlik olduqda daha qüvvətliyik. Allah bizə bir və birlik olub, ayrılmaqdan çəkinməyi əmr etdiyi halda necə ayrıla bilərik? ***"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz (bir-birinizə) düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində (bir-birinizlə) qardaş oldunuz".***[202]

Buna görə də biz ümmətin birliyini parçalayan, gücünü tükədən və alimləri öz səy və bacarıqlarını lazımsız işlərə sərf etməyə vadar edən (hansı ki, bu səylər bütün müsəlmanlara izzət və kəramət gətirən işlərə sərf edilə bilərdi) bu davamlı düşmənçiliyin sona yetməsi üçün sünni qardaşlarımızı şiələrlə münazirə edərkən və ya onlar barədə hökm verərkən insaflı olmağa çağırır, onları həqiqi şiə maarifi ilə tanış olmaqdan, şiəliyi təəssübkeşlik və nəfsi istəklərdən uzaq bir şəkildə araşdırmaqdan və ötrü şiələrin əqidə, fiqh, təfsir və s. sahələrdə yazdıqları mötəbər kitabları oxumağa dəvət edirik.

Allahdan müsəlmanların qəlblərini isnişdirməsini, səflərini birləşdirməsini, onları möhkəm, dağılmaz və hər bir parçası digəri bir parçasını möhkəmlədən bir divar kimi etməsini, onların sərtliyini düşmənlərinə qarşı çevirməsini və nifrətlərini onlarla mübarizə aparan kəslərə tərəf doğrultmasını diləyirik. Həqiqətən də O, duaları eşidən və qəbul edəndir. Dualarımızın sonu: aləmlərin Rəbbi olan Allaha həmd olsun. Peyğəmbərimiz Muhəmmədə və onun pak və təmiz ailəsinə Allahın rəhmət və bərəkəti olsun!

---

[202] Ali-İmran, 103